**Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında**

# TƏLİMAT

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli, 167 nömrəli qərarı ilə təsdiq edilmişdir**

## I BÖLMƏ

## ÜMUMİ MÜDDƏALAR

1. Bu Təlimat Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli, 261 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə hazırlanıb, dövlət notariusları və xüsusi notariuslar tərəfindən notariat hərəkətlərinin aparılması qaydasını müəyyən edir.

1-1. Rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti başçısının nümayəndələri "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə uyğun olaraq notariat hərəkətlərini apararkən, bu Təlimatın müvafiq müddəalarını rəhbər tuturlar.

2. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq notarius aşağıdakı notariat hərəkətlərini aparır:

1) əqdləri və etibarnamələri təsdiq edir;

2) miras əmlakın qorunması üçün tədbirlər görür;

3) vərəsəlik hüququ haqqında şəhadətnamələr verir;

4) ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələr verir;

5) yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələr verir;

6) sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünü təsdiq edir;

7) sənədlərdəki imzaların həqiqiliyini təsdiq edir;

8) sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü təsdiq edir;

9) şəxsin sağ olması faktını təsdiq edir;

10) şəxsin müəyyən yerdə olması faktını təsdiq edir;

11) şəxslə fotoşəkildəki şəxsin eyniliyini təsdiq edir;

12) sənədlərin təqdim olunduğu vaxtı təsdiq edir;

13) fiziki və hüquqi şəxslərin ərizələrini və sənədlərini başqa fiziki və hüquqi şəxslərə verir;

14) öhdəliyin icra predmetini saxlamağa, pul məbləğlərini, sənədli qiymətli kağızları və vəsiyyətnamələri depozitə qəbul edir;

15) icra qeydləri aparır;

16) veksellərə protestlər tərtib edir;

17) çekləri ödənilmək üçün təqdim edir və çeklərin ödənilmədiyini təsdiq edir;

18) sənədləri saxlanmaq üçün qəbul edir;

19) dəniz protestləri tərtib edir;

20) sübutları təmin edir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövlət notariusuna başqa notariat hərəkətlərinin aparılması da həvalə edilə bilər.

3. Notariat hərəkətlərini dövlət notariusu (böyük dövlət notariusu, dövlət notariusu) və xüsusi notarius aparır.

4. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə uyğun olaraq notariat hərəkətlərinin aparılması zamanı Azərbaycan Respublikasının Konstitusiyası, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunları, habelə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa zidd olmayan Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin öz səlahiyyətləri daxilində qəbul etdikləri normativ aktlar və Təlimat rəhbər tutulur.

Notariat fəaliyyəti sahəsində qanunvericiliyin tətbiqi təcrübəsi ilə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən metodiki tövsiyələr hazırlanır.

5. Notarius "Notariat haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan notariat hərəkətlərini apara bilər, əqdlərin, ərizələrin və digər sənədlərin layihələrini tərtib edə bilər, sənədlərin surətlərini və onlardan çıxarışları hazırlaya bilər, notariat hərəkətlərinin aparılması ilə əlaqədar məsləhətlər verə bilər, dövlət və bələdiyyə qurumlarından, habelə fiziki və hüquqi şəxslərdən həmin hərəkətlərin aparılması üçün sənədlər və məlumatlar tələb edə bilər, daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının alınması ilə bağlı əsaslandırılmış yazılı sorğular verə bilər.

Bu hərəkətlərin yerinə yetirilməsi dövlət notariat ofisinin ştatında olan məsləhətçilərə, notarius yanında təcrübə keçənlərə, eləcə də xüsusi notariusun köməkçisinə həvalə edilə bilər.[9]

6. Notarius öz vəzifələrini yerinə yetirərkən:

a) fiziki və hüquqi şəxslərə aparılan notariat hərəkətləri ilə bağlı onların hüquq və vəzifələrini izah etməli, bu hüquqların həyata keçirilməsi və qanuni mənafelərinin qorunması üçün kömək göstərməlidir;

b) hüquqi məlumatsızlığın onlara vura biləcəyi ziyanın qarşısını almaq üçün notariat hərəkətlərinin aparılması nəticələri barədə onlara xəbərdarlıq etməlidir;

c) “Notariat haqqında” Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına əməl etməli, peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar ona məlum olan məlumatları gizli saxlamalıdır;

ç) Notarius Notariusun etik davranış kodeksinin tələblərinə riayət etməlidir;

d) “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda və qaydada monitorinq olunmalı əməliyyatlara dair, həmçinin hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə əlaqədar məlumat və sənədlərin təqdim edilməsi ilə bağlı tələblərə riayət etməli, bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi və normativ xarakterli aktlarında nəzərdə tutulmuş digər tədbirləri həyata keçirməlidirlər;

e) Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin metodiki tövsiyələrinə riayət etməlidir.

“Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 25-1-ci maddəsində nəzərdə tutulmuş hallarda xüsusi notariusun köməkçisi xüsusi notariusu əvəz etdikdə, xüsusi notariusun adından və onun möhüründən istifadə etməklə notariat hərəkətlərini apararkən, rəsmiləşdirilən sənədlərdə xüsusi notariusun adı ilə yanaşı öz adını və vəzifəsini qeyd etməlidir.

Xüsusi notariusun köməkçisi əvəz etdiyi müddətdə “Elektron notariat” informasiya sistemindən öz adından istifadə edir.

7. Notariuslar və xidməti vəzifələrini yerinə yetirmələri ilə əlaqədar notariat hərəkətlərindən xəbərdar olan şəxslər bu hərəkətlərin sirrini saxlamağa borcludurlar.

Notariat hərəkətləri barədə arayışlar və sənədlər yalnız notariat hərəkətlərinin aparılmasını tapşırmış və ya barəsində notariat hərəkətləri aparılmış fiziki və hüquqi şəxslərə və ya onların nümayəndələrinə verilməlidir.

Bu şəxslərin müraciətləri əsasında notarius notariat ofisində, Dövlət notariat arxivinin rəisi isə arxivdə saxlanılan notariat hərəkətləri barədə sənədlərin dublikatını, onlardan surət və çıxarışları müvafiq rüsum və haqlar ödənildikdən sonra həmin şəxslərə təqdim edir.

Dövlət notariat arxivi ilə yanaşı, arxivdə saxlanılan notariat hərəkətləri barədə sənədlərlə əlaqədar məlumatların, habelə sənədlərin dublikatının, onlardan surət və çıxarışların əldə edilməsi ilə bağlı bu şəxslər notariat ofislərinə də müraciət edə bilərlər.

Ərizə sənədlərin daxilolma kitabında qeydə alınır. Həmin ərizə yazılı formada bilavasitə notariusun yanında imzalanaraq verilir, notarius tərəfindən ərizə üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.

Bu halda notariat hərəkətləri barədə sənədlərlə əlaqədar məlumatın və ya həmin sənədlərin dublikatının alınması ilə bağlı müraciət “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 73-cü maddəsinə uyğun olaraq, notarius tərəfindən skan edilərək “Elektron notariat” informasiya sistemi vasitəsilə Dövlət notariat arxivinə göndərilir. Dövlət notariat arxivi 3 iş günü müddətində müraciətdə göstərilən sənədlərlə bağlı məlumatı sistem vasitəsilə notariat ofisinə göndərir. Notarius həmin məlumat əsasında müraciətə uyğun olaraq notariat hərəkəti barədə sənədlərlə əlaqədar məlumatı və ya həmin sənədin dublikatını hazırlayaraq müraciət edən şəxsə təqdim edir.

Notariat hərəkətləri barədə sənədlərin surətlərinin və ya onlardan çıxarışların əldə edilməsi ilə bağlı müraciət notarius tərəfindən “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 73-cü maddəsinə uyğun olaraq sifarişli poçt vasitəsilə Dövlət notariat arxivinə göndərilir.

Dövlət notariat arxivi 3 iş günü müddətində müraciətdə göstərilən sənədlərin surətlərini və ya onlardan çıxarışı təsdiq edərək, sifarişli poçt vasitəsilə notariat ofisinə göndərir. Dövlət notariat arxivindən göndərilən sənədlərin surətləri və ya onlardan çıxarış notariat ofisində qəbul edilən sənədlərin qeydə alınması kitabına daxil edilir və müraciət etmiş şəxs həmin kitabda sənədi qəbul etməsi barədə qeyd yazmaqla və imzalamaqla notarius tərəfindən şəxsə bilavasitə təqdim edilir.

Sənədlərin sifarişli poçt vasitəsilə göndərilməsi işinin təşkili ilə əlaqədar xərclər müraciət etmiş şəxs tərəfindən notariusa ödənilir.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada notariat hərəkətləri ilə bağlı məlumat və sənədlər maliyyə monitorinqi orqanına verilir.[16]

Notariat hərəkətləri ilə bağlı sənədlər məhkəmə, istintaq və təhqiqat orqanlarının icraatında olan konkret cinayət və ya mülki işlərlə əlaqədar bu orqanların qərarı əsasında onlara verilir, vəkilə isə notariat hərəkətləri ilə bağlı sənədlərin surətləri onun yazılı sorğusu və orderi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti əsasında verilir.[17]

Konkret cinayət işləri ilə əlaqədar notariat hərəkətlərinə dair sənədlərin, eləcə də əsasında notariat hərəkəti aparılmış digər sənədlərin və ya notariat işinin götürülməsindən əvvəl həmin orqanlar notariusu götürmə barədə qərarla tanış etməlidirlər. Notariat sənədlərinin götürülməsi müvafiq protokolla rəsmiləşdirilir və onun surəti notariusa verilir. Notariat işinin notariat qaydasında təsdiq edilmiş surəti saxlanılmaqla (“Elektron notariat” informasiya sistemi vasitəsilə elektron qaydada təqdim edilən sənədlər isə müvafiq qaydada), əsli onu tələb edən orqana verilir. Götürülmüş sənədlərin zərurət aradan qalxdıqdan sonra qaytarılması (“Elektron notariat” informasiya sistemi vasitəsilə elektron qaydada təqdim edilən sənədlər nəzərə alınmaqla) notarius və ya Dövlət notariat arxivinin rəisi tərəfindən təmin edilməlidir.[18]

Vəsiyyətnamələr haqqında arayışlar (vəsiyyətnamənin olması, onun məzmunu və s.) yalnız vəsiyyətçinin ölümündən sonra onun ölümü haqqında şəhadətnamə təqdim olunduqda verilə bilər.

Notarius, şahid, habelə vəsiyyətnaməni vəsiyyət edənin əvəzinə imzalamış şəxslər vəsiyyətnamənin məzmununa, tərtibinə, dəyişdirilməsinə və ya ləğvinə aid məlumatları miras açılanadək açıqlaya bilməzlər. Bu barədə notarius bu şəxsləri xəbərdar edir.

Notariat hərəkətləri sirrinin açılmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşımalıdırlar.

Notariat hərəkətlərinin aparılması ilə əlaqədar notariusa qarşı cinayət işi qaldırıldıqda məhkəmə onu sirri saxlamaq vəzifəsindən azad edə bilər.

Notariat hərəkətləri barədə məlumatlar məhkəmə, istintaq və təhqiqat orqanlarının icraatında olan konkret cinayət və ya mülki işlərlə əlaqədar həmin orqanların yazılı sorğuları, vəkilə isə onun yazılı sorğusu və orderi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti əsasında verilir.

Notarius kommersiya hüquqi şəxslərinin nizamnamə kapitalı, təsisçilərin (iştirakçıların) təsisçi (iştirakçı) səlahiyyətlərinin həyata keçirilməsi və onların nizamnamə kapitalındakı payları ilə əlaqədar notariat hərəkətləri apardığı zaman kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları, habelə kommersiya hüquqi şəxslərinin nizamnamələri və dövlət qeydiyyatı haqqında şəhadətnamələri barədə məlumatları elektron informasiya sistemləri vasitəsilə elektron sorğu əsasında əldə edir və bu barədə çap edilmiş arayışı müvafiq notariat hərəkəti üzrə notariusda saxlanılan işin nüsxəsinə əlavə edir. Bu arayışın əldə edilməsi ayrıca notariat hərəkəti hesab edilmir və buna görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.[19]

Notarius tərəfindən daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Elektron notariat” informasiya sistemi vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunur.[20]

Nəqliyyat vasitəsinin icarə və ya digər əşya hüquqlarına dair müqaviləni, yaxud nəqliyyat vasitəsindən istifadə edilməsi və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnaməni təsdiq edərkən, notarius müqavilənin və ya etibarnamənin təsdiq edilməsi barədə, habelə “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin VI-I hissəsinə uyğun olaraq fiziki şəxslərin qeydiyyatda olduğu və yaşadığı ünvanı, mobil telefon nömrəsi və olduğu halda elektron ünvanı və sürücülük vəsiqəsinin nömrəsi, hüquqi şəxslərin (dövlət qurumlarının) isə nəqliyyat vasitəsinin idarə edilməsini həvalə etdiyi şəxs (nəqliyyat vasitəsinin sürücüsü) barədə müvafiq məlumatları dərhal “Elektron notariat” informasiya sisteminə daxil etməlidir.

“Elektron notariat” informasiya sisteminə daxil olmuş məlumatı texniki vasitələrdən istifadə etməklə bir gün müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərir.

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı iştirak paylarının dəyişikliyi ilə bağlı notariat hərəkətləri aparılarkən, notarius bu barədə müvafiq məlumatları onlayn rejimdə dərhal “Elektron notariat” informasiya sisteminə daxil etməlidir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi “Elektron notariat” informasiya sisteminə daxil olmuş məlumatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinə ötürür.

Notarius təsdiq etdiyi müqavilənin iki nüsxəsini müraciət etmiş şəxsə verir. Müraciət edən şəxsin istəyi ilə notarius daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində hüquq əldə edənin notariat qaydasında təsdiq edilmiş ərizəsinin müqavilə (zərurət olduqda - Azərbaycan Respublikası Mülki Məcəlləsinin 139-1-ci maddəsində nəzərdə tutulmuş hüquqların dövlət qeydiyyatı üçün digər əsasları əks etdirən sənədlər), torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə sənəd ilə birlikdə "Elektron notariat" informasiya sistemi vasitəsilə ərizənin təsdiq edildiyi gün, iki iş günü müddətində isə həmin sənədləri sifarişli poçt göndərişi vasitəsilə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə göndərir (bu halda bu Təlimatın 7-ci hissəsinin on ikinci abzasında müqavilənin nüsxəsinin göndərilməsi ilə bağlı müddəa tətbiq edilmir). Həmin ərizənin surəti müqavilənin notariat qaydasında təsdiqlənməsi haqqında müraciət edən şəxsə verilir.[24]

“Kredit büroları haqqında” Azərbaycan Respublikası Qanununun 16.1.10-cu və 16.1.11-ci maddələrində nəzərdə tutulmuş neqativ məlumatlar notariusların fəaliyyətlərinə aid olan hissədə

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi vasitəsilə Elektron Hökumət İnformasiya Sistemində yerləşdirilir.[25]

Kredit tarixçəsinin subyekti öz kredit hesabatını təşkil edən məlumatın yanlış olmasını aşkar etdikdə, həmin məlumatın aradan qaldırılması üçün “Kredit büroları haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci maddəsində nəzərdə tutulmuş qaydada ərizə ilə məlumatı yerləşdirən notariusa müraciət edə bilər. Müraciətə məlumatın düzgün olmamasını təsdiq edən sənədlərin surətləri əlavə edilməlidir. Ərizə kredit tarixçəsinin subyekti tərəfindən bilavasitə təqdim edilmədikdə və ya onun etibarnamə üzrə nümayəndəsi tərəfindən notariat ofisində yazılmadıqda, ərizədəki imzanın həqiqiliyi notariat qaydasında təsdiq edilməlidir.

Notarius yanlış məlumatın aradan qaldırılması barədə müraciəti “Elektron notariat” informasiya sistemi vasitəsilə kredit bürosuna göndərir. Kredit bürosu, kredit tarixçələrinin məlumat bazasının müvafiq hissəsinə “dəqiqləşdirilir” qeydini daxil etdikdən sonra məlumatın düzgünlüyünün yoxlanılması üçün “Elektron notariat” informasiya sistemi vasitəsilə notariusa sorğu göndərir.

Notarius sorğunu aldığı gündən 3 (üç) iş günü müddətində kredit tarixçəsinin subyekti haqqında kredit bürosuna verdiyi məlumatın düzgünlüyünü yoxlayır, məlumatın düzgün olması və ya aşkar edilmiş səhvin aradan qaldırılması barədə “Elektron notariat” informasiya sistemi vasitəsilə kredit bürosuna müvafiq məlumat göndərir.

Şikayətin araşdırılması nəticəsində notarius kredit bürosuna verdiyi məlumatın düzgün olduğunu müəyyən edərsə və kredit tarixçəsinin subyekti bu nəticə ilə razılaşarsa, kredit tarixçəsində heç bir dəyişiklik edilmir.

Valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürməyi arzu edən şəxslərin (valideyn-namizəd) övladlığa uşaq götürmək və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) himayədar valideyn olmaq barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı ərizə notarial qaydada təsdiq edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”na müvafiq olaraq “Elektron notariat” informasiya sistemi vasitəsilə “Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə” altsisteminə ötürülür. Valideyn-namizədin və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) ərizədə qeyd etdiyi məlumatlarda, o cümlədən ailə tərkibində, eləcə də onların faktiki yaşadığı ünvanda dəyişiklik olduqda, həmin şəxslərin məlumatlar yenilənməklə yeni ərizəsi notarial qaydada təsdiqlənərək 10 (on) gün müddətində təkrar olaraq altsistemə ötürülür.[26]

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununun 34-2.0.9-cu maddəsində nəzərdə tutulmuş məlumatlar (daşınmaz əmlakın və nəqliyyat vasitəsinin icarə və ya digər əşya hüquqlarına dair müqavilədə, yaxud nəqliyyat vasitəsindən istifadə edilməsi və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnamədə əks olunan məlumatlar) “Elektron notariat” informasiya sistemindən sorğu əsasında real vaxt rejimində İcbari Sığorta Bürosuna ötürülür.[27]

“İcra haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar borclu şəxslərlə bağlı notariat hərəkətləri (vərəsəlik, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələr, müqavilələr və etibarnamələr) və vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatlar icra məmurlarına

elektron sorğular əsasında “Elektron notariat” informasiya sistemi vasitəsilə real vaxt rejimində verilir.[28]

Sərnişin və yük daşımaları üçün istifadə olunan avtonəqliyyat vasitələri ilə bağlı verilən etibarnamələr üzrə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş “AYNA” informasiya sistemi haqqında Əsasnamə”yə uyğun olaraq “AYNA” informasiya sisteminə ötürülür.

7-1. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq daşınmaz əmlak üzərində hüquqların “bir pəncərə” prinsipi əsasında həyata keçirilməsi üçün notarius müraciət etmiş şəxslərin həqiqi niyyətinə uyğun şərtlər əsasında müqavilə layihəsini tərtib edir və layihə tərəflərlə razılaşdırıldıqdan sonra müqavilənin rəsmiləşdirilməsi və daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı ilə bağlı həmin notariusun depozit hesabına mədaxil ediləcək bütün xərcləri (daşınmaz əmlakın dövlət reyestrində hüquqların qeydiyyatı və daşınmaz əmlaka dair çıxarışın hazırlanması, daşınmaz əmlakın təsvirinin, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın alınması, dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqqı, bank xidmət haqqı, habelə sadələşdirilmiş verginin ödənilməsi və əmlakın dəyəri) əks etdirən mədaxil bildirişini hazırlayır. Mədaxil bildirişi çap edilərək tərəflərə təqdim olunur.

Tərəflərin bu ödənişlərlə razı olması onların həmin mədaxil bildirişi və bu şərtlər əsasında müqavilə bağlamaq istəyi barədə birgə ərizələrində notariusun iştirak etdiyi imzaları ilə təsdiq olunur. Bu ərizə notarius tərəfindən üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir (bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır).

Tərəflər müqaviləni kağız daşıyıcıdakı nüsxədə bilavasitə imzalayırlar.

İmzalanmış müqavilənin kağız daşyıcıdakı nüsxəsində “müqavilə notariusun elektron imzası ilə təsdiq edildikdən sonra qüvvəyə minir” qeydi aparılmaqla yalnız ödənişlər edildikdən sonra kağız daşıyıcıdakı nüsxəsi notariat qaydasında təsdiq edilir.

Tərəflər müqavilənin bütün nüsxələrini imzaladıqdan sonra bu Təlimatın 7-1-ci hissəsinin birinci abzasında nəzərdə tutulmuş xərclərin Hökumət Ödəniş Portalı (HÖP) vasitəsilə aidiyyəti üzrə həyata keçirilməsi üçün “Elektron notariat” informasiya sistemində ödəniş tapşırığı hazırlanaraq elektron qaydada notariusun depozit hesabı olduğu banka göndərilir, bir nüsxəsi isə çap edilərək bank şöbəsinə təqdim etmək üçün tərəflərə təqdim edilir.

Bu Təlimatın 7-1-ci hissəsinin birinci abzasında nəzərdə tutulmuş xərclərin notariusun depozit hesabına ödənilməsi barədə məlumat notariusa “Elektron notariat” informasiya sistemi vasitəsilə daxil olduqda, müqavilənin elektron daşıyıcıdakı nüsxəsi real vaxt rejimində notariusun elektron imzası ilə təsdiq edilməklə daşınmaz əmlakın dövlət reyestrinin informasiya sisteminə ötürülür, kağız daşıyıcıdakı nüsxəsi isə təsdiq edilməklə notariat işinə əlavə edilir.

7-2. Notarius daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və (və ya) təsdiq edilmiş digər sənədlərin (o cümlədən müqavilə, ər-arvadın ümumi əmlakdakı paya mülkiyyət hüququ haqqında şəhadətnamə, qanun və ya vəsiyyət üzrə vərəsəlik şəhadətnaməsi, bölgü planı, nisyə alqı-satqı müqaviləsi üzrə son ödəniş barədə bildiriş və s.) elektron nüsxəsini “Elektron notariat” informasiya sistemi vasitəsilə hüquqların dövlət qeydiyyatı üçün daşınmaz əmlakın dövlət reyestrinin informasiya sisteminə ötürür. Bu zaman bu Təlimatın 7-1-ci hissəsi ilə müəyyən edilmiş göstərişlər müvafiq qaydada tətbiq edilir.[30]

8. “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinə müvafiq olaraq notarius tərəfindən öz adına və öz adından, ərinin (arvadının), onun və özünün qohumlarının (valideynlərinin, uşaqlarının, nəvələrinin, babalarının, nənələrinin, həmçinin qardaşlarının, bacılarının, əmilərinin (dayılarının), bibilərinin (xalalarının), onların uşaqlarının adına və bu şəxslərin adından, həmin notarius ilə bir yerdə işləyənin adına və onun adından notariat hərəkətlərinin aparılması qadağandır.

Göstərilən hallarda notariat hərəkətləri hər hansı digər notariat ofisində aparılır.

Bu bəndin tələblərini pozmaqla aparılmış notariat hərəkətləri və onlara bərabər tutulan hərəkətlər mübahisələndirilə bilər.[31]

9. “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə uyğun olaraq notariat fəaliyyəti üzrə kargüzarlıq Azərbaycan Respublikasının dövlət dilində aparılır.

Əgər notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxs dövlət dilini bilmirsə, rəsmiləşdirilmiş sənədin mətni ona notarius, yaxud tərcüməçi tərəfindən tərcümə olunmalıdır.[32]

Həmin sənədin notarius tərəfindən edilmiş tərcüməsinin düzgünlüyü və ya sənədi tərcümə etmiş tərcüməçinin imzasının həqiqiliyi təsdiq olunur.

Notariat hərəkəti aparılarkən, eyni zamanda başqa dilə də tərcümə edilərsə, bu Təlimatın 134-cü və 135-ci hissələrində göstərilmiş qaydaya riayət olunmalıdır.[33]

10. Dövlət notariusları notariat hərəkətlərinin aparılmasına görə dövlət rüsumu tuturlar.[34]

Xüsusi notariuslar tərəfindən notariat hərəkətlərinin aparılmasına görə dövlət notariusları tərəfindən notariat hərəkətlərinin aparılması üçün müəyyənləşdirilmiş dövlət rüsumu miqdarında haqq tutulur. Bu Təlimatın 10-cu hissəsinin dördüncü və altıncı abzaslarında nəzərdə tutulan hallar istisna olmaqla, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun ödənilməsindən azadolmalar tətbiq edilən hallarda xüsusi notariuslar tərəfindən bu haqq və notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.[35]

Notariuslar sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünün, sənədlərdəki imzaların həqiqiliyinin, sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqi ilə əlaqədar göstərilən xidmətə (texniki işlərin yerinə yetirilməsinə) görə həmin hərəkətlərin aparılması üçün müəyyən edilmiş dövlət rüsumu məbləğində, əqdlərin və etibarnamələrin təsdiqi ilə əlaqədar göstərilən xidmətə (məsləhətlərin verilməsinə, əqdlərin, ərizələrin və digər sənədlərin layihələrinin tərtib edilməsinə, texniki işlərin yerinə yetirilməsinə) görə isə həmin hərəkətlərin aparılması üçün müəyyən edilmiş dövlət rüsumu məbləğinin 15 faizi miqdarında haqq tuturlar.

Notariuslar, həmçinin əqdlərin, etibarnamələrin və sənədlərdəki imzaların həqiqiliyinin ölkə ərazisində real vaxt rejimində videoyazı vasitəsilə rəsmiləşdirilməsinə görə həmin hərəkətlərin aparılması üçün müəyyən edilmiş dövlət rüsumu məbləğində haqq tuturlar.

Əqdlərin rəsmiləşdirilməsi zamanı bu hissənin 4-cü abzasına uyğun tutulmuş məbləğ iştirak edən notariuslar arasında bərabər bölünür.

Notariuslar etibarnamələrin və sənədlərdəki imzaların həqiqiliyinin xaricdə olan şəxslə videoyazı vasitəsilə həyata keçirilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan

Respublikası Qanununun 16.6.1-ci və 16.6.6-cı maddələri ilə müəyyən edilmiş dövlət rüsumu məbləğində haqq tuturlar. Bu məbləğ notariusun valyuta hesabına ödənilir.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa görə notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun ödənilməsindən azadolmalar tətbiq edilən hallarda notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.

Notariat hərəkətlərinə görə dövlət notariusu tərəfindən qəbul edilmiş dövlət rüsumu 1 (bir) bank günü ərzində dövlət büdcəsinə, haqq isə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin xüsusi hesabına köçürülür.[36]

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə haqlar tutulur.

Dövlət rüsumu və haqlar nağd, elektron ödəmə sistemləri, o cümlədən notariat ofisində olan ödəniş köşkləri və internet vasitəsilə və ya köçürmə yolu ilə ödənilir.

Nağd şəkildə ödəmə barədə ödəyiciyə bank və ya poçt qəbzinin əsli, elektron ödəmə sistemləri, eləcə də internet vasitəsilə ödənildikdə, müvafiq ödəmə sistemindən çıxarış, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədi təqdim edilir.

Notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxsə verilməsi nəzərdə tutulmayan, o cümlədən notariat işinə əlavə edilməsi məqsədilə sənədlərin surətlərinin təsdiqinə, habelə digər notariat hərəkətinin aparılması çərçivəsində elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətinin kağız daşıyıcısına keçirilərək təsdiqinə görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur. Bu zaman onların üzərində notarius tərəfindən tarix göstərilməklə "Əsli ilə düzdür" sözləri yazılır, imzalanır və şəxsi gerbli möhürlə təsdiq edilir və notariat işinə tikilir.[37]

11. Dövlət rüsumunun və notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqqın məbləğləri barədə məlumat lövhə şəklində hər bir dövlət notariat ofisinin yerləşdiyi və ya xüsusi notariusun işlədiyi binanın (otağın) görkəmli yerində asılmalıdır.[38]

12. Notariuslar statistik hesabat aparırlar.[39]

Xüsusi notariuslar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən işi təşkil edir, notariat hərəkətləri, tutulan haqlar, büdcəyə keçirilən vergilər və digər ödəmələr barədə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin yerli statistika orqanlarına, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin yerli bölmələrinə məlumat və Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə bəyannamə (hesabat) verirlər.[40]

Dövlət notariusları notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə tutulan haqq barəsində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq rayon (şəhər) idarələrinə (şöbələrinə) və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə həmin nazirliklərin müəyyən etdiyi forma və dövr üzrə məlumatlan təqdim etməlidirlər.[41]

"Elektron notariat" informasiya sisteminə ötürülən məlumatların dəqiqliyinin təmin olunması üçün ay ərzində aparılan notariat hərəkətlərinə dair statistik hesabat təqvim ayı bitdikdən sonra növbəti ayın 7-dək müəyyən edilmiş forma üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilir. İki nüsxədə tərtib olunan hesabat notariusun imzası və möhürü ilə təsdiq edilir. Hesabatın bir nüsxəsi notariat ofisində saxlanılır. [42]

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə notariat hərəkətlərinin sayı barədə, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə notariat hərəkətlərinin aparılmasına görə dövlət notariusları tərəfindən tutulan dövlət rüsumu və xüsusi notariuslar tərəfindən tutulan haqlar barədə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə dövlət notariusları tərəfindən tutulan haqq barədə statistik məlumatlar “Elektron notariat” informasiya sistemi vasitəsilə avtomatlaşdırılmış rejimdə, bu mümkün olmadığı halda isə kağız daşıyıcılarda təqdim edilir.

12-1. Fiziki şəxslər tərəfindən torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilənin (alqı-satqı, bağışlama, dəyişdirmə, renta, habelə mülkiyyət hüququnun keçməsi ilə bağlı digər özgəninkiləşdirmə müqavilələri) notariat qaydasında təsdiqi zamanı notarius Azərbaycan Respublikası Vergi Məcəlləsinin 220.8-ci, 220.8-1-ci və 220.8-2-ci maddələrinə uyğun olaraq, sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) əməliyyat günü ərzində dövlət büdcəsinə ödəyir və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə bəyannaməni vergi orqanına təqdim etməyə borcludur. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 150.1.9-cu maddəsinin tətbiqi məqsədləri üçün bina tikintisi fəaliyyəti ilə məşğul olan fiziki şəxs barədə məlumat Azərbaycan Respublikası Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə notariusun verdiyi sorğu əsasında əldə edilir.[43]

13. Notariat fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.[44]

Hər bir notariusun notariat fəaliyyəti iki ildə bir dəfədən az olmadan yoxlanılmalıdır.

Notarius yoxlama aparılmasına səlahiyyətli şəxsə notariat fəaliyyətinə aid bütün məlumat və sənədləri təqdim etməyə borcludur.

Yoxlamanın və ya şikayətin araşdırılmasının nəticəsindən asılı olaraq, xüsusi notarius barəsində intizam icraatı başlanıla bilər, dövlət notariusuna münasibətdə isə “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə uyğun olaraq ədliyyə orqanları işçisinin intizam məsuliyyətinə cəlb edilməsi qaydası tətbiq olunur. [45]

Xüsusi notariusun işçisi tərəfindən qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edildikdə, onun barəsində intizam tədbirlərinin görülməsi, o cümlədən əmək müqaviləsinə xitam verilməsi barədə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin notariat fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumu notariusa yazılı qaydada göstəriş verir.

Xüsusi notariusla işçiləri arasında əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi və “Notariat haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

“Notariat haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməsinə nəzarətin həyata keçirilməsini təmin etmək məqsədi ilə notarius hər iş günü ərzində aparılmış notariat hərəkətləri barədə məlumatları “Elektron notariat” informasiya sisteminə daxil etməlidirlər.[46]

Notarius notariat hərəkətlərini apararkən bu Təlimatın 19-cu hissəsinin ikinci abzasında göstərilmiş məlumatları “Elektron notariat” informasiya sistemindən istifadə etməklə yoxlamalıdır. [47]

Notariat hərəkətinin aparılması zamanı vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatına (doğumun, nikahın, nikahın pozulmasının, ölümün qeydə alınması və s.) dair məlumatların yoxlanılmasına zərurət olduqda, notarius bu məlumatları "Vətəndaşlıq Vəziyyəti Aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi vasitəsilə real vaxt rejimində əldə edir. [48]

"Elektron notariat" informasiya sistemi vasitəsilə notariat hərəkətlərinə dair sənədlər (müqavilə, etibarnamə, vərəsəlik şəhadətnaməsi və s.) tərtib edilərkən, barəsində notariat hərəkəti aparılmış şəxslərin şəxsiyyət vəsiqələrinə dair məlumatlar "Əhalinin Dövlət Reyestri" Avtomatlaşdırılmış Qeydiyyat İnformasiya sistemindən əldə edilir və notariat sənədində əks olunur. Şəxsiyyət vəsiqəsinə dair məlumatların bu sistem vasitəsilə əldə edilməsi mümkün olmadıqda, notarius barəsində notariat hərəkəti aparılan şəxslərin şəxsiyyətinin müəyyən olunması üçün əlavə tədbirlər görməlidir.

Notarius informasiya sistemi vasitəsilə barəsində notariat hərəkəti aparılan şəxsin şəxsiyyətini müəyyən edən sənədlərin qüvvədə olmasını da yoxlamalıdır.

Notariuslar borc müqavilələrinin, vəsiyyətnamələrin təsdiqi və vərəsəlik şəhadətnaməsinin verilməsi zamanı müqavilə tərəflərinin hüquqlarının qorunması, hüquqi məlumatsızlığın onlara vura biləcək ziyanın qarşısının alınması və vərəsələrin kreditorlar qarşısında məsuliyyətinin izah olunması məqsədi ilə kredit bürosunun məlumatlarından istifadə edirlər. Bu zaman notarius notariat hərəkəti aparılan şəxslər barədə kredit bürosunda mövcud olan məlumatı informasiya sistemi vasitəsilə yoxlayır. Bu məlumatların pozitiv və ya neqativ olmasından asılı olmayaraq, tərəflər notariat hərəkətinin rəsmiləşdirilməsini tələb edərlərsə və bu hal mülki qanunvericilik və "Notariat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ziddiyyət təşkil etmirsə, notarius onların notariat qaydasında təsdiqlənmiş müvafiq ərizəsini alır, eləcə də çap edilmiş məlumatı onlara verir. Həmin ərizə bilavasitə notariusun qarşısında imzalanaraq yazılı formada verilir, notarius tərəfindən ərizə üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır. Həmçinin, informasiya sistemində olan məlumatı çap edərək notariat işinə əlavə edir.[49]

"Elektron notariat" informasiya sistemi vasitəsilə həmçinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə notariat ofisləri arasında yazışmalar aparılır.

13-1. Notariat hərəkətlərinə dair sənədlər, o cümlədən ərizələr "Elektron notariat" informasiya sistemi vasitəsilə tərtib edilir, sistemə daxil edilmiş məlumatlarda zəruri düzəlişlər isə notariusun imzası və gerbli möhürü ilə təsdiq edilmiş müraciəti əsasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminin fəaliyyətini təşkil edən qurumu tərəfindən aparılır.[50]

Notariat qaydasında təsdiq edilmiş sənədlərin üzərində unikal, təkrarlanmayan identifikasiya nömrəsi əks olunmuş təhlükəsizlik kodundan ibarət barkod və QR-kod yerləşdirilir. Bu cür sənədlər notariuslara təqdim edildikdə, onun həqiqiliyi barkod-skanerlər vasitəsilə yoxlanılır.[51]

Barəsində notariat hərəkəti aparılmış şəxslərin (və ya onları təmsil edən səlahiyyətli nümayəndələrin) fotoşəkli notariat hərəkətlərinə dair sənəddə və "Elektron notariat" informasiya sistemi vasitəsilə aparılan "Notariat hərəkətlərinin qeyd edilməsi üçün elektron reyestr"də əks olunur.[52]

"Elektron notariat" informasiya sistemi vasitəsilə tərtib edilən notariat sənədlərində barəsində notariat hərəkəti aparılan şəxslər, müqavilənin predmeti, daşınmaz əmlakın növündən asılı olaraq müqavilə şərtləri müəyyən edilməli, özgəninkiləşdirilən daşınmaz əmlak və ya onun

hissələri barədə məlumat, bağışlama müqaviləsi qohumlar arasında bağlandıqda qohumluq əlaqəsi göstərilməlidir.

## II BÖLMƏ
## NOTARİAT HƏRƏKƏTLƏRİ APARILMASININ ƏSAS QAYDALARI

14. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna edilməklə, notariat hərəkətləri Azərbaycan Respublikasının bütün ərazisində hər hansı dövlət notariusu və ya xüsusi notarius tərəfindən aparıla bilər.

Xaricdə istifadə edilməsi məqsədilə sənədlərin rəsmiləşdirilməsi, dəniz protestlərinin tərtib edilməsi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən müəyyən notariuslara həvalə edilə bilər.[53]

15. Notariat hərəkətləri notariat ofisində, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və Azərbaycan Respublikasının konsulluqları yerləşən binada aparılmalıdır.[54]

Notariat hərəkətləri qanunvericiliyə əsasən dövlət notariusunun, xüsusi notariusun, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin və ya Azərbaycan Respublikası konsulluqlarının vəzifəli şəxslərinin müvafiq yerdə aparmalı olduğu hallar (vərəsəlik şəhadətnamələrinin, yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələrin verilməsi, mirasın qorunması üçün tədbirlərin görülməsi, icra qeydlərinin aparılması və dəniz protestinin tərtib edilməsi) istisna edilməklə, Azərbaycan Respublikasının bütün ərazisində aparılır.

Şəxs notariat ofisinə gəlmədən, əvvəlcədən verilmiş bildiriş (notariat hərəkətlərinin aparılması ilə əlaqədar yazılı və ya elektron müraciət) üzrə dövlət rüsumu və haqlar ödənilməklə, nəqliyyat vasitəsi ilə təmin edildikdən və ya maraqlı şəxs (sosial xidmət müəssisəsində yerləşdirilən şəxslər istisna olmaqla) tərəfindən faktiki nəqliyyat xərcləri ödənildikdən sonra notariat hərəkətləri notariat ofisindən kənarda (səyyar qaydada) da aparıla bilər. [55]

Notariat hərəkətlərinin notariat ofisindən kənarda səyyar qaydada aparılması üçün notariuslar müasir avadanlıqla, o cümlədən kompüter, printer, skaner, kamera, portativ enerji ehtiyatı və 4G internet ötürücüsü ilə təchiz olunmuş, ciddi hesabat blanklarının və möhürün təhlükəsiz saxlanılması üçün xüsusi yeri olan, "Elektron notariat" informasiya sisteminə birbaşa qoşulan, 24 saata qədər fasiləsiz işləyən xüsusi çantalardan istifadə edirlər.

Xüsusi notarius tərəfindən müraciət edən şəxslərin xahişi ilə onlarla notariat hərəkətlərinin iş vaxtından sonra, istirahət və ya bayram günlərində həm notariat ofisində, həm də ofisdən kənar aparılması qaydası Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilir.

Notariat ofisinə gəlmədən əvvəlcədən verilmiş bildiriş üzrə notariat ofisindən kənarda, habelə iş vaxtından sonra, istirahət və ya bayram günlərində notariat hərəkətlərinin aparılmasına görə hər bir notariusun özü tərəfindən müəyyən edilən haqqın məbləğini müəyyən edən meyarlar Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilir.

Ofisdən kənar notariat hərəkətlərinin aparılması zamanı ödənişlər POS-terminallar, ödəniş sistemləri, yaxud yaxınlıqda olan banklar vasitəsilə, habelə notariuslar tərəfindən qəbz verilməklə nağd şəkildə qəbul edilir.

Notariat hərəkətləri notariat ofisinin binasından kənarda aparılarsa, təsdiq qeydində və notariat reyestrində notariat hərəkətinin aparıldığı yer, vaxt və ünvan qeyd olunur.

Şəxs notariat ofisinə gələ bilmədiyi hallarda verilmiş bildiriş (notariat hərəkətlərinin aparılması ilə əlaqədar yazılı və ya elektron müraciət) əsasında notariat hərəkətinin aparılması vaxtı (tarixi və saatı) razılaşdırıldıqdan, dövlət rüsumu və haqlar ödənildikdən sonra "Notariat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş notariat hərəkətləri notariat ofisindən kənarda olan müraciət etmiş şəxslə videoyazı vasitəsilə aparıla bilər.

Notariat ofisindən kənarda videoyazı vasitəsilə notariat hərəkətləri iki notarius arasında videokonfrans əsasında, habelə "Elektron ədliyyə köşkü" və ya "Mobil notariat qovluğu" proqram təminatı üzərindən aparıla bilər.

"Elektron ədliyyə köşkü"nün quraşdırıldığı yer və onlarla işləyən notariuslar Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin tərtib etdiyi "Mobil notariat qovluğu" proqram təminatı ödənişsiz onlayn satış məntəqələrindən əldə edilir və istifadəçinin avadanlığının (mobil telefon, kompüter, planşet və s.) üzərinə yüklənilir.

İstifadəçi müvafiq səhifəyə daxil olduqdan sonra istifadə qaydaları ilə tanış olur və əməliyyatı həyata keçirir. Bu halda müraciət edənin öz iradəsini aydın ifadə etməsinin təminatı kimi verdiyi əlavə telefon nömrələri ilə əlaqə saxlanılaraq, aparılmış notariat hərəkətlərinin onun iradəsinə uyğunluğu bir daha yoxlanılır. Video və audio materiallar tərtib olunan yer qapalı, səs-küydən və digər şəxslərin təsirindən kənar olmalıdır.

Notariat hərəkətləri videoyazı vasitəsilə həyata keçirildikdə, tərəfin öz iradəsini əks etdirən video və audio materiallar tərtib olunur və notariat hərəkətinin "Elektron notariat" informasiya sistemindəki eyniləşdirmə nömrəsinə bağlanılaraq, məlumat bazasında saxlanılır. Tərtib olunmuş video materiallarda tərəfin üz təsviri aydın görünməli, onun hər hansı formada və səbəbdən tam və ya qismən örtülməsinə yol verilməməli, kadrda başqa şəxs olmamalıdır. Tərtib olunmuş audio materiallarda tərəfin səsləndirdiyi sözlər aydın eşidilməli, başqa səslər ona qarışmamalıdır. Videoyazı vasitəsilə həyata keçirilən notariat hərəkətlərinin notariat ofisindən kənarda bir iştirakçısı olmalıdır. İki və daha çox tərəfin iştirakı ilə aparılan notariat hərəkətləri iki notarius arasında videokonfrans əsasında aparıla bilər.

Notariat hərəkətləri videoyazı vasitəsilə həyata keçirildikdə, notarius şəxsin zahiri görkəminin fotoşəklə uyğunluğu, habelə proqram təminatı vasitəsilə müəyyən edilən ünvanı (olduğu yer) haqqında qeyd aparır və sənəd üzərində "notariat hərəkəti videoyazı vasitəsilə rəsmiləşdirilmişdir" sözlərini yazır.

İki notarius arasında videokonfrans əsasında videoyazı vasitəsilə notariat hərəkətinin rəsmiləşdirilməsi üçün iştirakçılar müxtəlif notariuslara müraciət etməli, notariuslar isə "Elektron notariat" informasiya sistemi vasitəsilə öz aralarında videokonfrans qurub əməliyyatı rəsmiləşdirməlidirlər.

Notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün notariuslar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemindən istifadə edirlər.

15-1. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tutulmuş və ya həbs edilmiş şəxslərin

notariusun xidmətindən istifadə etmək hüququ aşağıdakı xüsusiyyətlər nəzərə alınmaqla həyata keçirilir: [56]

15-1.1. tutulmuş və ya həbs edilmiş şəxslərin notariusun xidmətindən istifadə etmək barədə həbs yerinin müdiriyyəti vasitəsilə göndərdiyi müraciətləri və cinayət prosesini həyata keçirən orqanın razılığı notariat ofisinə daxil olduqdan sonra notarius həbs yerinin müdiriyyəti ilə razılaşdırılmaqla, notariat hərəkətinin aparılması gününü və vaxtını müəyyən edir;

15-1.2. notariat hərəkətinin aparılması üçün qanunvericiliklə tələb olunan sənədlər, o cümlədən həbs yerində saxlanılan şəxsin şəxsiyyətini təsdiq edən sənəd notariusa təqdim edildikdən sonra onunla həbs yerinin müdiriyyətinin notariat hərəkətinin aparılması üçün müəyyən etdiyi yerdə notariat hərəkəti aparılır;

15-1.3. həbs yerlərində saxlanılan şəxsin müraciəti və cinayət prosesini həyata keçirən orqanın razılığı notariat işində saxlanılır;

15-1.4. həbs yerlərində saxlanılan şəxslər barəsində notariat hərəkətləri həbs yerlərinin olduğu inzibati ərazi üzrə notariat ofisinin notariusu tərəfindən aparılır.

15-2. Sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər notariat ofisinə gəlmədən, əvvəlcədən onların xahişi ilə sosial xidmət müəssisəsinin müdiriyyəti tərəfindən verilmiş bildiriş (notariat hərəkətlərinin aparılması ilə əlaqədar yazılı və ya elektron müraciət) əsasında notariat hərəkətlərinin aparılması üçün qanunvericiliklə tələb olunan sənədlər, o cümlədən sosial xidmət müəssisələrinə yerləşdirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd ("Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsi nəzərə alınmaqla) notariusa təqdim edilməklə notariat hərəkəti sosial xidmət müəssisəsində aşağıdakı xüsusiyyətlər nəzərə alınmaqla həyata keçirilir: [57]

15-2.1. bildirişdə müraciət edilən notariat hərəkətlərinin adı və sayı, xidmətin göstərildiyi yer və başlanma və başa çatma vaxtı (gün və saat), müraciət edənin adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi və əlaqə vasitələri (mobil və stasionar telefon nömrələri) əks edilir;

15-2.2. sosial xidmət müəssisəsinin müdiriyyəti tərəfindən verilmiş bildiriş notariat işində saxlanılır;

15-2.3. sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər tərəfindən verilən etibarnamələrin rəsmiləşdirilməsinə görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır;

15-2.4. sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər barəsində notariat hərəkətləri sosial xidmət müəssisələrinin olduğu inzibati ərazi üzrə notariat ofisinin və ya həmin müəssisənin yerləşdiyi əraziyə ən yaxın notariat ofisinin notariusu tərəfindən aparılır;

15-2.5. notarius nəqliyyat xərclərinin ödənilməməsinə görə sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər tərəfindən verilən etibarnamələrin təsdiq edilməsinə dair notariat hərəkətlərini aparmaqdan imtina edə bilməz.

16. Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmadıqda, notariat hərəkətləri dövlət rüsumu və haqlar ödənildikdən sonra bunun üçün lazım olan bütün sənədlər təqdim olunduğu, habelə informasiya sistemlərindən əldə edildiyi gün aparılır.[58]

Notariat hərəkətinin aparılması üçün tələb olunan sənədlər natamam olduqda, notarius zəruri sənədlərin daxil ola bildiyi informasiya sistemlərindən əldə edilərək, notariat qaydasında təsdiq edilməsi barədə müraciət edən şəxsə məlumat verir.[59]

İdarələrin, müəssisələrin və təşkilatların vəzifəli şəxslərindən əlavə məlumatlar və ya sənədlər tələb etmək, yaxud sənədləri ekspertizaya göndərmək lazım gəldikdə notariat hərəkətlərinin aparılması bir aydan artıq olmayan müddətə təxirə salına bilər.

Təsdiq edilməli olan hüquq və ya fakt barəsində mübahisə edən digər əlaqədar şəxsdən ərizə alınması haqqında məhkəmədən məlumat gəldikdə notariat hərəkətlərinin aparılması məhkəmədə iş həll edilənədək dayandırılmalıdır.

Təsdiq edilməli olan hüquq və ya fakt barəsində mübahisə etmək üçün məhkəməyə müraciət etmək arzusunda olan digər əlaqədar şəxsin xahişi ilə notariat hərəkətinin aparılması on gün müddətində təxirə salınmalıdır. Bu müddətdə məhkəmədən təsdiq edilməli olan hüquq və ya fakt barəsində əlaqədar şəxsdən ərizə daxil olduğu haqqında məlumat alınmazsa, artıq notariat hərəkətinin aparılmasının dayandırılmasına yol verilmir.

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün deyilsə, hər hansı əməliyyat həyata keçirilməməli, işgüzar münasibətlər yaradılmamalı, habelə işgüzar münasibətlərə xitam verilməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verilməlidir.[60]

Notariat hərəkətinin təxirə salınması və ya dayandırılması üçün başqa əsaslar yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilə bilər.

16-1. Müqavilənin bağlanılmasına üçüncü şəxsin ərizə əsasında verdiyi icazə (qabaqcadan verilmiş razılıq) müqavilə rəsmiləşdirilənədək, birinci ərizəni inkar edən yeni məzmunlu ərizə verməklə həmin şəxs tərəfindən səbəbləri göstərilməklə ləğv edilə bilər. Ərizədən imtina etmiş şəxs bu barədə maraqlı şəxslərə məlumat verməlidir.[61]

Ərizənin məzmununa münasibətdə verilmiş ikinci ərizədə əvvəlki ərizənin təsdiq edildiyi tarix, reyestr nömrəsi və notariat ofisinin adı göstərilməli, onu verən şəxs tərəfindən imzalandıqdan sonra bu sənəddə imzanın həqiqiliyi notariat qaydasında təsdiq olunmalı və "Elektron notariat" informasiya sistemində yerləşdirilməlidir.

Bu qayda notariat qaydasında təsdiq olunmuş digər ərizələrdən imtina edilməsi zamanı da tətbiq olunur.

17. Notariat hərəkətlərini apararkən notariuslar hər bir halda notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxslərin, onların nümayəndələrinin və ya hüquqi şəxslərin nümayəndələrinin şəxsiyyətini müəyyən edirlər.

Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyəti Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi əsasında müəyyən edilir.[62]

Hərbi qulluqçuların şəxsiyyəti hərbi hissələrin və hərbi idarələrin komandanlığının verdiyi şəxsi vəsiqə və ya hərbi bilet əsasında müəyyən edilir.

Dənizçilərin şəxsiyyət dənizçinin şəxsiyyət sənədi əsasında müəyyən edilir.[63]

Nəqliyyat vasitəsinin müvəqqəti əvəzsiz istifadəyə verilməsinə dair etibarnamə təsdiq edilərkən etibar edənin şəxsiyyəti Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin verdiyi milli sürücülük vəsiqəsi əsasında müəyyən edilə bilər.

Sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyü təsdiq edilərkən vətəndaşların şəxsiyyəti həmçinin iş yeri üzrə idarə, müəssisə, təşkilat tərəfindən onlara verilmiş xidməti vəsiqə, tələbə bileti və ya Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin verdiyi milli sürücülük vəsiqəsi əsasında da müəyyən edilə bilər. 16 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların şəxsiyyəti valideynlərin (övladlığa götürənlərin) pasportlarında onlar barəsində edilmiş qeydlərlə birlikdə doğum haqqında şəhadətnaməyə əsasən müəyyən oluna bilər.[64]

Xaricdə daimi yaşayıb, müvəqqəti yaşamaq üçün Azərbaycan Respublikasına gələn Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyəti onların ümumvətəndaşlıq pasportları əsasında müəyyən edilir.[65]

Azərbaycan Respublikasında yaşayan əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyəti Azərbaycan Respublikasında qanunla müəyyən edilmiş sənədlər və ya daxili işlər orqanlarında qeyd olunduğu haqqında qeyd olan milli pasport əsasında müəyyən edilir.[66]

Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyəti əcnəbinin pasportu, vətəndaşlığı olmayan şəxsin isə daimi qeydiyyatda olduğu digər ölkədə aldığı vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənəd əsasında müəyyən edilir;

Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyəti müvafiq Qanunla təsdiq edilmiş xüsusi nümunəli şəxsiyyət vəsiqəsi əsasında müəyyən edilir;

Azərbaycan Respublikasında müvəqqəti yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyəti əcnəbinin pasportu, vətəndaşlığı olmayan şəxsin isə daimi qeydiyyatda olduğu digər ölkədə aldığı vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlə birlikdə təqdim edilməklə, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi əsasında müəyyən edilir;[67]

Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyəti Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə vəsiqəsi əsasında müəyyən edilir.[68]

Notariat hərəkətlərinin aparılması üçün əsas olan vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatına dair sənədlər barədə məlumat "Vətəndaşlıq Vəziyyəti Aktları" avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə əldə edildiyi halda, notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxsdən tələb edilmir.[69]

18. Notarius əqdlərin iştirakçılarının, şahidlərin (vəsiyyətnamənin təsdiqi zamanı) və notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş digər şəxslərin imzalarının həqiqiliyini (videoyazı, "Elektron ədliyyə köşkü", "Mobil notariat qovluğu" proqram təminatı vasitəsilə aparılan notariat hərəkətləri istisna olmaqla) yoxlayır.[70]

Bu zaman əqd iştirakçıları, şahidlər və notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxslər özlərinin yazı xətti ilə soyadını, adını, atasının adını yazdıqdan və imza etdikdən sonra həmin sənədlər notariat qaydasında təsdiq olunur.

19. Əqdlər təsdiq edilərkən əqddə iştirak edən şəxslərin fəaliyyət qabiliyyəti aydınlaşdırılır və hüquqi şəxslərin hüquq qabiliyyəti yoxlanılır. Əqd nümayəndə tərəfindən aparıldıqda onun səlahiyyəti yoxlanılır.

Notariat hərəkətlərinin aparılmasından əvvəl notarius "Elektron notariat" informasiya sistemi vasitəsilə əqdlərin, o cümlədən etibarnamələrin və vəsiyyətnamələrin layihələrinin hazırlanması, təsdiqi və ya ləğv edilməsi, eləcə də müqavilələrin bağlanılmasına əvvəlcədən verilmiş razılığın təsdiqi və ya razılıqdan imtina edilib-edilməməsi, habelə vərəsəlik işinin açılıb-açılmaması, mülkiyyət və vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilib-verilməməsi barədə müvafiq məlumatları yoxlamalıdır.[71]

Notariat hərəkətinin aparılması üçün nümayəndə müraciət etdikdə, etibarnamə verən şəxsin (mülkiyyətçinin) nikahda olması və ölməsi halı bu Təlimatın 13-cü hissəsinin altıncı abzasında göstərilmiş qaydada yoxlanılır.[72]

20. Notariat qaydasında təsdiq edilən əqdlər, habelə ərizələr və başqa sənədlər notariusun və ya xüsusi notariusun köməkçisinin iştirakı ilə imzalanır. Əgər əqd, ərizə və ya başqa sənəd notariusun və ya xüsusi notariusun köməkçisinin iştirakı olmadan imzalanmışsa, onu imzalayan şəxs notariusun və ya xüsusi notariusun köməkçisinin iştirakı ilə yenidən imzalamaqla, həmin sənədi özünün imzaladığını şəxsən təsdiq etməlidir.[73]

21. Notarius idarələrin, müəssisələrin, təşkilatların onlara məlum olan vəzifəli şəxslərinin şəxsi müraciətləri zamanı alınmış və həqiqiliyi şübhə doğurmayan imzalarının nümunələri vardırsa, həmin vəzifəli şəxslərin hər dəfə gəlməsini tələb etməyə bilər.

22. Şəxs əqdi, ərizəni və ya başqa sənədi fiziki çatışmazlığına, xəstəliyinə və ya hər hansı başqa səbəbə görə özü imzalaya bilmədikdə əqdi, ərizəni və ya digər sənədi onun tapşırığı ilə, onun iştirakı ilə və notariusun eləcə də xüsusi notariusun köməkçisinin iştirakı ilə başqa şəxs imzalaya bilər. Belə halda, notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxsin sənədi özünün imzalaya bilmədiyinin səbəbi göstərilməlidir. [74]

Əgər notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxs görmə qabiliyyəti tam məhdud və savadsızdırsa, notarius ona sənədin mətnini oxumağa və bu barədə sənəddə qeyd yazmağa borcludur. [75]

Əgər notariat hərəkətinin aparılması üçün müraciət etmiş eşitmə, görmə və eşitmə-nitq qabiliyyəti tam məhdud olan şəxs savadsızdırsa, notariat hərəkəti aparılarkən onu başa salmağı bacaran savadlı şəxs mütləq iştirak etməli və öz imzası ilə təsdiq etməlidir ki, əqdin, ərizənin və ya digər sənədin məzmunu əqddə, ərizədə və digər sənəddə iştirak edən eşitmə, görmə və eşitmə-nitq qabiliyyəti tam məhdud olan şəxsin iradəsinə uyğundur. [76]

23. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinə əsasən notariusların notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsi üçün lazım olan məlumat və sənədləri idarələrdən, müəssisələrdən və təşkilatlardan tələb etmək, elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində əldə etmək, habelə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, daşınmaz əmlakın dövlət reyestrinin, eləcə də dövlət torpaq kadastrı və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş fiziki şəxslərin sadələşdirilmiş verginin tutulması üçün yaşayış və qeyri-yaşayış sahələrinin və torpağın yerləşdiyi ərazi üzrə zona məlumatlarını real vaxt rejimində əldə etmək hüququ vardır. Notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsi üçün tələb olunan sənəd və (və ya) məlumatın Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunması mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb

edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Təlimatdakı sənəd və məlumatlardan Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olanlarının siyahısını müəyyən edir və rəsmi internet saytında yerləşdirir.[77]

Notarius tərəfindən elektron informasiya sistemləri vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surəti kağız daşıyıcıya keçirilərək bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir.[78]

Müvafiq məlumat və sənədlər notariusun göstərdiyi müddətdə təqdim edilməlidir. Bu müddət bir aydan artıq ola bilməz.

24. Pozuntu və qaralaması olan, təsdiq edilməmiş əlavələri olan sənədlərin, zədələndiyinə görə mətninin oxunması mümkün olmayan, yaxud karandaşla yazılmış sənədlərin notariat hərəkətlərinin aparılması üçün qəbul edilməsi qadağandır.

Əgər bir neçə vərəqdə ifadə olunmuş sənədlər nömrələnməmiş, qaytanlanmamış, vəzifəli şəxsin imzası ilə və sənədi verən idarənin, müəssisəsinin və təşkilatın möhürü ilə təsdiq edilməmişsə, bu sənədlər də qəbul edilmir.

25. Notariat qaydasında təsdiq edilən əqdlərin və sənədlərin mətnləri aydın və dürüst yazılmalı, sənədin mətninə aid olan tarixlər və müddətlər heç olmasa bir dəfə sözlərlə, hüquqi şəxslərin adları isə onların orqanlarının ünvanı göstərilməklə ixtisarsız yazılmalıdır.

Fiziki şəxslərin soyadı, adı və atasının adı tam yazılmalı, onların yaşayış yeri və doğum tarixi göstərilməlidir.[79]

İki və daha artıq ayrıca vərəqdən ibarət olan sənədlər tikilməli, nömrələnməli, sənədin tikildiyi hissəyə ulduzvari rəngli kağız və ya zərvərəq yapışdırılmalı və notariusun imzası və möhürü ilə təsdiq edilməlidir. Möhür elə vurulmalıdır ki, onun bir hissəsi rəngli ulduzvarı kağızın və ya zərvərəqin üzərinə düşsün. Əcnəbi vətəndaşlar adından əqdlər təsdiq edilərkən onların vətəndaşlığı da göstərilir.[80]

Xaricdə istifadə üçün nəzərdə tutulub, boş yerlərində xətlər çəkilməsinə yol verilməyən sənədlər istisna edilməklə, sənədlərin axıradək doldurulmamış sətirlərində və digər boş yerlərində xətlər çəkilir.

Əlavə yazılar və düzəlişlər lazımi şəxslərin (əqd iştirakçılarının və əqdi, ərizəni və s. imzalamış digər şəxslərin) imzasından əvvəl şərtləşdirilməli və təsdiq qeydinin sonunda təkrar olunmalıdır, həm də düzəlişlər elə edilməlidir ki, səhvən yazılan və sonra üstündən qələm çəkilən nə varsa, hamısını ilk mətndə oxumaq mümkün olsun.

Sənədin mətnində tərəflərin imzalamadıqları düzəlişlər yalnız təsdiq qeydinin sonunda notarius tərəfindən şərtləşdirilir.[81]

26. Əgər təsdiq olunmalı olan sənəd düzgün ifadə edilməmiş və ya savadsız yazılmışsa, notarius müraciət etmiş şəxsə onu düzəltməyi və ya yenisini tərtib etməyi təklif edir. Müəyyən edilmiş haqq ödənildikdə, əqdlərin, ərizələrin və etibarnamələrin layihələri notarius tərəfindən tərtib oluna bilər.[82]

Təsdiq edilən (əqdlər, ərizələr və s.) və ya verilən sənədlər (şəhadətnamələr) bir neçə ayrı-ayrı vərəqdə ifadə olunduqda həmin vərəqlər nömrələnməli və qaytanlanmalı, bu barədə müvafiq qeyd yazılmalı, həmin qeyd notarius tərəfindən notariusun imzası və gerbli möhürü ilə təsdiq edilməlidir. Məsələn: "Beş vərəq nömrələnmiş və qaytanlanmışdır. Notariusun imzası və gerbli möhürü".[83]

27. Əqdləri təsdiq edərkən sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünü, sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü, sənədlərdəki imzaların həqiqiliyini, sənədlərin təqdim olunması vaxtını və s. təsdiq edərkən notarius həmin sənədlərdə imza edib şəxsi gerbli möhür vurmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi formalar üzrə təsdiq qeydləri aparır. [84]

Təsdiq qeydinin mətni kompüter vasitəsilə yazılır və "Elektron notariat" informasiya sistemi vasitəsilə notariat hərəkətlərinə dair sənəddə yerləşdirilir.[85]

Təsdiq qeydlərini aparmaq üçün müvafiq mətni olan ştamplardan istifadə edilə bilər.

Təsdiq qeydi sənəddə şəxsin imzasından sonra eyni səhifədə və ya sənədin arxa tərəfində, yaxud ayrıca vərəqdə yerləşdirilir. Təsdiq qeydinin ayrıca vərəqdə edildiyi, habelə təsdiq edilən sənədin məzmunu bir neçə vərəqdə ifadə olunduğu hallarda bütün vərəqlər nömrələnməli və qaytanlanmalıdır, bu barədə müvafiq qeyd yazılaraq, notariusun imzası və şəxsi gerbli möhürü ilə təsdiq olunur.

Təsdiq qeydini və ya onun davamını yazmaq üçün kağız vərəqini, gerbli möhür vurulmaqla, yapışdırmağa icazə verilir, möhürün ottiskinin bir hissəsi yapışdırılmış vərəq üzərinə düşməlidir.

Sənədin surətinin düzgünlüyünü təsdiq etmək haqqındakı qeyd üçün kağız vərəqləri əlavə edilməsinə və yapışdırılmasına, habelə sənədin dublikatı üzərində əlavə yazışmalar edilməsinə yol verilmir.

28. Notarius vərəsəlik, mülkiyyət hüququnu, ayrı-ayrı şəxslərin, idarələrin, müəssisələrin və təşkilatların ərizələrinin və sənədlərinin verilməsini, şəxsin sağ olması faktını, şəxsin müəyyən yerdə olması faktını, şəxsin fotoşəkildəki şəxslə eyniliyini, sənədlərin saxlanmaq üçün qəbul edilməsini təsdiq edərkən müvafiq şəhadətnamələr verməlidir. [86]

29. Notariusun apardığı bütün notariat hərəkətləri kağız və elektron və bu abzasın ikinci cümləsində nəzərdə tutulmuş hallarda kağız formada aparılan notariat reyestrində qeyd edilməli və hər bir hərəkətə müstəqil nömrə verilməlidir. Hərbi vəziyyətin elan edilməsi, habelə təbii fəlakətlər, texnoloji qəzalar və fövqəladə xarakter daşıyan digər hallar zamanı dövlət orqanlarının elektron informasiya sistemlərinin, o cümlədən "Elektron notariat" informasiya sisteminin fəaliyyətində fasilələr baş verdiyi halda notariat hərəkətləri bu Təlimatda nəzərdə tutulmuş qaydada kağız formada aparılan notariat reyestrində qeyd edilməli və hər bir hərəkətə müstəqil nömrə verilməlidir. Kağız formada aparılan reyestrlərin tətbiqi tarixi və müddəti Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilir.[87]

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "Elektron notariat" informasiya sistemində notariat ofislərinin adı və notariat hərəkətlərinin növləri göstərilməklə, elektron reyestrlər tətbiq olunur və hər bir hərəkətə avtomatlaşdırılmış qaydada vahid reyestr nömrəsi verilir.[88]

Kağız daşıyıcıda olan reyestrlər qaytanla tikilməli, onların vərəqləri nömrələnməlidir. Vərəqlərin sayı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar

Respublikasının Ədliyyə Nazirliyi tərəfindən buna vəkil edilmiş şəxsin imzası ilə təsdiq olunmalıdır. İşçinin imzası müvafiq ədliyyə orqanının möhürü ilə təsdiq edilir.[89]

Elektron formada olan notariat reyestrində qeyd edilən notariat hərəkətləri barədə məlumatlar birbaşa "Elektron notariat" informasiya sisteminə daxil edilir və daimi orada saxlanılır.[90]

Notariusların rəsmiləşdirdiyi notariat hərəkətləri reyestrdə qeyd edilir. Notariuslar ayrı-ayrı notariat hərəkətləri üzrə bir neçə reyestr aparırlar və hər bir reyestrin indeksinə notariat hərəkətinin adına uyğun hərf əlavə edirlər: [91]

sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünün təsdiq edilməsi - "1-S" reyestrinə;

vəsiyyətnamə, vərəsəlik hüququ haqqında şəhadətnamə və mülkiyyət hüququ haqqında şəhadətnamə "2-V" reyestrinə;

daşınmaz əmlakın özgəninkiləşdirilməsindən başqa bütün müqavilələr "3-M" reyestrinə;

daşınmaz əmlakın özgəninkiləşdirilməsi "4-Ə" reyestrinə;

depozit hərəkətləri "5-D" reyestrinə;

sənədin leqallaşdırılması və ya ona apostil verilməsi "6-L" reyestrinə; [92]

etibarnamələrin təsdiqi "7-E" reyestrinə;

"1-S", "2-V", "3-M", "4-Ə", "5-D" və "6-L" reyestrlərinə qeyd edilən notariat hərəkətləri istisna olunmaqla qalan digər notariat hərəkətləri və sənədlərin dublikatının verilməsi "8-İ" reyestrinə qeyd edilir. [93]

Reyestrlərə qeyd edilmiş sənədlərdə nömrələr aşağıdakı şəkildə işarə olunur: 1-S-1, 1-S-2, 2-V-1, 2-V-2; 3-M-1, 3-M-2 və s.

Notariat hərəkətlərinin reyestrdə qeydə alınıb nömrələnməsi hər təqvim ilinin əvvəlindən birinci nömrədən başlanır.

Notariat hərəkətləri reyestrə mürəkkəblə (və ya pastalı qələmlə) və yalnız təsdiq qeydi və ya verilən sənədlər notarius tərəfindən imzalandıqdan sonra yazılır. Reyestrdə karandaşla qeyd yazılmasına və sözlərin pozulmasına yol verilmir. Doldurulmamış yerlərdən xətt çəkilməli, edilmiş düzəlişlər isə notariusun imzası ilə şərtləşdirilməlidir.

Kağız reyestrdə karandaşla qeyd yazılmasına və sözlərin pozulmasına yol verilmir. Doldurulmamış yerlərdən xətt çəkilməli, edilmiş düzəlişlər notariusun imzası və möhürü ilə təsdiq olunmalıdır.[94]

Elektron reyestrdə düzəlişlər notariusun yazılı müraciəti əsasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminin fəaliyyətini təşkil edən qurumu tərəfindən aparılır.

Notariat hərəkətlərinin kağız daşıyıcıda olan reyestrdə qeyd olunması ilə bağlı səhv aşkar edildikdə, bu barədə notarius tərəfindən akt tərtib edilməli, imzalanmalı və həmin reyestrdə müvafiq qeyd aparılmalıdır. Bu düzəlişlər statistik hesabat hazırlanarkən nəzərə alınır.

Notariat hərəkətinin qeydiyyatı üçün kağız daşıyıcıda olan reyestrin tərtib edilməsi aşağıdakı qaydada həyata keçirilir:

1-ci qrafada ilin əvvəlindən başlayaraq notariat hərəkətinin nömrəsi yazılır. Notariat hərəkətinin reyestrdə qeyd edildiyi nömrə sənədin təsdiq qeydində göstərilir;

2-ci qrafada notariat hərəkətinin aparıldığı tarix göstərilir, bu tarix təsdiq qeydində və notariat sənədində göstərilən tarixlə eyni olmalıdır;

3-cü qrafada barəsində notariat hərəkəti aparılmış hüquqi şəxsin adı və ya fiziki şəxslərin, yaxud onların nümayəndələrinin soyadı, adı, atasının adı və yaşadığı yer, müstəqil imza edə bilməyənin əvəzinə imza edən şəxsin, eləcə də tərcüməçinin soyadı, adı, atasının adı qeyd edilir. Sənədin surətinin düzgünlüyünün təsdiq edilməsi üçün sənədin məxsus olduğu şəxsin xahişi ilə digər şəxs müraciət etdikdə, həmin şəxsin soyadı, adı, atasının adı və ünvanı yazılmalıdır;

4-cü qrafada notariat hərəkətinin aparılması üçün müraciət edənin şəxsiyyətinin müəyyən edilməsi üçün təqdim edilən şəxsiyyət vəsiqəsi və ya digər sənədin seriyası, nömrəsi, sənədi verən orqan və verilmə tarixi, şəxsin doğum tarixi göstərilir;

5-ci qrafada nüsxəsi notariat ofisində saxlanılmayan sənədin adı, qısa məzmunu, sənədin məxsus olduğu fiziki və hüquqi şəxs barədə yazılmalıdır. Məsələn, ".....məxsus doğum haqqında şəhadətnamədən surət ..... tarixdə, ...... nömrə ilə ..... verilmişdir.", yaxud "diplomdan 2 surət. ..... tarixdə, ..... nömrə ilə ..... verilmişdir.".

Əgər bir sənədin bir neçə surəti təsdiq edilərsə nüsxələrin, təsdiq olunan surət bir neçə səhifədən ibarət olduqda isə səhifələrin sayı göstərilməlidir.

Əqdlər təsdiq edilərkən, onun nüsxəsi notariat ofisində saxlanıldığı üçün 5-ci qrafada əqdin növü göstərilir. Məsələn, "Evin alqı-satqısına dair müqavilə", "Vəsiyyətnamə".

Verilmiş şəhadətnamələr də bu qaydada yazılır (qanun və ya vəsiyyətnamə üzrə vərəsəlik şəhadətnaməsi, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında, şəxsin sağ olması faktının təsdiq edilməsi və s. haqqında şəhadətnamələr).

6-cı qrafada dövlət notariuslarının tutduğu dövlət rüsumu və haqqın məbləği ayrılıqda, azadolmaların əsası, xüsusi notariuslar tərəfindən tutulan haqlar isə bütövlükdə göstərilir. Əgər dövlət rüsumu və haqlar qaytarılarsa, bu barədə də qeyd müvafiq qrafada aparılır.

7-ci qrafada notariat hərəkətinin aparılmasında iştirak edən şəxslər yazı xətti ilə soyadını, adını və atasının adını yazdıqdan sonra imzalamalıdırlar.

"Elektron notariat" informasiya sistemi vasitəsilə elektron qaydada müraciət elektron imza əsasında həyata keçirildiyindən, bu müraciətlər üzrə 7-ci qrafada "elektron imzası məlumdur" məzmununda qeyd aparılır.[95]

30. Notariusun notariat hərəkətləri aparılması haqqında tapşırıq vermiş və ya barəsində notariat hərəkətləri aparılmış hüquqi və fiziki şəxslərin yazılı ərizəsinə əsasən, habelə məhkəmənin, istintaq və təhqiqat orqanının qərarı əsasında bu Təlimatın 7-ci bəndində göstərilən qaydada notariat reyestrindən çıxarış verir.[96]

Notariat reyestrindən çıxarışı notarius gerbli möhür vurmaqla təsdiq edir.

31. Əsasında notariat hərəkəti aparılmış sənədlərin əsli əqdin, vərəsəlik hüququ haqqında şəhadətnamənin və sairin notariusda saxlanılan nüsxəsinə əlavə olunur.[97]

Sənədlərin əsli (məsələn, doğum, nikah, ölüm haqqında şəhadətnamələr) onları təqdim etmiş şəxslərə qaytarılır, onların notariat qaydasında təsdiq edilmiş surəti isə notariusda saxlanılır. Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur. Surətlər əlaqədar şəxslər tərəfindən təqdim olunur və ya onların xahişi ilə notariusun işçisi tərəfindən hazırlanır və tarix göstərilməklə notarius tərəfindən "Əsli ilə düzdür" sözləri yazılır, imzalanır və şəxsi gerbli möhürlə təsdiq edilir. Bu halda surət təsdiqinə görə dövlət rüsumu və haqq alınmır.[98]

Əsasında notariat hərəkəti aparılmış və "Elektron notariat" informasiya sistemi vasitəsilə təqdim edilmiş elektron sənədlərin saxlanılması aşağıdakı qaydada həyata keçirilir:

notariat hərəkətinin aparılması üçün "Elektron notariat" informasiya sistemində yaradılmış fərdi elektron kabinet (bundan sonra – Fərdi kabinet) vasitəsilə müraciət edildikdə və ona skan edilmiş və ya elektron sənəd formasında sənədlər qoşulduqda, həmin sənədlər informasiya sistemində saxlanılmadan notarius tərəfindən çap edilərək notariat işinə əlavə olunur. Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.[99]

Fərdi kabinetdən istifadə edən kommunal və ya lisenziyalaşdırılan telekommunikasiya xidmətləri göstərən dövlət qurumları, hüquqi şəxslər, habelə, kredit təşkilatları (bundan sonra – korporativ məlumat mübadiləsinin istifadəçiləri) bu Təlimatın 161-ci və 162-ci hissələrinin tələblərinə uyğun olaraq "Elektron notariat" informasiya sistemində yerləşdirilmiş forma üzrə tərtib etdikləri ərizə-məlumat əsasında notariat hərəkətinin aparılması üçün müraciət etdikdə, həmin məlumatlar informasiya sistemində saxlanılmadan notarius tərəfindən çap edilərək notariat işinə əlavə olunur. Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.[100]

Notariat hərəkətləri aparılması üçün müraciət etmiş fiziki şəxslərin, onların nümayəndələrinin və ya idarə, müəssisə və təşkilatların nümayəndələrinin və yerli özünüidarə orqanlarının vəzifəli şəxslərinin şəxsiyyətini və səlahiyyətini, habelə hüquqi şəxsin hüquq qabiliyyətini və qanuni təmsilçinin şəxsiyyətini təsdiq edən sənədlər surəti saxlanılmadan onları təqdim etmiş şəxslərə qaytarılır, lakin reyestrə sənədin adı, nömrəsi, verilmə tarixi və sənədi vermiş idarənin adı yazılır.

Müvafiq notariat hərəkətlərinin aparılması ilə bağlı "Elektron notariat" informasiya sistemi vasitəsilə elektron qaydada müraciət zamanı notarius fiziki şəxslərin şəxsiyyətini və hüquqi şəxslərin hüquq qabiliyyətini həmin şəxslər tərəfindən Fərdi kabinetin formalaşdırılması zamanı təqdim edilmiş məlumatlar əsasında müəyyən edir.

Nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsinə dair müqavilələr təsdiq edilərkən, habelə nəqliyyat vasitələrinə vərəsəlik hüququ və mülkiyyət hüququ haqqında şəhadətnamələr verilərkən, qeydiyyat şəhadətnamələrinin notarius tərəfindən təsdiq edilmiş surəti notariat işində saxlanılır. Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.[101]

Notariat hərəkətlərini reyestrə qeyd etməklə bərabər, göstərilən sənədlərin olması haqqında əqdin notariusda saxlanılan nüsxəsində, vərəsəlik hüququ və mülkiyyət hüququ haqqında şəhadətnamələrin verilməsinə dair ərizələrdə qeyd edilir və sənədlər onları təqdim etmiş şəxslərə qaytarılır.

32. Notariusun təsdiq etdiyi və ya verdiyi sənəd itirildikdə, notarius verdiyi və ya təsdiq etdiyi sənədlərin nüsxələri dövlət notariat arxivinə təhvil verilənədək notariat hərəkətinin aparılmasını tapşırmış və ya barəsində notariat hərəkətləri aparılmış şəxsin, idarə, müəssisə və təşkilatın yazılı ərizəsinə əsasən itirilmiş sənədin dublikatını verir.

Sənədin dublikatında təsdiq edilmiş və ya verilmiş sənədin tam mətni olmalıdır.

Sənədin dublikatında müəyyən olunmuş forma üzrə təsdiq qeydi aparılır.

Vəsiyyətnamənin dublikatı vəsiyyətnamədə göstərilən vərəsələrə yalnız vəsiyyət edənin ölümü haqqında şəhadətnamə vərəsələr tərəfindən təqdim edildikdən sonra verilə bilər. Vəsiyyətnamədə göstərilmiş vərəsələr öldükdə, vəsiyyətnamənin dublikatı onların vərəsələrinə, onlar vəsiyyət edənin ölümü haqqında şəhadətnamə (əgər əvvəllər bu cür şəhadətnamə təqdim olunmamışsa) və vəfat etmiş vərəsənin ölümü haqqında şəhadətnamə təqdim etdikdə verilə bilər.

33. Notarius notariat hərəkəti apararkən şəxslərin və ya ayrı-ayrı vəzifəli şəxslərin qanunçuluğu pozduqlarını aşkara çıxardıqda, bu barədə lazımi tədbirlərin görülməsi üçün əlaqədar idarəyə, müəssisəyə, təşkilata və ya prokurora xəbər verir.

Əgər təqdim olunmuş sənədin həqiqiliyi şübhə doğurursa, notarius bu sənədi alıb (götürüb) ekspertizaya göndərməlidir.

Sənədi ekspertizaya göndərmək üçün notarius qərar çıxarır, həmin qərarda aşağıdakılar göstərilir:

qərarın çıxarıldığı tarix;

qərarı çıxaran notariusun soyadı, adı, atasının adı, notariat ofisinin adı və ünvanı;

sənədin adı və kimin adına verilmişdir;

sənədi notariusa kim təqdim etmişdir (soyadı, adı, atasının adı və yaşayış yeri);

sənədi ekspertizaya göndərmək zərurətinin səbəbləri;

sənəd ekspertizadan keçirilmək üçün haraya (hansı ekspert idarəsinə) göndərilir;

ekspertizanın həlli üçün qoyulmuş suallar.

33-1. Notariuslar daşınmaz əmlakın alqı-satqısı, pul vəsaitlərinin, qiymətli kağızların və ya digər əmlakın, habelə bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması, habelə hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanılmasının təşkil olunması, habelə hüquqi şəxslərin səhmlərinin və ya paylarının alqı-satqısı ilə əlaqədar əməliyyatlarla bağlı notariat hərəkətləri aparılarkən əməliyyatın predmeti olan əmlakın cinayət yolu ilə əldə edilməsi və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallarda, həmçinin bu

əməliyyatlar yüksək riskli zonaların vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin zonalarda olan şəxslərlə və ya onların vasitəsilə, eləcə də həmin zonalarda qeydiyyatdan keçmiş bankda və digər ödəniş xidməti təchizatçılarında hesaba malik olan şəxslərlə və ya "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sanksiya tətbiq edilən fiziki şəxslərin və qurumların aktivləri ilə bağlı həyata keçirildikdə, yaxud xarici dövlətlərin siyasi nüfuzlu şəxslərinin əmlakı ilə bağlı olduqda, bu barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim etməlidirlər.[102]

Yuxarıda qeyd olunan əməliyyatlarla bağlı notariat hərəkətləri aparılarkən notarius eyniləşdirmə üçün təqdim olunan şəxsiyyəti təsdiq edən sənədin surətini, habelə müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamənin, nümayəndənin səlahiyyətlərini təsdiq edən sənədin, hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatına alınması haqqında sənədin surətini və əməliyyatın növündən asılı olaraq təqdim olunmuş digər eyniləşdirmə sənədlərinin surətlərini təsdiq edərək saxlayır (bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur) və:[103]

hüquqi şəxslərin verifikasiyası üçün aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini görür:

hüquqi şəxsin təqdim etdiyi məlumatları hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatlarla üzləşdirir;

hüquqi şəxsin fəaliyyəti barədə kütləvi informasiya vasitələrindən, internet informasiya ehtiyatlarından və ya rəsmi nəşrlərdən məlumatlar əldə edir;

əldə olunan yeni məlumatları əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatları ilə üzləşdirir;

fiziki şəxslərinin verifikasiyası üçün isə aşağıdakı tədbirlərdən birini və ya hər ikisini görür:

doğum haqqında şəhadətnamə, pasport, sürücülük vəsiqəsi və ya digər rəsmi sənəd əsasında fiziki şəxsin doğum tarixini təsdiqləyir;

mənzil-kommunal xidməti və ya qeyri-yaşayış sahələrindən istismar haqqı üçün mədaxil qəbzləri, yaxud mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi əsasında fiziki şəxsin yaşayış yeri üzrə qeydiyyatını təsdiqləyir.[104]

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 4.14-cü maddəsinə uyğun olaraq müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün olmadıqda, notariuslar tərəfindən maliyyə monitorinqi orqanına müvafiq məlumat verilir.[105]

Notariuslar "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsində nəzərdə tutulan aktivləri beynəlxalq və ölkədaxili siyahılar hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında dərc edildiyi vaxtdan təxirə salınmadan və həmin maddədə göstərilən şəxslərə xəbərdarlıq etmədən dondurmalı və dərhal bu barədə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, habelə maliyyə monitorinqi orqanına həmin internet informasiya ehtiyatı vasitəsilə məlumat verməlidirlər.[106]

34. Notarius təsdiq olunmuş, yaxud verilmiş sənədin mahiyyətini dəyişməyən yalnız aşkar səhvləri və ya aşkar riyazi səhvləri öz təşəbbüsü və ya əlaqədar şəxslərin xahişi ilə düzəldə bilər.

Düzəlişlər təsdiq qeydinin sonunda notarius tərəfindən "düzəlişə inanılsın" sözlərindən sonra səhvə və qaralamaya yol verilmədən yazılaraq imzası və möhürü ilə təsdiq edilir.[107]

35. Notarius, əgər notariat hərəkətlərinin aparılması qanuna ziddirsə, hərəkət başqa notariat orqanı tərəfindən aparılmalıdırsa, notariat hərəkətinin aparılması üçün fəaliyyət qabiliyyəti olmayan şəxs, yaxud lazımi səlahiyyəti olmayan nümayəndə müraciət etmişsə, hüquqi şəxsin adından bağlanan əqd onun nizamnaməsində və ya əsasnaməsində göstərilən məqsədlərə ziddirsə, qanunun tələblərinə uyğun olmayan əqd bağlanmışsa, sənədlər qanunvericiliyin tələblərinə uyğun gəlmirsə və ya sənədlərdə ayrı-ayrı şəxslərin şərəf və ləyaqətini ləkələyən məlumatlar varsa, əqdin məzmunu tərəflərin həqiqi niyyətinə uyğun gəlmirsə, notariat hərəkətlərini aparmaqdan imtina edir.

36. Notarius notariat hərəkətinin aparılmasından imtina etdikdə, şəxsin xahişi ilə üç gün müddətində imtinanın səbəbləri barədə əsaslandırılmış qərar çıxarır. [108]

Həmin qərarda aşağıdakılar göstərilir:

qərarın çıxarıldığı tarix;

qərarı çıxaran notariusun soyadı, adı, atasının adı, notariat ofisinin adı və ünvanı;

notariat hərəkətinin aparılması üçün müraciətin edildiyi tarix və müraciət edən şəxs barədə məlumatlar (fiziki şəxsə münasibətdə – soyadı, adı, atasının adı, doğum tarixi, şəxsiyyətini müəyyən edən sənəd və onun rekvizitləri, yaşayış yeri, əcnəbilərə münasibətdə – həmçinin vətəndaşlığı, hüquqi şəxsə münasibətdə – tam adı, VÖEN;

aparılması üçün müraciət edilən notariat hərəkətinin məzmunu (xahişin qısa məzmunu);

qanuna istinad olunmaqla, notariat hərəkətinin aparılmasından imtina edilməsinin əsasları;

imtina ilə bağlı məhkəməyə müraciət edilməsi qaydası.

Notariat hərəkətinin aparılmasından imtina edilməsi barədə qərar iki nüsxədə tərtib olunur, notariusun imzası və möhürü ilə təsdiq edilir və göndərilən sənədlərin qeydə alınması kitabında qeyd olunur. Nüsxələrdən biri ərizə ilə müraciət etmiş şəxsə imza etdirilməklə təqdim olunur və ya poçt vasitəsilə ünvana göndərilir, digəri isə notariat ofisində saxlanılır.

Notariusun notariat hərəkətlərinin mahiyyətinə aid olmayan hərəkətləri (notariat hərəkətlərinin aparılması müddətlərinin pozulması, müəyyən edilmiş qəbul saatlarına riayət edilməməsi, ədəbsizlik edilməsi və sair) barəsində şikayətlərə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən baxılır.[109]

37. Notariusun qanunsuz hərəkətləri nəticəsində ayrı-ayrı şəxslərə, təşkilata və ya dövlətə maddi ziyan vurularsa, o, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada maddi məsuliyyət daşımalıdır.

Vurulmuş ziyanın məbləği tərəflərin razılığı ilə və ya məhkəmə qaydasında müəyyən edilir.

III BÖLMƏ

NOTARİAT HƏRƏKƏTLƏRİNİN AYRI-AYRI NÖVLƏRİNİN APARILMASI QAYDALARI

I fəsil
Əqdlərİn təsdİq edİlməsİ

Əqdlərin təsdiq edilməsinin ümumi şərtləri

38. Notariuslar öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda notariat qaydasında təsdiq edilməli olan əqdləri və tərəflərin arzusu ilə digər əqdləri təsdiq edirlər.[110]

Notariuslar təsdiq etdikləri əqd layihələrinin mənasını və əhəmiyyətini tərəflərə izah etməli və bu layihələrin məzmununun qanuna və tərəflərin həqiqi niyyətinə uyğunluğunu yoxlamalıdırlar.

39. Notarius əqd iştirakçılarının yaşı ilə əlaqədar fəaliyyət qabiliyyətini onun şəxsiyyətini təsdiq edən sənəd əsasında müəyyən edir.[111]

Əqdin iştirakçılarından hər hansı birinin ruhi xəstəliyə və ya ağıl zəifliyi nəticəsində öz hərəkətinin əhəmiyyətini başa düşə və ya öz hərəkətlərinə rəhbərlik edə bilməməsini, yaxud spirtli içkilərdən və ya narkotik vasitələrdən, psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salmasını, yaxud digər israfçılıq hərəkətləri ilə ailəsini dolanacaq xərclərindən məhrum etməsini güman etmək üçün notariusun əsasları vardırsa, şəxsin isə fəaliyyət qabiliyyətinin olmamasına və ya fəaliyyət qabiliyyətinin məhdud olmasına dair məhkəmə qətnaməsi yoxdursa, notarius əqdin təsdiq edilməsini təxirə salır və şəxsin fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında məhkəmə qətnaməsinin olub-olmadığını aydınlaşdırır.[112]

14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların, habelə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslərin adından əqdləri yalnız onların qanuni nümayəndələri olan valideynləri, övladlığa götürənləri və qəyyumları bağlaya bilər.

Müqavilədə yetkinlik yaşına çatmamış şəxsin yaşı, habelə müqaviləni onun adından bağlayan şəxslərin səlahiyyəti (qohumluq əlaqəsini təsdiq edən sənəd və ya məhkəmə qətnaməsi, yaxud qəyyumluq və himayəçilik orqanının qərarı əsasında) barədə məlumat əks olunur. Bu müqavilə qanuni nümayəndə və ya qəyyum tərəfindən imzalandıqdan sonra notariat qaydasında təsdiq edilir.[113]

14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar və məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış şəxslər qanuni nümayəndələrinin (valideynlərindən biri öldükdə, xəbərsiz itkin düşdükdə, bu halı təsdiq edən müvafiq sənədlər olduqda onlardan birinin), habelə övladlığa götürənlərin və ya himayəçilərin razılığı ilə əqdləri bağlaya bilərlər. Razılıq barədə ərizə həmin notariat ofisində notarius tərəfindən üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanmalı, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilməli (bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır), bundan sonra əqd yetkinlik yaşına çatmamış və ya himayədə olan şəxs tərəfindən imzalanmalıdır.

Qəyyumluq və himayə orqanının qabaqcadan icazəsini almadan qəyyum qəyyumluqda və ya himayədə olanın əmlakının özgəninkiləşdirilməsinə, o cümlədən dəyişdirilməsinə və ya bağışlanmasına, bu əmlakın icarəyə, əvəzsiz istifadəyə verilməsinə və ya girov qoyulmasına dair

əqdlər, qəyyumluqda və ya himayədə olana mənsub hüquqlardan imtinaya, onun əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdləri, habelə qəyyumluqda və ya himayədə olanın əmlakının azalmasına səbəb olan hər hansı digər əqdləri bağlaya bilməz, himayəçi isə onların bağlanmasına icazə verə bilməz.

Valideynlər tərəfindən yetkinlik yaşına çatmayan uşaqlarına məxsus olan əmlaka sərəncam verilməsinə dair müqavilələr rəsmiləşdirilərkən də bu qaydalar tətbiq edilir.[115]

40. Əqddə hüquqi şəxslər iştirak edirlərsə, notariuslar əqddə iştirak edən hüquqi şəxslərin hüquq qabiliyyətini yoxlamalıdırlar. Əqddə iştirak edən hüquqi şəxslərin hüquq qabiliyyətini yoxlayarkən notariuslar hüquqi şəxslərin onun nizamnaməsi ilə və ya əsasnaməsi ilə tanış olmağa və aparılan notariat hərəkətlərinin hüquqi şəxsə onun nizamnaməsi və ya əsasnaməsi ilə verilmiş hüquqlara müvafiq olub-olmadığını yoxlamağa borcludurlar.

41. Əqd nümayəndə tərəfindən bağlandıqda, notariuslar onun səlahiyyətini yoxlayırlar. Nümayəndənin səlahiyyəti onun adına verilmiş etibarnamə ilə təsdiq edilir. Nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə barədə məlumat "Elektron notariat" informasiya sistemi vasitəsilə əldə edildiyi halda (etibarnamə üzrə səlahiyyətlər bütünlüklə digər şəxsə ötürüldüyü hal istisna olmaqla), həmin etibarnamənin nümayəndə tərəfindən təqdim edilməsi tələb olunmur.[116]

Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışa, nizamnaməyə və ya əsasnaməyə əsasən hüquqi şəxsin və ya onun filial və nümayəndəliklərinin rəhbərləri əqd bağlamaq hüququna malikdirlərsə, notariuslar etibarnamə tələb etmirlər. Bu halda yalnız hüquqi şəxslərin dövlət reyestrində qeydə alınması yoxlanılır.[117]

Hüquqi şəxs seçkili kollegial orqan tərəfindən idarə olunursa, vəzifəli şəxslərin seçilməsi və onlar arasında vəzifə bölgüsü haqqında qərar tələb edilir.

Notariat işində hüquqi şəxsin dövlət qeydiyyatına dair reyestrdən çıxarışın, habelə filial və nümayəndəliklərin rəhbərinə verilmiş etibarnamənin notarius tərəfindən təsdiq edilmiş surəti saxlanılır. Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.[118]

42. Azərbaycan Respublikasının Mülki Məcəllənin 423.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilənin dəyişdirilməsi həmin müqaviləyə əlavə olunan müqavilə, müqavilənin ləğv edilməsi isə müqavilənin bağlanıldığı qaydada yeni müqavilə ilə rəsmiləşdirilir.[119]

Əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə pozularkən, əgər bu müqavilə müvafiq orqanda hələ qeydə alınmamışsa, notarius tərəflərin ərizəsinə əsasən müqavilənin pozulması haqqında onun bütün nüsxələrində və reyestrdə qeyd edir. Müqavilə müvafiq orqanda qeydə alındıqdan sonra müqavilənin pozulması haqqında tərəflərin sazişi notariat qaydasında təsdiq edilir.

Birgə nikah dövründə əldə edilmiş əmlaka sərəncam verilməsi haqqında müqavilənin ləğvi və ya dəyişdirilməsi zamanı notarius ərin (arvadın) bu barədə notariat qaydasında təsdiq edilmiş razılığını alır.

Əmlakın üzərinə məhkəmə tərəfindən həbs qoyulduqda, müqavilənin ləğv edilməsinə dair müqavilə yalnız onun götürülməsindən sonra bağlanıla bilər.

Müqavilənin ləğv edilməsinə dair müqavilə istənilən notariat ofisində müqavilə tərəflərinin iştirakı ilə təsdiq edilə bilər. Bu halda həmin məlumat dərhal "Elektron notariat" informasiya sisteminə daxil edilməli, daşınmaz əmlaka münasibətdə isə həmçinin, daşınmaz əmlakın dövlət reyestri orqanına ötürülməlidir.

Eyni zamanda, bu barədə yazılı məlumat notarius tərəfindən ləğv edilən notariat hərəkətini aparmış notariat ofisinə və ya notariat işinin saxlanıldığı Dövlət notariat arxivinə verilməlidir. Həmin məlumat əsasında digər notariat ofisində və ya Dövlət notariat arxivində müqavilənin saxlanılan nüsxəsində və notariat hərəkətlərinin qeyd edildiyi reyestrdə müvafiq qeydiyyat aparılır.

Əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə ləğv edilərkən, əgər bu müqavilə müvafiq orqanda hələ qeydə alınmamışdırsa, daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış və ərin (arvadın) razılığı tələb edilmir.

Notarius əmlaka sərəncam verilməsi haqqında müqavilənin etibarsız hesab edilməsi barəsində məhkəmənin qətnaməsini aldıqda, bu barədə reyestrdə və müqavilənin notariusda saxlanılan nüsxəsində qeyd edir.[122]

Əmlakın özgəninkiləşdirilməsi haqqında pozulan müqavilə bağlanana qədər özgəninkiləşdirəndə olmuş, notariusda saxlanılan hüquq müəyyənedici sənəd (və ya onun dublikatı) əmlakı özgəninkiləşdirənin tələbi ilə notarius tərəfindən təsdiq edilmiş surəti notariat işində saxlanılmaqla ona qaytarılır. Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.[123]

Göstərilən müqavilələr pozularkən bu sənədləri təsdiq etməyə görə əvvəllər tutulmuş dövlət rüsumu və haqq tərəflərə qaytarılmır.[124]

43. Qeydə alınmalı olan əmlaka (yaşayış evi, mənzil və s.) sərəncam verilməsi haqqında müqavilə, habelə bu cür müqavilənin (müvafiq orqanda qeydə alındıqdan sonra) dəyişdirilməsi və ya ləğv edilməsi haqqında müqavilə həmin əmlakın qeydə alındığı yerdə qeydiyyat üçün təqdim olunmalıdır, bunu notarius təsdiq qeydində göstərir və tərəflərə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 178.1-ci maddəsinin tələblərini izah edir.[125]

44. Notariat qaydasında təsdiq edilən əqdlərin məzmunu ifadə olunan müqavilələr, vəsiyyətnamələr, etibarnamələr və digər sənədlər (ərizələr istisna olmaqla) azı iki nüsxədə tərtib edilir, bunlardan bir nüsxə notariat ofisində saxlanılır, digəri isə əqdin iştirakçılarına verilir.[126]

Bütün nüsxələr əqdin iştirakçıları tərəfindən imzalanır. Təsdiq qeydi də bütün nüsxələrdə aparılır.

Əqd iştirakçılarının xahişi ilə aparılmış notariat hərəkətləri barədə "Elektron notariat" informasiya sistemindən çıxarış verilir.

## II fəsil
## ƏMLAK ÜZƏRİNDƏ SƏRƏNCAM VERİLMƏSİ HAQQINDA MÜQAVİLƏLƏRİN TƏSDİQİ [128]

45. Daşınmaz əmlakın özgəninkiləşdirilməsinə və ipoteka qoyulmasına dair müqavilələr təsdiq olunarkən, daşınmaz əmlakın yerləşdiyi inzibati ərazi üzrə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 10.1-ci, 10.5-ci, 10.6-cı və 11.3-cü maddələri ilə müəyyən edilmiş dövlət rüsumu və ya haqq tutulur.[129]

Bu halda notarius yalnız notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxslərə fəaliyyət göstərdiyi notariat ofisində xidmət edir. Başqa inzibati ərazidə notariat ofisindən kənar notariat hərəkəti aparılmasına yol verilmir.

45-1. Daşınmaz əmlak barəsində sərəncam verilməsi ilə bağlı müqavilənin rəsmiləşdirilməsi və hüquqların dövlət qeydiyyatı ilə bağlı müqavilə üzrə tərəflərin qanunvericiliklə müəyyən edilən xərcləri notariusun ödəniş tapşırığında təyinatı göstərilməklə, bankda açdığı depozit hesabından eyni vaxtda ödənilir.[130]

46. Notarius daşınmaz əmlaka və daşınar əmlakın rəsmi reyestrlərində qeydə alınan əmlaka sərəncam verilməsi haqqında müqavilələri notariat qaydasında təsdiq edərkən, əmlaka dair sərəncam verən tərəfin sərəncam hüququnu və layihəsi notarius tərəfindən hazırlanmadığı halda, müqavilənin qanunauyğunluğunu yoxlayır.[131]

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1292-ci maddəsinə uyğun olaraq mirasın öz aralarında bölüşdürülməsi məqsədi ilə miras şəriklərinin paylarına dair sərəncam verməsi barədə müqavilələr notarius tərəfindən təsdiqlənməlidir.

47. Qeydiyyatdan keçməli olan əmlaka sərəncam verilməsi haqqında müqavilələri təsdiq edərkən, notarius tərəfindən əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı haqqında müvafiq reyestrdən çıxarışın informasiya sistemi vasitəsilə əldə edilərək surəti (bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır) kağız daşıyıcısına keçirilərək təsdiq edilir və notariat işinə əlavə olunur.[132]

47-1. Fiziki şəxsin özgəninkiləşdirilən yaşayış yeri üzrə qeydiyyatda olması müddəti "Elektron notariat" və "Giriş-çıxış və qeydiyyat" avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə əldə edilmiş məlumat əsasında mülkiyyət hüququnun əldə edilməsi müddətindən asılı olmayaraq müəyyən edilir.[133]

48. Notarius tərəfindən daşınmaz əmlak barəsində notariat hərəkətlərinin aparılması ilə bağlı daşınmaz əmlaka dair dövlət reyestrindən çıxarış, həmin əmlakın təsviri, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindəki məlumatlar notarius tərəfindən dövlət reyestrindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində əldə edilir. Həmin sənəd və məlumatlar notariusun istifadə etdiyi müvafiq informasiya sistemində elektron formada avtomatlaşdırılmış qaydada əks olunur.[134]

Daşınmaz əmlak üzərində hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri əsasında daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış mülkiyyətçi və ya onun nümayəndəsi tərəfindən təqdim edilir.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 66-cı maddəsinin 2-ci hissəsinə uyğun olaraq kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin on bir aya qədər icarəyə və ya istifadəyə verilməsi ilə bağlı müqavilə notarius tərəfindən "Elektron notariat" informasiya sistemi vasitəsilə həmin torpaq sahəsinə dair qüvvədə olan müqavilə müəyyən edilmədiyi halda təsdiq edilir (müqavilədə torpaq sahəsini icarəyə və ya istifadəyə verənin icarəçiyə və ya istifadəçiyə üçüncü şəxslərin hüquqlarından və ya hər hansı məhdudiyyətdən azad torpaq sahəsini verməsi qeyd edilməlidir).[135]

Avtonəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və ya ipoteka qoyulmasına dair müqavilələr, avtonəqliyyat vasitələrinə dair mülkiyyət hüququnu təsdiq edən sənəd, onların müayinədən keçməsi barədə arayış Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin informasiya sistemindən "Elektron notariat" informasiya sistemi vasitəsilə real vaxt rejimində əldə edildikdən sonra təsdiq edilir.[136]

Əmlak üzərində qadağa olduqda əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə yalnız borcun əmlakı əldə edənin adına keçirilməsinə dair kreditorun və əldə edənin razılığı olduqda təsdiq edilə bilər.[137]

Əmlak üzərinə məhkəmə tərəfindən həbs qoyulmuşdursa, həmin əmlaka sərəncam verilməsi haqqında müqavilənin təsdiqinə dair notariat hərəkətləri həbs götürülənədək dayandırılır.[138]

48-1. Notarius borc (pul məbləği) verilməsinə dair kredit müqaviləsini təsdiq edərkən, tərəflərin həqiqi niyyətinin müəyyən edilməsi üçün pulun verilməsi və qaytarılması ilə bağlı öhdəlikləri, hüquq və vəzifələri, öhdəliyin icrasının təminatı və öhdəlik icra olunmadıqda, tutmanın yönəldilməsi üsulunu və digər müqavilə şərtlərini izah etməli və bu barədə müqavilədə qeyd yazılmalıdır.[139]

49. Yaşayış sahəsinə (ev, mənzil, otaq) sərəncam verilməsi (özgəninkiləşdirmə, ipoteka və sonrakı ipoteka qoyma haqqında müqavilə və həmin müqavilədə dəyişiklik və onun ləğv edilməsi haqqında müqavilələr, kirayə və sair müqavilələr) haqqında müqavilələr təsdiq edilərkən, notarius həmin yaşayış sahəsində yaşayış yeri üzrə qeydiyyatda olan şəxslərin soyadı, adı və atasının adı haqqında elektron sənədi müvafiq informasiya sistemləri ilə qarşılıqlı inteqrasiya vasitəsilə avtomatlaşdırılmış rejimdə əldə edir və ona uyğun olaraq həmin ünvanda qeydiyyatda olan yetkinlik yaşına çatmış bütün ailə üzvlərinin razılığını alır.[140]

"Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinə əsasən bələdiyyə ərazisində daimi yaşayan və eyni zamanda ən azı beş il müddətində yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları tərəfindən fərdi yaşayış evinin tikintisi üçün bələdiyyə torpaqlarının əldə edilməsinə dair alqı-satqı müqavilələri notariat qaydasında təsdiq edilərkən, müqavilədə əldə edən şəxsin həmin torpaq sahəsini beş il müddətinə özgəninkiləşdirə bilməməsi qeyd edilməlidir. [141]

Notarius əmlakın nisyə alqı-satqısı haqqında müqaviləni təsdiq edərkən, müqavilədə əmlakın satış qiyməti tam göstərilir. Müqavilədə ödəniş müddətləri (günlər, aylar, illər üzrə) müəyyən edilir və alıcı ödənişi müqavilədə nəzərdə tutulduğu müddətdə ödəyir. Müqavilədə belə müddət nəzərdə tutulmadığı hallarda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 427-ci maddəsi tətbiq edilir.

Müqavilə üzrə ödəniş əmlakın ümumi satış qiyməti nəzərə alınmaqla, notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirilir. Bu halda müqavilə üzrə hər dəfə tərəflərdən biri digərinə ödənişi məbləğindən asılı olmayaraq, notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirir.

Müqavilə təsdiq edildikdən sonra notarius dövlət qeydiyyatı orqanına nisyə alqı-satqı ilə əlaqədar alıcı tərəfindən əmlakın dəyərinin satıcıya tam ödənilmədiyi barədə yazılı məlumat verir.

Nisyə alqı-satqı müqaviləsi üzrə öhdəliklər tam icra olunduqdan sonra tərəflərin müraciəti əsasında notarius bu barədə hüquqların dövlət qeydiyyatı orqanına təqdim edilməsi üçün arayış verir.

"Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi vasitəsilə notarius mülkiyyətçi fiziki şəxsin ölməsini, habelə əmlaka sərəncam verən şəxsin subay olub-olmamasını yoxlayır və bu barədə məlumatın surətini çap edərək notariat işinə tikir və həmin məlumatın surəti bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.[142]

Ümumi mülkiyyətdə olan əmlakın satılması və ya dəyişdirilməsi barədə müqavilələr təsdiq edilərkən hər bir mülkiyyətçinin razılığı tələb edilir. [143]

Əmlakın satılmasına və ya dəyişdirilməsinə dair razılıq haqqında ərizə yazılı olmalıdır və bu ərizədəki imzanın həqiqiliyi notarius, notariat ofisləri olmayan yaşayış məntəqələrində müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri və Azərbaycan Respublikası konsulluqlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən təsdiq edilməlidir. Əmlaka sərəncam verilməsinə dair müqavilələrin rəsmiləşdirilməsi üçün tələb olunan razılıq ərizələrində özgəninkiləşdirilən konkret əmlaka dair məlumatlar (daşınmaz əmlakın ünvanı, nəqliyyat vasitəsinə münasibətdə markası, nömrəsi, əmlakın məxsus olduğu şəxsin soyadı, adı, atasının adı və s.), eləcə də həmin əmlakın satılması, bağışlanılması, dəyişdirilməsi, yaxud ipoteka qoyulması göstərilməlidir. [144]

Əmlakın özgəninkiləşdirilməsinə və ya girov qoyulmasına razılıq haqqında ərizələrini notariusa şəxsən təqdim edən şəxslərin imzalarının həqiqiliyinin təsdiq edilməsi tələb olunmur. Bu halda notarius razılıq vermiş şəxslərin şəxsiyyətini müəyyən edir və onların imzalarının həqiqiliyini yoxlayır, bu barədə ərizələrdə qeyd edir və onların şəxsiyyətini təsdiq edən sənədin adını, nömrəsini, verildiyi tarixi və sənədi vermiş idarənin adını göstərir. [145]

Ərizələrdə razılıq verən şəxsin əmlakın konkret kimə (şəxsin soyadı, adı, atasının adı, təşkilatın adı) satılmasına, bağışlanmasına, dəyişdirilməsinə və ya girov qoyulmasına razı olduğu göstərilmişsə, yaxud qiymət və digər şərtlər göstərilmişsə, notarius özgəninkiləşdirmə və ya girov müqaviləsini təsdiq edərkən ərizələrdə göstərilmiş şərtlərə riayət olunub-olunmadığını yoxlamalıdır. [146]

Nikah müqaviləsində başqa qayda nəzərdə tutulmayıbsa, ər-arvaddan birinin ümumi mülkiyyətdə olan daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya) qeydiyyata alınan müqavilələrin bağlanılması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur.[147]

Əmlakı özgəninkiləşdirən və ya girov qoyan şəxs onun ərinin (arvadının) olmaması (subay, dul olması) haqqında ərizə təqdim edərsə, notarius bunu əqdin digər iştirakçısının nəzərinə çatdırır, o isə ərizədə imza etməklə, həmin halın ona məlum olduğunu təsdiq edir. Göstərilən ərizə əmlakı özgəninkiləşdirən və ya girov qoyan şəxsin özü tərəfindən, əqd nümayəndə vasitəsilə bağlandıqda isə nümayəndə tərəfindən verilməlidir.

Əmlaka sərəncam verilməsi haqqında müqavilələri təsdiq edərkən, notarius daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd əsasında bu əmlak üzərində mülkiyyət hüququnun nə vaxt yaranmasını yoxlayır. Əgər sərəncam verilən əmlakın mülkiyyətçisi bu əmlakı nikaha daxil olmadan, habelə nikah müddətində hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər təmənnasız əqdlər üzrə əldə etmişsə, bu əmlakın özgəninkiləşdirilməsinə və ya girov qoyulmasına ərin (arvadın) razılığı tələb edilmir. [148]

Ümumi paylı mülkiyyət hüququndakı pay üçüncü şəxsə satılarkən paylı mülkiyyətin qalan mülkiyyətçiləri satılan payı, açıq hərracdan satış halı istisna olmaqla, satıldığı qiymətə və digər bərabər şərtlər əsasında almaqda üstünlük hüququna malikdirlər.

Payın satıcısı öz payını üçüncü şəxsə satmaq niyyəti barəsində payın qiymətini və digər satış şərtlərini göstərməklə paylı mülkiyyətin qalan mülkiyyətçilərinə yazılı bildiriş verməlidir. Əgər paylı mülkiyyətin qalan mülkiyyətçiləri daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina edərlərsə və ya bildirişin verildiyi gündən 45 gün ərzində onu əldə etməzlərsə, daşınar əmlaka mülkiyyət hüququndakı payı isə 15 gün ərzində əldə etməzlərsə, satıcı öz payını istədiyi şəxsə sata bilər.

Ümumi paylı mülkiyyətin iştirakçılarından biri ona məxsus olan payı kənar şəxsə satdığı hallarda, notarius satanın xahişi ilə onun ərizəsini satılan əmlakın qiyməti və digər şərtləri göstərməklə paylar məlum olan ümumi mülkiyyət iştirakçılarına göndərir. [149]

Ümumi paylı mülkiyyətin qalan iştirakçıları satın almaqda üstünlük hüququnu həyata keçirməkdən imtina edərlərsə və ya satma niyyəti və satış şərtləri haqqında xəbərdar edildikləri gündən daşınmaz əmlak üçün 45 gün ərzində, daşınar əmlak üçün isə 15 gün ərzində həmin hüququ həyata keçirməzlərsə, notarius payın kənar şəxsə satışına dair alqı-satqı müqaviləsini təsdiq edir. [150]

Əmlakdakı payın kənar şəxsə satışına dair alqı-satqı müqaviləsi, həmçinin, ümumi paylı mülkiyyətin digər iştirakçıları əmlakın olduğu yerdə yaşamadıqda və onların ünvanı məlum olmadıqda da təsdiq edilə bilər. Notarius bu halı müvafiq informasiya sistemləri vasitəsilə əldə edilmiş yaşayış yeri üzrə qeydiyyatda olan şəxslərin soyadı, adı və atasının adı haqqında elektron sənəd və ya Əhalinin Dövlət Reyestri və yaxud "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə yoxlayır.[151]

Ümumi paylı mülkiyyətin iştirakçılarının hər biri öz paylarını digər mülkiyyətçilərin razılığı olmadan ipoteka qoya və istifadəyə (icarəyə, kirayəyə və s.) verə bilər. [152]

Qeydiyyatdan keçməli olan əmlakın özgəninkiləşdirilməsi ilə bağlı beh müqaviləsi təsdiq edilərkən bu hissənin on birinci abzasında nəzərdə tutulmuş razılıq tələb olunur.[153]

Ümumi paylı mülkiyyətdə olan ipoteka predmetinə məhkəməyə müraciət edilmədən tutmanın yönəldilməsi barədə ipoteka saxlayanla bütün mülkiyyətçilər notariat qaydasında təsdiqlənmiş razılaşma bağlaya bilərlər.[154]

50. Satılmış əmlak üçün alınan məbləği yetkinlik yaşına çatmamışların və ya fəaliyyət qabiliyyəti olmayan digər şəxslərin adına bank əmanətinə qoyulması qəyyumluq və himayə orqanı tərəfindən valideynlərə, qəyyumlara və ya himayəçilərə tapşırılarsa, notarius həmin tələbin yerinə yetirilməsini yoxlamalı və bunu müqavilənin mətnində göstərməlidir.

51. Yaşayış evinin, bağın, bağ evinin özgəninkiləşdirilməsi haqqında əqdlər təsdiq edilərkən yaşayış evinin, bağın, bağ evinin yerləşdiyi torpaq sahəsinin xüsusi mülkiyyətdə olduğu müəyyən edilərsə və tərəflərin torpağı da Azərbaycan Respublikası Mülki Məcəlləsinin 245-ci maddəsində qeyd olunan hallarda tərəflərin razılaşması ilə müəyyənləşdirilən torpaq sahəsinə hüquqların binanı (qurğunu) əldə edənə keçməsi barədə müddəalar bu əqddə öz əksini tapmalıdır. Əgər torpaq xüsusi mülkiyyətdə deyilsə, o zaman notarius tərəflərə izah etməlidir ki, torpaqdan yalnız istifadə (icarə) hüquqi digər tərəfə keçir.[155]

Eyni zamanda izah edilməlidir ki, qüvvədə olan qanunvericiliyə müvafiq olaraq torpaq yalnız Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin xüsusi mülkiyyətində ola bilər.

52. Daşınmaz əmlakın müəyyən hissəsinə sərəncam verilməsi haqqında müqavilələr təsdiq edilərkən, bu müqavilənin mətnində tərəflərin istəyinə uyğun olaraq həm əmlakın konkret hissələri (mərtəbə, otaq, yaşayış və torpaq sahəsinin konkret ölçüsü), həm də riyazi paylar (1/2; 1/3) göstərilə bilər.[156]

Paylar məlum olan ümumi mülkiyyətin iştirakçılarından biri tərəfindən daşınmaz əmlakda ona məxsus paya sərəncam verilməsi haqqında müqavilədə daşınmaz əmlakın konkret hissələrindən istifadə qaydası yalnız o zaman göstərilə bilər ki, daşınmaz əmlakdan istifadə qaydası haqqında paylar məlum olan ümumi mülkiyyət iştirakçıları arasında müvafiq saziş olsun və ya buna onların yazılı razılığı olsun, yaxud da daşınmaz əmlakın konkret hissələrindən istifadə qaydası haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olsun.[157]

Daşınmaz əmlakın konkret hissələri (mənzillər, otaqlar, mərtəbələr və s.) göstərilməklə ümumi daşınmaz əmlakdan istifadə qaydası haqqında paylar məlum olan ümumi mülkiyyət iştirakçıları arasında müqavilə müstəqil sənəd tərtib etmək yolu ilə rəsmiləşdirilə bilər. [158]

Bu cür müqavilələr təsdiq olunarkən daşınmaz əmlakın hüquq müəyyənedici sənədi və texniki pasportu tələb edilir.

53. Notarius daşınmaz əmlaka ümumi mülkiyyətdə paya sərəncam verilməsi haqqında müqaviləni təsdiq edərkən payı əldə edənə izah edir ki, iştirakçıların paylarına müvafiq surətdə daşınmaz əmlakın ayrı-ayrı hissələrindən istifadə etmək qaydası haqqında bu daşınmaz əmlakda paylar məlum olan ümumi mülkiyyət iştirakçıları arasında əvvəllər bağlanmış müqavilə notariat qaydasında təsdiq olunmuş və müvafiq dövlət orqanında qeydə alınmışsa, bu müqavilə həmin daşınmaz əmlaka ümumi mülkiyyətin bir hissəsini əldə edən şəxs üçün də məcburidir. [159]

54. Daşınmaz əmlak üçün hüquq müəyyənedici sənəddə payların miqdarı göstərilməmişsə və ya qeyri-düzgün göstərilmişsə, payların miqdarının müəyyən edilməsi, yaxud payların miqdarının dəyişdirilməsi haqqında müqavilə həm müstəqil sənəd tərtib etmək yolu ilə, həm də hüquq müəyyənedici sənəddə qeyd yazmaq yolu ilə rəsmiləşdirilə bilər.[160]

Paylar məlum olan ümumi mülkiyyətin iştirakçısı öldükdə, payların miqdarının dəyişdirilməsi haqqında saziş onun mirası qəbul etmiş vərəsələrinin iştirakı ilə təsdiq edə bilər.

Ümumi mülkiyyətin iştirakçılarından hər birinə məxsus olan payın miqdarının müəyyən edilməsi, eləcə də payların miqdarının dəyişdirilməsi haqqında müqavilə təsdiq edilərkən təsdiq qeydində göstərilir ki, bu müqavilə dövlət reyestrində qeydə alınmalıdır. [161]

Payların miqdarının müəyyən edilməsi və ya dəyişdirilməsi haqqında saziş hüquq müəyyənedici sənədə (sənədlərə) əlavə olunur. [162]

55. Tikintisi başa çatdırılmamış daşınmaz əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə bu əmlakın özgəninkiləşdirilməsinə rayon, şəhər icra hakimiyyətinin razılığı olduqda təsdiq edilə bilər.

Tikintisi başa çatdırılmamış daşınmaz əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə təsdiq edilərkən, zəruri sənədlərlə yanaşı müvafiq icra hakimiyyəti orqanından tikintisi başa çatdırılmamış daşınmaz əmlakın dəyəri haqqında və özgəninkiləşdirməyə qadağanın və həbsin olmadığı barədə arayış tələb edilir. [163]

56. Mülkiyyət hüquqlarının dövlət qeydiyyatı haqqında müvafiq dövlət reyestrindən çıxarışda və ya daşınmaz əmlakın təsvirində, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata

alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışda daşınmaz əmlakın tarix və mədəniyyət abidəsi olması barədə məlumat qeyd edildiyi halda, daşınmaz əmlakın özgəninkiləşdirilməsi zamanı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 660-cı maddəsi ilə müəyyən edilmiş qaydada satın almaqda üstünlük hüququnun həyata keçirilməsini təmin etmək məqsədilə, habelə daşınmaz əmlak icarəyə (istifadəyə) verilərkən mülkiyyətçinin müraciəti əsasında notarius tərəfindən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, tabeliyindəki dövlət qoruqlarının, habelə turizm və rekreasiya zonalarının ərazisində yerləşən abidələrə münasibətdə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə, Şuşa şəhərinin ərazisində yerləşən abidələrə münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində yerləşən abidələrə münasibətdə isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə bildiriş göndərilir.[164]

## III fəsil
## Vəsİyyətnamələrİn təsdİq edİlməsİ

57. Vəsiyyətnamənin tərtib edildiyi məqamda öz hərəkətləri barəsində şüurlu mühakimə yürüdə bilən və öz iradəsini aydın ifadə edə bilən yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli şəxs vəsiyyət edə bilər.

58. Vəsiyyətnaməni şəxsən vəsiyyət edən tərtib etməlidir. Vəsiyyətnamənin nümayəndə vasitəsi ilə tərtibinə yol verilmir.

59. Notariuslar fəaliyyət qabiliyyəti olan ayrı-ayrı şəxslərin qanunvericiliyin tələblərinə uyğun surətdə tərtib etdikləri və şəxsən notariusa təqdim etdikləri vəsiyyətnamələri təsdiq edirlər.

60. Vəsiyyətdə bir miras qoyanın sərəncamı olmalıdır. Vəsiyyətin iki və ya daha çox şəxs tərəfindən birgə tərtibinə yol verilmir. Yalnız ərlə arvad qarşılıqlı vərəsəlik haqqında birgə vəsiyyətnamə tərtib edə bilərlər. Bu vəsiyyət ərin və ya arvadın tələbi ilə, lakin onların hər ikisinin sağlığında ləğv edilə bilər.

Vəsiyyətnaməni vəsiyyət edənin sözlərindən notariusun iki şahidin yanında yazmasına yol verilir. Vəsiyyət edənin sözlərindən notariusun yazdığı vəsiyyətnaməni vəsiyyət edən oxumalı və notariusun, şahidlərin yanında imzalamalıdır.

Yetkinlik yaşına çatmayanlar, fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxslər, vəsiyyət üzrə vərəsələr və onların yüksələn və enən xətt üzrə qohumları, bacıları, qardaşları, arvadı (əri) və vəsiyyət tapşırığı alan (leqatari) vəsiyyətin şahidləri ola bilməzlər.

Xeyrinə əmlakın vəsiyyət olunduğu şəxs vəsiyyətnamə təsdiq olunarkən iştirak edə bilməz və vəsiyyətnaməni vəsiyyət edənin əvəzinə imzalaya bilməz.

Notarius da vəsiyyətnaməni vəsiyyət edənin əvəzinə imzalaya bilməz.

61. Vəsiyyət edənin arzusu ilə şahidlər vəsiyyətnaməni onun məzmunu ilə tanış olmadan (qapalı vəsiyyət) təsdiqləməlidirlər. Bu halda şahidlər vəsiyyətnamənin tərtibi zamanı vəsiyyət edənin yanında olmalıdırlar.

Qapalı vəsiyyətnaməni təsdiqləyərkən şahidlər vəsiyyətnamənin vəsiyyət edən tərəfindən onların yanında tərtib edildiyini, lakin vəsiyyətnamənin məzmununu bilmədiklərini göstərməlidirlər.

62. Əgər vəsiyyətnamə vəsiyyət edənin sözlərinə əsasən notarius tərəfindən tərtib olunursa, vəsiyyətnamədə vəsiyyət edəndən başqa, iki şahidin imza etməsinə yol verilir. Bu halda notarius ilk növbədə hər iki şahidin imzalarının həqiqiliyini, sonra isə vəsiyyətnaməni təsdiq etməlidir.

63. Vəsiyyət edən vəsiyyətnaməni öz əli ilə yazıb imzalaya bilər.

Vəsiyyət edən öz əli ilə yazdığı və imzaladığı vəsiyyətnaməni zərfə qoyub bağlayaraq üç şəxsin yanında notariusa verə bilər. Həmin şəxslərin orada olması onların zərfin üzərində notariat qaydasında (formasında) təsdiq edilmiş imzaları ilə müəyyən olunur. [165]

Bu növ vəsiyyətnamənin saxlanması onun notariusda rəsmən depozitə qoyulması ilə təmin edilməlidir.

64. Vəsiyyətnamə, tərtib edildiyi yer və vaxt göstərilməklə, yazılı şəkildə tərtib edilməli və vəsiyyət edən tərəfindən şəxsən imzalanmalıdır.

Vəsiyyətnamə təsdiq olunan tarix və saat dəqiq göstərilməlidir. Vəsiyyətnamənin mətnində qeyd-şərtə və qaralamaya yol verilməməlidir.

Vəsiyyət edən fiziki çatışmazlığına, xəstəliyinə və ya başqa səbəblərə görə vəsiyyətnaməni şəxsən imzalaya bilmirsə, vəsiyyətnaməni onun xahişi və iştirakı ilə digər şəxs imzalaya bilər. Bu zaman təsdiq qeydində vəsiyyət edənin hansı səbəbdən vəsiyyətnaməni imzalaya bilmədiyi göstərilməlidir. [166]

65. Əgər vəsiyyət edən şəxs nitq-eşitmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq-eşitmə qabiliyyəti tam məhdud və savadsızdırsa, vəsiyyətnaməni o, notariusda və iki şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin idarəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında tərtib etməlidir. [167]

Görmə qabiliyyəti tam məhdud və ya savadsız olan vəsiyyət edən vəsiyyətnaməni notariusda üç şahidin yanında tərtib etməlidir. Bu barədə müvafiq qeyd yazılır və ona oxunur.[168]

Notarius nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud olan və ya nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud və savadsız şəxsin vəsiyyətnaməsini dörd şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyən bir şəxsin yanında tərtib etməlidir. Vəsiyyətnaməni şahidlər yaza və oxuya bilərlər, lakin vəsiyyətnaməni onu yazan oxumamalıdır. Bu barədə vəsiyyətnamədə qeyd edilir. Qeyddə vəsiyyətnamənin kim tərəfindən yazıldığı və kim tərəfindən oxunduğu göstərilməlidir. Qeyd şahidlər tərəfindən imzalanır və notarius tərəfindən təsdiq edilir. [169]

66. Vəsiyyətin mətni hamılıqla qəbul olunmuş texniki vasitənin köməyi ilə ifadə edilə bilər, lakin imzanı vəsiyyət edən qoymalıdır. Bu halda vəsiyyət edən vəsiyyəti iki şahidin yanında tərtib etməli və imzalamalıdır. Həmin şahidlər təsdiq etməlidirlər ki, vəsiyyət onların yanında texniki vasitədən istifadə etməklə tərtib olunmuşdur. Vəsiyyət edən vəsiyyəti imzaladıqdan dərhal sonra şahidlər vəsiyyətdə öz adlarını, soyadlarını və yaşayış yerlərini göstərməklə müvafiq qeyd vasitəsi ilə vəsiyyəti təsdiqləməlidirlər.

67. Notarius vəsiyyətnamənin təsdiqi barədə xahişlə müraciət edən şəxsi qanun üzrə vərəsələrin Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq maddələri ilə müəyyən olunmuş dairəsi ilə tanış etməli və vəsiyyət edənə onun aşağıdakı hüquqlarını izah etməlidir, o cümlədən:

bütün əmlakını və ya onun bir hissəsini qanun üzrə vərəsələr dairəsinə həm daxil olan və həm də daxil olmayan bir və ya bir neçə şəxsə, dövlətə və ya ayrı-ayrı təşkilata vəsiyyət üzrə bilər, vəsiyyətnamədə qanun üzrə vərəsələrin birini, bir neçəsini və ya hamısını vərəsəlik hüququndan məhrum edə bilər;

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinə əsasən vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir;

vəsiyyət edən vəsiyyətnamədə təyin edilmiş vərəsələrin mirasdan paylarını müəyyənləşdirə bilər və ya hansı əmlakın verildiyini konkret göstərə bilər;

vəsiyyət bir neçə şəxsin xeyrinə edildikdə vəsiyyət edən vəsiyyətnamədə mirasdan onların hər birinə düşən payı göstərə bilər;

istənilən vaxt bu barədə ərizə verməklə və ya yeni vəsiyyətnamə tərtib etmək yolu ilə qoyulmuş vəsiyyətnaməni dəyişə və ya ləğv edə bilər. Vəsiyyət edən həmçinin həmin Qaydanın 39-cu bəndinə uyğun olaraq vəsiyyətnamənin saxlanılmaq üçün göndərildiyi notariat ofisinə və ya dövlət notariat arxivinə ərizə vermək yolu ilə də vəsiyyətnaməni ləğv edə bilər və sair. [170]

68. Vəsiyyət edən vəsiyyətnamənin tərtib edildiyi vaxt onda olmayan əmlakı vəsiyyətnamədə o halda nəzərdə tuta bilər ki, mirasın açılacağı vaxt bu əmlak onun mülkiyyətində olsun.

69. Vəsiyyət edən özünün təyin etdiyi vərəsənin miras açılanadək ölməsi və ya mirası qəbul etməməsi, yaxud vərəsəlik hüququnda məhrum edilməsi halı üçün vəsiyyətnamədə başqa vərəsənin (ehtiyat vərəsənin) adını göstərə bilər.

70. Vəsiyyət edən miras hesabına hər hansı öhdəliyin bir və ya bir neçə şəxsin xeyrinə icra olunmasını vəsiyyətnamə ilə vərəsəyə həvalə edə bilər (vəsiyyət tapşırığı).

Vəsiyyət sərəncamlarının dəqiq icrası məqsədi ilə vəsiyyət edən vəsiyyətnamə ilə həm vəsiyyət üzrə vərəsələr sırasından vəsiyyətnamənin bir və ya bir neçə icraçısını, həm də vərəsə olmayan başqa şəxsi təyin edə bilər. Başqa şəxsin təyin edildiyi halda vəsiyyətnamə icraçısının razılığı zəruridir. Bu razılığı o, vəsiyyətnamənin özündə və ya vəsiyyətnaməyə qoşulmuş ərizədə yazmaqla ifadə etməlidir.

71. Vəsiyyətnamə təsdiq olunarkən vəsiyyət edəndən vəsiyyət etdiyi əmlak üzərində mülkiyyət hüququnu, eləcə də onun xeyrinə vəsiyyət olunan şəxslə qohumluq əlaqəsini təsdiq edən sənəd tələb olunmur. Vəsiyyətnamə kənar şəxsin xeyrinə də təsdiq oluna bilər.

Əgər vəsiyyət edən özəlləşdirilmiş mənzili vəsiyyət edirsə, o zaman notarius bu mənzildə qeydiyyatda olan ailə üzvləri haqqında məlumatı müvafiq informasiya sistemləri vasitəsilə avtomatlaşdırılmış rejimdə əldə edir və ona uyğun olaraq mənzildə qeydiyyatda olan yetkinlik yaşına çatmış bütün ailə üzvlərinin yazılı razılığını tələb edir.[171]

Notariuslar təsdiq elədikləri vəsiyyətnamələrin uçotunun əlifba kitabını aparmalıdır.

Vəsiyyətnamələrin ləğv edilməsi və dəyişdirilməsi qaydası

72. Vəsiyyət edən vəsiyyətnaməni aşağıdakı üsullarla həmişə dəyişdirə və ya ləğv edə bilər:

əvvəlki vəsiyyətnaməni və ya onun yeni vəsiyyətnaməyə zidd hissəsini birbaşa ləğv edən yeni vəsiyyətnamə tərtib etməklə;

notariusa ərizə verməklə;

vəsiyyətnamənin bütün nüsxələrinin vəsiyyət edən tərəfindən və ya onun sərəncamı ilə notarius tərəfindən məhv edilməsi ilə.

73. Sonradan tərtib edilmiş vəsiyyətnamə ilə ləğv edilən vəsiyyətnamə sonradan tərtib edilmiş vəsiyyətnamənin ərizə vermək yolu ilə ləğv edildiyi halda da bərpa oluna bilməz.

74. Notarius vəsiyyətnamənin ləğv olunması və ya dəyişdirilməsi haqqında ərizə aldıqda, eləcə də əvvəlki vəsiyyətnaməni ləğv edən və ya dəyişdirən yeni vəsiyyətnamə aldıqda, vəsiyyətnamənin notariusda saxlanılan nüsxəsində və notariat hərəkətlərinin qeydiyyatı reyestrində bu barədə qeyd edir. Əgər vəsiyyət edən vəsiyyətnamənin onda olan nüsxəsini təqdim edərsə, vəsiyyətnamənin ləğvi haqqında qeyd bu nüsxədə də edilir. Bundan sonra həmin nüsxə ərizə ilə birlikdə (əgər vəsiyyətnamə ərizə ilə ləğv olunmuşsa) notariusda saxlanılan nüsxəyə əlavə edilir.

Vəsiyyətnamənin dəyişdirilməsi, ləğv və ya məhv edilməsi haqqında ərizədə olan imzanın həqiqiliyi mütləq notariat qaydasında təsdiq olunmalıdır.

Notarius vəsiyyətnaməni təsdiq edərkən əvvəllər vəsiyyətnamə təsdiq edildiyi ona məlum olarsa, aparılmış notariat hərəkəti barədə əvvəllər tərtib olunmuş vəsiyyətnamə nüsxəsinin saxlanıldığı dövlət notariat arxivinə, notariusa və ya rayon, şəhər, şəhər rayonu icra hakimiyyətinin nümayəndələrinə bildiriş göndərməlidir. [172]

Notarius dəyişdirilmiş, ləğv və ya məhv edilmiş vəsiyyətnamə barəsində reyestrdə və vəsiyyətnamələrin uçotunun əlifba kitabında qeyd etməlidir.

## IV fəsil
## Etİbarnamələrİn təsdİq edİlməsİ və onların qüvvədə Olmasına xİtam verİlməsİ

75. Notarius bir və ya bir neçə şəxs adından bir və ya bir neçə şəxsin adına verilən etibarnaməni təsdiq edə bilər.

Etibarnamə istənilən (nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə istisna olmaqla) müddətə verilə bilər. Əgər etibarnamədə müddət göstərilməyibsə, o, verildiyi gündən bir il ərzində qüvvəsini saxlayır. Verildiyi tarix göstərilməyən etibarnamə etibarsızdır. Nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə bir ildən artıq müddətə verilə bilməz.[173]

Xaricdə hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan və qüvvədə olma müddəti göstərilməyən etibarnamə notarius tərəfindən təsdiqləndikdə, etibarnaməni vermiş şəxs tərəfindən ləğv edilənədək qüvvəsini saxlayır.

Etibarnamənin mətnində onun tərtib edildiyi (imzalandığı) yer və vaxt, etibarnamə verən və etibarnamə verilən şəxslərin soyadı, adı, atasının adı (hüquqi şəxsin tam adı) və yaşayış yeri (hüququ şəxsin olduğu yer), lazımi hallarda isə vəzifəsi, şəxsiyyət vəsiqəsi üzrə digər məlumatlar (seriyası, nömrəsi, hansı orqan tərəfindən və nə vaxt verilməsi, eləcə də şəxsin doğum tarixi, fərdi identifikasiya nömrəsi), Azərbaycan Respublikasının ərazisində yerləşən daşınmaz əmlaka sərəncam verilməsinə (özgəninkiləşdirilməsi, ipoteka və renta ilə yüklü edilməsi) dair etibarnamələrdə isə həmçinin, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış hüquqlara dair elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində əldə edilmiş məlumatlar (qeydiyyat tarixi, reyestr nömrəsi və s.) göstərilməlidir. Həmin məlumatları informasiya sistemi vasitəsilə əldə etmək mümkün olmadıqda, notarius daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatına dair sənədləri tələb edərək müvafiq məlumatları etibarnamədə qeyd edir. Vəkillərin adına etibarnamələrdə vəkillərin iş yeri (hüquq məsləhətxanası) göstərilir.[174]

Etibarnamənin qüvvədə olma müddəti sözlə yazılır.

76. Əgər əmlakın müəyyən müddətdə özgəninkiləşdirilməsinə qadağan qoyulmuşsa, həmin müddət başa çatmamış bu əmlakın özgəninkiləşdirilməsi üçün etibarnamə təsdiq edə bilməz. [175]

77. Nəqliyyat vasitələrindən müvəqqəti əvəzsiz istifadə edilməsi üçün verilən etibarnamələr təsdiq edilərkən etibar edilən şəxsin sürücülük vəsiqəsinin surəti (həmin sənədlərin surəti bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır) etibarnamənin notariusda saxlanılan nüsxəsinə əlavə edilir və ya sürücülük vəsiqəsi haqqında məlumatlar (nömrəsi, verildiyi tarix, onu vermiş orqanın adı, dərəcəsi, qüvvədə olma müddəti) həmin nüsxədə qeyd edilir.[176]

Etibarnamənin müddəti sürücülük vəsiqəsinin qüvvədə olma müddətindən artıq ola bilməz. Notarius həmçinin, ona təqdim edilmiş etibar edilən şəxsin sürücülük vəsiqəsi əsasında etibar edilmiş nəqliyyat vasitəsini idarə etmək üçün müvafiq dərəcəyə malik olub-olmamasını yoxlamalıdır. [177]

Əgər etibar edilən yol hərəkəti qaydalarını pozduğuna görə onun sürücülük vəsiqəsi alınaraq əvəzinə müvəqqəti icazə vərəqəsi verilmişsə, nəqliyyat vasitəsindən istifadə edilməsi üçün verilən etibarnamənin müddəti müvəqqəti icazə vərəqəsinin qüvvədə olduğu müddətdən artıq ola bilməz. [178]

78. Əgər nəqliyyat vasitələrinə MDB dövlətlərində və ya digər xarici dövlətlərdə hüquq müəyyənedici sənəd (texniki pasport, qeydiyyat şəhadətnaməsi və ya vəsiqəsi) verilmişsə, həmin nəqliyyat vasitələrinə yalnız nəqliyyat vasitəsindən istifadə edilməsi üçün etibarnamə verilə bilər, bir şərtlə ki, nəqliyyat vasitəsi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsində müvəqqəti qeydiyyata götürülsün.

Əgər nəqliyyat vasitəsinin hüquq müəyyənedici sənədi müəyyən müddətə verilmişsə, həmin nəqliyyat vasitəsinə etibarnamə bu müddətdən artıq müddətə verilə bilməz.

79. Etibar edilmişi başqasına etibaretmə qaydasında verilən etibarnamə etibar edilmişi başqasına etibaretmə hüququ şərtləşdirilmiş əsas etibarnamə təqdim olunduqda və ya əsas

etibarnamə üzrə nümayəndə etibarnamə verən şəxsin mənafeyinin mühafizəsi üçün buna məcbur olduğunu təsdiq edən sübutlar təqdim etdikdə notariat qaydasında təsdiq edilir.

Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamə əsas etibarnamə üzrə verildiyindən artıq hüquqlar etibar etməməlidir. Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamənin qüvvədə olma müddəti onun verilməsi üçün əsas götürülmüş etibarnamənin qüvvədə olma müddətindən artıq ola bilməz.

Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamədə əsas etibarnamənin təsdiq olunduğu vaxt və yer, əsas etibarnamənin verildiyi şəxsin və onun öz səlahiyyətini etibar etdiyi şəxsin soyadı, adı, atasının adı və yaşadığı yer, lazımi hallarda isə onların vəzifəsi göstərilməlidir.

Etibarnamədə, onun dublikatının etibar edilən şəxs tərəfindən əldə etmək səlahiyyətinin olub-olmaması barədə qeyd yazılmalıdır.[179]

Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamə üzrə səlahiyyətlər bütünlüklə digər şəxsə ötürüldükdə həmin etibarnamənin əsli, səlahiyyətlərin bir hissəsi ötürüldükdə isə bu Təlimatın 31-ci hissəsinin ikinci abzasına uyğun olaraq onun surəti notariat işinə əlavə edilir.[180]

Səlahiyyətləri başqa şəxsə verən bunu etibarnaməni verənə bildirməli və səlahiyyətləri verdiyi şəxs barəsində ona lazımi məlumat verməlidir. Bu vəzifənin icra edilməməsi səlahiyyəti verənin üzərinə səlahiyyətləri verdiyi şəxsin hərəkətləri üçün öz hərəkətləri üçün olduğu kimi məsuliyyət qoyur.

Etibarnaməni vermiş və ya etibarnamə verilmiş şəxsin notariat qaydasında təsdiq edilmiş ərizəsi əsasında etibarnaməyə xitam verilir. Etibarnaməyə xitam verildikdə, etibar edilmişi başqasına etibaretmə qüvvədən düşür.

Bir və ya bir neçə şəxsin adından bir və ya bir neçə şəxsə verilmiş etibarnamə onların hər hansı birinin notariat qaydasında təsdiq edilmiş ərizəsinə əsasən seçdiyi şəxsə qarşı etibarnamə hissəvi xitam olunur.

Əgər etibarnamə başqa notariat ofisində təsdiq edilibsə, etibarnaməyə xitam verilməsi barədə ərizəni qəbul edən notarius "Elektron notariat" informasiya sistemində etibarnaməyə xitam verilməsi barədə qeyd yazmaqla, etibarnaməyə xitam verir və ərizəni dərhal sistem vasitəsilə etibarnaməni təsdiq etmiş notariusa göndərir. Həmin notarius isə dərhal notariat reyestrində etibarnaməyə xitam verilməsi barədə müvafiq qeyd aparır.[181]

## V fəsil
## MİRASIN QORUNMASI [182]

80. Mirasın qəbul edilməsinə qədər mirasın açıldığı yerdəki notarius və ya rayon, şəhər, şəhər rayonu icra hakimiyyətinin nümayəndələri zərurət olarsa, mirasın qorunması məqsədi ilə tədbirlər görür. Həmin qayda vərəsənin məlum olmadığı və ya onun mirası qəbul edib-etməməsinin bilinmədiyi halda da şamil edilir.[183]

81. Miras qoyanın əmlakı və ya əmlakın bir hissəsi vərəsəliyin açıldığı yerdən kənardadırsa, vərəsəliyin açıldığı yerdəki notarius əmlakın qorunması üçün tədbirlər görülməsi haqqında miras əmlakın olduğu yerdəki notariusa və ya rayon, şəhər, şəhər rayonu İcra Hakimiyyətinin nümayəndələrinə tapşırıq göndərir.

Miras əmlakın qorunması üçün tədbirlər görmüş notarius və rayon, şəhər, şəhər rayonu İcra Hakimiyyətinin nümayəndələri göstərilən tədbirlərin görüldüyü haqqında vərəsəliyin açıldığı yerdəki notariusa məlumat verirlər.

Habelə, əmlakın yerləşdiyi yerdəki notarius mirasın açıldığı yerdəki notariusa xəbər verməklə, mirasın qorunması üçün tədbirlər görə bilər.[184]

Vətəndaşların və təşkilatların məlumat miras əmlakın qorunması üçün tədbirlər görülməsi haqqında ərizələrin uçotu kitabında qeydə alınır.[185]

82. Miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın olduğu yer mirasın açıldığı yer sayılır.

Əgər miras müxtəlif yerlərdədirsə, mirasın açıldığı yer daşınmaz əmlakın və ya onun qiymətli hissəsinin olduğu yer, daşınmaz əmlak olmadıqda isə daşınar əmlakın və ya onun əsas hissəsinin olduğu yer sayılır.

Müddətli xidmətdə olan hərbi qulluqçuların, habelə daimi yaşayış yerindən kənarda yerləşən təhsil müəssisələrində təhsil alan tələblərin ölümündən sonra vərəsəliyin açıldığı yer onların müddətli hərbi xidmətə çağırılanadək və ya müvafiq məktəbə daxil olanadək daimi yaşadıqları yer hesab edilir.

83. Açılmış miras haqqında vərəsələrdən məlumat alan notarius bu barədə yaşayış və ya iş yeri ona məlum olan vərəsələrə xəbər verməlidir.

Notarius həmçinin kütləvi elan verilməsi və mətbuatda məlumat dərc edilməsi yolu ilə vərəsələri çağıra bilər.

84. Notarius mirasın qorunması üçün mirası siyahıya alır və bu fəsildə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün əmlak idarəçisini təyin edir.[186]

85. Notarius əmlak idarəçisini miras əmlakı israf etməyə, özgəninkiləşdirməyə, gizlətməyə və dəyişdirməyə görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyəti və vurulan zərər üçün maddi məsuliyyət haqqında xəbərdarlıq edir, bu barədə onlardan iltizam alır. İltizam miras əmlakın siyahıyaalma aktında ifadə oluna bilər.[187]

86. Miras əmlak, onun siyahısının tutulmasında əmlak idarəçisinin, vəsiyyətnamənin icraçısının və azı iki şahidinin iştirakı ilə siyahıya alınır. [188]

Siyahıyaalma aktında miras əmlakın qorunması üçün tədbirlər görülməsi haqqında ərizənin (məlumatın) daxil olduğu tarix, siyahıyaalmanın aparıldığı tarix, siyahıyaalmada iştirak edən şəxslərin soyadı, adı, atasının adı və ünvanı, miras qoyanın soyadı, adı, atasının adı, onun öldüyü tarix və siyahıya alınan əmlakın olduğu yer, notarius gələnədək mənzilin (binanın) möhürlənib-möhürlənmədiyi, əgər möhürlənmişsə-kim tərəfindən möhürləndiyi, plomb və ya möhürün qırılıb-qırılmadığı, əşyaların hər birinin qiyməti və köhnəlmə faizi göstərilməlidir. Siyahıya alınmış əşyalar pərakəndə qiymətlər üzrə (köhnəlməsi nəzərə alınmaqla) pərakəndə qiymətləri olmayan

əşyalar isə qiymətləndirici tərəfindən qiymətləndirilir. Daşınmaz əmlak və nəqliyyat vasitələri bazar qiymətləri üzrə və ya inventarizasiya qiyməti üzrə qiymətləndirilir.[189]

Torpaq sahələri bazar qiymətləri ilə, lakin Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Torpaqların yeni normativ qiymətlərinin müəyyən edilməsi haqqında” qərarı ilə müəyyən olunmuş qiymətdən aşağı olmamaq şərti ilə qiymətləndirilir.

Müəssisələrin qiyməti onların son balans qiymətindən aşağı olmamaqla qiymətləndirilir.

Vərəsələr qoyulmuş qiymətlə razılaşmadıqda, qiymətləndirici dəvət edə bilərlər. Qiymətləndirməyə görə xidmət haqqını vərəsələr ödəyirlər.[190]

Aktın hər bir səhifəsində əşyaların (əmlakın) miqdarına və dəyərinə, siyahıyaalma başa çatdıqdan sonra isə onların ümumi miqdarına və dəyərinə yekun vurulur.[191]

Siyahıyaalma aktına ölənin mənzilindəki (binasındakı) bütün əmlak daxil edilir. Ayrı-ayrı əşyaların onlara məxsus olması haqqında qonşuların və digər şəxslərin məlumatı siyahıyaalma aktına daxil edilir, əlaqədar şəxslərə isə həmin əmlakın siyahıdan çıxarılması haqqında iddia ilə məhkəməyə müraciət etmək qaydası izah olunur.[192]

Əmlakın siyahıya alınması dayandırılarsa və ya bir neçə gün çəkərsə, hər dəfə mənzil (bina) notarius tərəfindən möhürlənir. Siyahıyaalmanın dayandırılması və davam etdirilməsi səbəbləri və vaxtı haqqında, habelə sonralar mənzili (binanı) açarkən plombun və ya möhürün vəziyyəti barədə siyahıyaalma aktında qeyd yazılır.

Aktın sonunda əmlak idarəçisinin soyadı, adı, atasının adı, anadan olduğu il, onun şəxsiyyətini təsdiq edən sənədin adı, nömrəsi, verilmə tarixi, sənədi vermiş idarənin adı, əmlak idarəçisinin yaşadığı yer göstərilir.[193]

Siyahıyaalma aktı azı 3 nüsxədə tərtib olunur ki, bunlardan da biri əmlak idarəçisinə (vəsiyyətnamə icraçısına) verilir, digəri vərəsəliyin açıldığı yer üzrə notariusa göndərilir, üçüncüsü isə aktı tərtib etmiş notariusda saxlanılır.[194]

Siyahıyaalma aktı notarius, əlaqədar şəxslər, hal şahidləri və əmlak idarəçisi və ya vəsiyyətnamə icraçısı tərəfindən imzalanır.[195]

87. Miras əmlakın qorunması üçün tədbirlər görülməsi mümkün deyildirsə (vərəsələr və ya miras qoyanla birgə yaşayan digər şəxslər əmlakın siyahıya alınmasına etiraz edirlərsə, əmlakı siyahıya almaq üçün vermirlərsə, yaxud əmlak başqa yerə aparılmışsa və sairə) notarius akt tərtib edir və bu barədə əlaqədar şəxslərə, zəruri hallarda isə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, maliyyə orqanlarına və ya prokurora məlumat verir.[196]

Mirasın qorunması üçün nəzərdə tutulmuş tədbirlərlə bağlı xərclər mirasın passivinə aid edilir.[197]

(Çıxarılıb)[198]

88. Vərəsələr mirası qəbul edənədək, miras qəbul edilmədikdə isə dövlətə vərəsəlik hüququ haqqında şəhadətnamə verilənədək, notarius miras əmlakın tərkibindəki pul məbləğindən aşağıdakı xərclərin ödənilməsi haqqında sərəncam verir:

1) miras qoyanın xəstəliyi dövründə ona qulluq etməkdən ötrü sərf edilmiş, habelə miras qoyanın dəfnindən ötrü xərcləri ödəmək üçün;

2) miras qoyanın himayəsində olan şəxslərin saxlanılması üçün;

3) əmək qanunvericiliyindən irəli gələn və bunlara bərabər tutulan digər tələblərin ödənilməsi üçün;

4) miras əmlakın qorunması və idarə olunması, eləcə də mirasın açılması barədə vərəsələrə məlumat verilməsi üzrə xərclər üçün.[199]

Miras əmlakın tərkibində pul məbləği olmadıqda notarius bu bəndin birinci hissəsində göstərilən ehtiyacların ödənilməsinə sərf olunmuş faktiki xərclərin məbləğini aşmamaq şərti ilə miras əmlakdan şeylərin verilməsi barədə sərəncam verir.

89. Ölənin pul məbləği vərəsələrə verilənədək və ya miras əmlak vərəsəlik hüququ üzrə dövlətə keçdikdə dövlət mədaxilinə keçirilənədək bank idarəsində notariat ofisinin depozit hesabına təhvil verilir.

Sikkə, külçə şəklində və xam halında qızıl, gümüş, platin və platin qrupundan olan metallar (palladium, osmium, rodium, rutenium) xarici valyuta və xarici valyuta ilə yazılmış tədiyə sənədləri, sənədli qiymətli kağızları (orderlər, veksellər, çeklər, istiqrazlar, səhmlər, əmtəə kağızları və sair), qiymətli materialdan, qiymətli daşlardan və mirvaridən hazırlanmış məmulat, habelə qiymətli daşlar və mirvari vərəsələrə verilənədək və ya miras əmlak vərəsəlik hüququ üzrə dövlətə keçdikdə dövlət mədaxilinə keçirilənədək saxlanılmaq üçün banka verilir.[200]

Minimum əmək haqqının 20 mislindən az məbləğdə olan qiymətli şeylər saxlanılmaq üçün miras əmlakın təyin olunmuş əmlak idarəçisinə verilir.

Notariusda sərvətlərin uçotu kitabı aparılır və burada yuxarıda göstərilən sərvətlər qeydə alınır.

Ölənin əmlakı tərkibində silah, o cümlədən ov tüfəngi olduqda, xüsusi siyahı üzrə polis orqanlarına saxlanılmaq üçün təhvil verilir.

Siyahıya alınmalı əmlakın tərkibində qiymətli əlyazmaları, ədəbi əsərlər, tarixi və ya elmi əhəmiyyəti olan məktublar olduqda, bu sənədlər ayrıca qorunması üçün əmlak idarəçisinə (vəsiyyətnamə icraçısına) verilir.[201]

90. Miras əmlakın qorunması miras qəbul edilənədək, miras onlar tərəfindən qəbul edilmədikdə isə qanunla mirasın qəbulu üçün müəyyənləşdirilmiş müddətlər bitənədək davam edir.[202]

(Çıxarılıb)[203]

## VI fəsil
## Vərəsəlİk hüququ haqqında şəhadətnamələrİn verİlməsİ

92. Miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın olduğu yer mirasın açıldığı yer hesab edilir. [204]

Əgər miras müxtəlif yerlərdədirsə, mirasın açıldığı yer daşınmaz əmlakın və ya onun qiymətli hissəsinin olduğu yer, daşınmaz əmlak olmadıqda isə daşınar əmlakın və ya onun əsas hissəsinin olduğu yer sayılır.

Miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır.

93. Miras qoyanın öldüyü gün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı vaxt sayılır.

Miras qoyanın ölümü haqqında verilmiş şəhadətnamədə onun ölüm tarixinin günü deyil, yalnız ayı göstərilmişdirsə, mirasın açıldığı vaxt həmin ayın axırıncı günü, il göstərildikdə həmin ilin dekabr ayının 31-ci günü mirasın açıldığı vaxt hesab edilir. [205]

Miras qoyanın ölüm faktını və mirasın açıldığı vaxtı təsdiq edən sənədlər aşağıdakılar hesab edilir:

fiziki şəxsin ölümü haqqında qeydiyyat orqanının verdiyi şəhadətnamə;

şəxsin ölmüş elan edilməsi, yaxud ölümün qeydə alınması faktı barədə çıxarılmış məhkəmə qərarı.

94. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrinin (miras passivi) toplusu daxildir.

Mirasın tərkibinə ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri daxildir. [206]

Qanunvericiliyə əsasən mirasın tərkibinə miras qoyanın sağlığında mülkiyyət hüququ əldə etdiyi daşınmaz və daşınar əmlakın rəsmi reyestrlərində qeydə alınan əmlak, habelə mükafat, müəllif qonorarı, alınmamış əməkhaqqı, pensiya, bank əmanətləri, qiymətli kağızlar, müəssisədəki pay və sığorta ödənişi və s. daxil edilir.

Miras qoyanın qanunla müdafiə edilən əmlak və şəxsi qeyri-əmlak hüquqlarına zərər vurulması ilə əlaqədar dəymiş ziyanın ödənilməsi haqqında tələb vərəsələrə keçir.

95. Mirasın açıldığı yerin notariusu vərəsələrin ərizəsinə əsasən vərəsəlik qaydasında keçən əmlaka dair mirası qəbul etmiş fiziki və hüquqi şəxslərə, habelə dövlətə vərəsəlik şəhadətnaməsi verir. [207]

Vərəsəlik şəhadətnaməsi tərtib edilərkən mirasın tərkibinə əmlak daxildirsə, şəhadətnamənin mətnində onun ümumi sahəsi (yaşayış və yardımçı sahələr, yaşayış otağının sayı), ünvanı, ümumi mülkiyyətdən ölənə çatası pay (hissə), hansı hüquq müəyyənedici sənədə əsasən miras qoyana məxsus olması, eləcə də həmin əmlakın yüklü olub-olmamasına dair arayış barədə məlumatlar (tarixi, nömrəsi və s.), qeyri-yaşayış və torpaq sahələrinə dair müvafiq məlumatlar göstərilməlidir.

Vərəsəlik şəhadətnaməsində hər bir vərəsəyə çatası pay (hissə), yetkinlik yaşına çatmayan vərəsə olduqda isə onun doğum tarixi göstərilməlidir. Bir neçə vərəsə olduqda əgər onların payı bərabərdirsə "...mirasdan bərabər hissələrdə irs almalıdırlar.", yeganə vərəsə olduqda "...mirasdan irs almalıdır.", vərəsələrə çatası paylar (hissələr) fərqli olduqda isə "...1/3 hissə, yaxud ...2/3 hissə" kimi ifadə olunmalıdır.

Vəsiyyət edən öldükdən sonra notarius gün təyin edərək, maraqlı şəxsləri rəsmən depozitə qoyulmuş vəsiyyətnamənin məzmunu ilə tanış edir. Notarius bu barədə müvafiq protokol tərtib etməlidir. Əgər vəsiyyətnamənin qoyulduğu zərf möhürlənmişdirsə, möhürün salamatlığı qeyd edilməlidir.

96. Vərəsəlik hüququ haqqında şəhadətnamə vərəsələrə mirasın açıldığı gündən altı ay keçdikdən sonra verilir. Əgər notariusda şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə məlumat vardırsa, vərəsəlik hüququ haqqında şəhadətnamə altı aydan tez də verilə bilər.

Qanunla müəyyənləşdirilmiş müddətdə mirası qəbul etməyən vərəsələr mirası qəbul etmiş vərəsələrin hamısının razılığı ilə vərəsəlik şəhadətnaməsinə yazıla bilərlər. Razılıq vərəsəlik şəhadətnaməsi verilənədək yazılı surətdə ifadə edilməli və notariat qaydasında təsdiq olunmalıdır. [208]

Əgər mirası qəbul etməyə çağırılmış vərəsə miras açıldıqdan sonra onu müəyyənləşdirilmiş müddətdə qəbul etməyə macal tapmadan ölərsə, onun vərəsələri ilkin miras qoyanın ölümündən sonra qalmış əmlaka vərəsəlik hüququ haqqında şəhadətnamə ala bilərlər.

Vərəsəlik hüququ haqqında şəhadətnamə həm bütün miras, həm də onun bir hissəsi üçün verilə bilər. Şəhadətnamə həm bütün vərəsələrə birlikdə, həm də ayrılıqda hər birinə arzularına uyğun olaraq verilir. Vərəsələrdən birinə mirasın bir hissəsi üçün vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi, digər vərəsələri mirasın qalan hissəsi üçün şəhadətnamə almaq hüququndan məhrum etmir.

97. Əgər nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə yoxdursa və ya vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə, yaxud bütün vərəsələr vərəsəlik hüququndan məhrum edilmişdirsə, vərəsələri olmayan əmlak dövlətə keçir; əgər miras qoyan şəxs ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinin, müalicə, tərbiyə və sosial təminat müəssisələrinin təminatında olmuşdursa, onların mülkiyyətinə keçir.[209]

Əmlak vərəsəlik hüququ üzrə dövlətə keçdikdə dövlətin vərəsəlik hüququ haqqında şəhadətnamə vərəsəliyin açıldığı gündən altı aydan tez olmayaraq Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə verilir. [210]

98. Mirasın qəbul edilməsi, ondan imtina olunması və ya vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsi haqqında ərizələr yazılı formada olmalıdır.

Bu ərizələrdə vərəsənin imzasının həqiqiliyi notariat hərəkətləri aparan orqan tərəfindən təsdiq edilməlidir.

Vərəsə ərizəni vərəsəliyin açıldığı yerdəki notariusa şəxsən təqdim edərsə, imzanın həqiqiliyinin təsdiq edilməsi tələb olunmur. Bu halda notarius vərəsənin şəxsiyyətini müəyyən edir və imzasının həqiqiliyini yoxlayır, bu barədə ərizədə qeyd edir və şəxsiyyəti təsdiq edən sənədin adını, nömrəsinin verilmə tarixini, sənədi vermiş idarənin adını, vərəsənin anadan olduğu ili göstərir. [211]

Əgər mirasın qəbul edilməsi, ondan imtina olunması və ya vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsi haqqında poçtla daxil olmuş ərizədə vərəsənin imzasının həqiqiliyi təsdiq edilməmişsə, notarius ərizəni qəbul edir, lakin vərəsəyə təklif edir ki, lazımi qaydada tərtib olunmuş ərizə göndərsin, yaxud notariat ofisinə şəxsən gəlsin. Poçtla daxil olmuş həmin ərizə

əsasında vərəsəlik işi açılmır. Lakin ərizəçi vərəsəlik işinin açılması ilə əlaqədar həmin notariat ofisinə mirasın qəbulu və ya ondan imtina olunması üçün müəyyənləşdirilmiş müddəti ötürdükdən sonra gələrsə və ya notariat qaydasında təsdiq edilmiş ərizəsini göndərərsə, müddətin hesablanması birinci ərizənin poçtla daxil olduğu gündən hesablanır. [212]

99. Mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir.

Vərəsə mirasın açıldığı gündən altı ay ərzində mirasın açıldığı yer üzrə notariusa mirası qəbul etdiyi barədə yazılı formada notariat qaydasında təsdiq edilmiş ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktiki başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. [213]

Vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktiki başladıqda hesab edilir ki, mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmişdir.

Əgər vərəsələrdən biri miras payını qəbul etməkdən başqa vərəsənin xeyrinə imtina edərsə, belə hərəkət mirasın qəbul olunmaması sayılır.

Əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktiki başlamağa sübut aşağıdakılar ola bilər: [214]

vərəsənin miras açıldıqdan sonra mirasın qəbulu üçün müəyyən edilmiş müddətdə mirasın tərkibinə daxil olan yaşayış sahəsində yaşaması (qeydiyyatda olması, yaxud faktiki yaşaması) barədə müvafiq sənəd;

mirasın tərkibinə daxil olan hər hansı əmlaka sahiblik etməsinə dair, eləcə də miras açıldıqdan sonra daşınmaz əmlak üçün vergilərin və ya kommunal xidmətlər üçün haqların vərəsə tərəfindən ödənildiyi barədə müvafiq sənəd;

mirasın qəbulu üçün müəyyən edilmiş müddətdə miras əmlakın icarə və kirayə verilməsi üzrə haqların alınmasını təsdiq edən sənəd;

mirasın qəbul edilməsi faktının müəyyən olunması haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinin surəti;

miras qoyanın əmlakını vərəsənin idarə etməyə başlaması faktını təsdiq edən digər sənədlər.

Notariusda mirası qəbul etmək üçün əmanət kitabçasının qanunla müəyyən olunmuş müddətdə alınmasını təsdiq edən məlumat olduqda, əmanət kitabçasının olması da miras əmlakı idarə etməyə başlanılmasına sübut ola bilər (miras qoyanın ölümündən sonra miras əmlakı siyahıya almış idarənin, müəssisənin sənədi, əmanət kitabçasının vərəsəyə verilməsi haqqında miras əmlakın qorunması üçün tədbirlər görmüş notariusun sənədi, miras qoyanın dəfnini təşkil edən komissiyanın aktı (əmanət kitabçasının vərəsəyə təqdim olunduğu vaxt bu sənədlərdən görünür), vərəsənin bankdan pul alması haqqında əmanət kitabçasında qeydlər və ya bankın məlumatı, miras qoyanın ölümündən sonra qalan əmanət kitabçasının müəyyən vaxtda vərəsəyə təqdim edildiyi barədə mənzil-istismar idarəsinin arayışı, bu kitabçanın poçtla göndərilməsi haqqında sənəd və sair).[215]

100. Mirası fəaliyyət qabiliyyətli şəxs qəbul edə bilər. Fəaliyyət qabiliyyəti olmayan və məhdud fəaliyyət qabiliyyətli şəxslər mirası öz qanuni nümayəndələri vasitəsi ilə qəbul edirlər. Bu şəxslərin adından müvafiq ərizələr onları təmsil edən həmin şəxslər tərəfindən yazılır və notariat qaydasında təsdiq edilir.Bu halda notarius yetkinlik yaşına çatmamış və fəaliyyət qabiliyyəti

olmayan vərəsələrin adına vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsi barədə onların əmlak mənafelərini mühafizə etmək məqsədi ilə vərəsənin yaşayış yeri üzrə qəyyumluq və himayə orqanına məlumat verməlidir (vərəsəlik hüququ haqqında şəhadətnamənin surətini göndərməlidir). [216]

101. Vərəsə mirası şəxsən və ya nümayəndə vasitəsi ilə qəbul edə bilər.

102. Notarius qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə verərkən sübutlar tələb etmək yolu ilə, habelə bu Təlimatın 13-cü hissəsinin altıncı abzasına uyğun miras qoyanın ölümü faktını, mirasın açıldığı vaxtı və yeri, şəhadətnamə verilməsi haqqında ərizə vermiş şəxslərin miras qoyanla qohumluq münasibətlərini, barəsində şəhadətnamə verilən miras əmlakın tərkibini və olduğu yeri müvafiq sübutlar tələb etmək yolu ilə yoxlayır. [217]

Ölüm faktı vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqanların şəhadətnaməsi, mirasın açıldığı vaxt isə həmçinin şəxsin ölmüş elan edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə təsdiq edilir.[218]

Mirasın açıldığı yer aşağıdakı sənədlərlə təsdiq olunur: miras qoyanın yaşayış yeri haqqında müvafiq informasiya sistemləri ilə qarşılıqlı inteqrasiya vasitəsilə avtomatlaşdırılmış rejimdə əldə edilən məlumat, ölənin yaşayış yeri məlum olmadıqda isə miras əmlakın və ya onun əsas hissəsinin olduğu yer haqqında sənəd.[219]

Vərəsələrdə həmin sənədlər olmadıqda, notarius mirasın açıldığı yerin müəyyən edilməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsini tələb edir. [220]

Vərəsələrin miras qoyanla qohumluq və digər münasibətləri aşağıdakı sənədlərlə sübut edilir: vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqanların şəhadətnamələri, arayışları, eləcə də akt qeydlərindən çıxarışlar, pasportlarda uşaqlar və ər (arvad) haqqında qeydlər, qohumluq münasibətlərinin müəyyən edilməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnamələri. [221]

Ayrı-ayrı hallarda iş və ya yaşayış yeri üzrə idarə və təşkilatların verdikləri arayışlar da qəbul edilə bilər, bu şərtlə ki, onlar digər sənədlərlə birlikdə vərəsələrin miras qoyanla qohumluq münasibətlərini təsdiq etsin. [222]

Qanun üzrə bir və ya bir neçə vərəsə miras qoyanla qohumluq münasibətlərinə dair sübutlar təqdim etmək imkanına malik deyildirsə, onlar miras qoyanla qohumluq münasibətlərinə dair sübutlar təqdim etmiş bütün qalan vərəsələrin notariat qaydasında təsdiq edilmiş razılığı ilə vərəsəlik hüququ haqqında şəhadətnaməyə daxil edilə bilərlər.[223]

103. Əgər miras qoyanın himayəsində olmuş və özlərini müstəqil saxlaya bilməyən əmək qabiliyyəti olmayan şəxslərin adları vəsiyyətnamədə çəkilməmişdirsə, onlar mirasdan dolanacaq təminatı (aliment) tələb edə bilərlər. Dolanacaq təminatı kimi ödənilməli məbləğin ölçüsü miras aktivin həcmi nəzərə alınmaqla azaldıla bilər.

Himayədə olma faktının sübut olunması üçün aşağıdakı sənədlər təqdim edilə bilər: miras qoyanın himayəsində olan şəxslər haqqında evlər idarəsinin və ya miras qoyanın iş yerinin arayışı, ailəni dolandıranın itirilməsi ilə əlaqədar olaraq pensiya təyin edilməsi haqqında pensiya təyin edən orqanın arayışı, himayədə olma faktının müəyyən edilməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinin surəti.

Himayədə olanın yaşla əlaqədar əmək qabiliyyətinin olmaması şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə əsasında yoxlanılır, orqanizmin funksiyalarının pozulması ilə əlaqədar əmək qabiliyyətinin olmaması tibbi-sosial ekspert komissiyasının qərarı ilə yoxlanılır.[224]

Notarius mirasda məcburi pay hüququ olan şəxslərin dairəsini də yoxlamalıdır.

104. Notarius vəsiyyət üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə verərkən sübutlar tələb etmək yolu ilə miras qoyanın ölümü faktını, vəsiyyətnamənin olub-olmadığını, vərəsəliyin açıldığı vaxtı və yeri, barəsində şəhadətnamə verilən miras əmlakın tərkibini və olduğu yeri müvafiq sübutlar tələb etmək yolu ilə yoxlayır, mirasda məcburi paya hüququ olan şəxslər olub-olmadığını aydınlaşdırır, habelə vəsiyyətnamənin ləğv edilib-edilmədiyini onu təsdiq etmiş notariat ofisində yoxlayır. [225]

Vəsiyyət üzrə vərəsəlik hüququ haqqında şəhadətnamədə vərəsələrin miras qoyanla qohumluq və ya digər münasibətlər göstərilirsə (vərəsələrin arzusu ilə), notarius bu münasibətləri təsdiq edən sənədləri tələb edir.

105. Vəsiyyət üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənə verilərkən vəsiyyətnamənin vərəsə tərəfindən təqdim olunmuş əsl nüsxəsi və ya dublikatı notariusda saxlanılır. Vərəsənin arzusu ilə ona vəsiyyətnamənin notariat qaydasında təsdiq olunmuş surəti verilə bilər.[226]

106. Əgər vəsiyyətnamədə bütün miras əmlak vəsiyyət üzrə vərəsələr arasında bölüşdürülmüşdürsə, lakin mirasın açıldığı vaxt vərəsələrdən biri sağ deyildirsə, qanun üzrə vərəsəlik əmələ gəlmir və onun əmlak payını vəsiyyət üzrə digər vərəsələr paylarına mütənasib surətdə alırlar.[227]

107. Miras əmlakın tərkibində daşınmaz əmlak olduqda, notarius miras qoyanın daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənədi tələb edir. [228]

Notarius hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərin ərizəsi və dövlət reyestrindən çıxarış əsasında daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışı “Elektron notariat” informasiya sistemi vasitəsilə real vaxt rejimində əldə edir.

Daşınmaz əmlak üzərində hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri əsasında daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış vərəsə və ya onun nümayəndəsi tərəfindən təqdim edilir.

Kredit alınması ilə əlaqədar daşınmaz əmlak üzərində hüquqlar məhdudlaşdırıldıqda və kreditor barədə məlumat, daşınmaz əmlakın təsviri bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışa əsasən məlum olduqda, notarius kreditora bildirir ki, borc alanın vərəsələrinə vərəsəlik şəhadətnaməsi verilmişdir.

Əmlak üzərində məhkəmə və ya istintaq orqanları tərəfindən həbs qoyulmuşdursa, vərəsəlik şəhadətnaməsinin verilməsi həbs götürülənədək dayandırılır.

108. Xüsusi qeydə alınmalı olan əmlakı (avtomobil, motosikl, motorlu qayıq və s.) vərəsəlik hüququ haqqında şəhadətnaməyə daxil etmək üçün notarius həmin əmlakın miras qoyana məxsus

olması haqqında sənədi (texniki pasportu, gəmi şəhadətnaməsini və s.) yoxlayır və şəhadətnamə verilməsi haqqında ərizədə bu barədə qeyd edir.

109. Miras əmlakın müəyyən hissəsinə vərəsəlik hüququ haqqında şəhadətnamə almış vərəsələrə sonralar miras əmlakın əvvəlcə verilmiş şəhadətnamədə göstərilməyən digər hissələrinə vərəsəlik hüququ haqqında şəhadətnamə verilir.

Başqa əmlaka vərəsəlik hüququ haqqında əlavə şəhadətnamə verildikdə və əvvəlcə verilən şəhadətnaməyə daxil edilməmiş vərəsələr gəldikdə, onlar da mirası qəbul etmiş bütün vərəsələrin yazılı razılığı ilə əlavə əmlaka vərəsəlik hüququ haqqında şəhadətnaməyə daxil edilə bilərlər. [229]

110. Notarius vərəsəlik işlərinin uçotu kitabını aparır. [230]

Vərəsəlik işlərinin uçotu kitabında mirasın qəbul edilməsi, mirasdan imtina haqqında ərizələr qeydə alınır.

Mirasın qəbul edilməsi, vərəsəlik şəhadətnaməsinin verilməsi və mirasdan imtina haqqında ərizələr yazılı formada tərtib olunur və notariat qaydasında təsdiq edilir. Həmin ərizələrin daxil olan sənədlərin qeydə alınması kitabında qeydiyyatı aparıldıqdan sonra vərəsəlik işinin uçotu kitabına daxil edilir. Bu barədə vərəsəlik işinin uçotunun əlifba kitabında qeyd aparılır.

Qeydə alınmış ərizələr əsasında ölənin adına vərəsəlik işi açılır. Bütün sonrakı ərizələr, habelə ölüm faktını, vərəsələrin miras qoyanla qohumluq və digər münasibətlərini təsdiq edən və miras qoyanın yaşayış yeri haqqında müvafiq informasiya sistemi vasitəsilə avtomatlaşdırılmış rejimdə əldə edilən sənədlər, eləcə də kreditorların müraciəti vərəsəlik işinə tikilir.

Mirasın qəbul edilməsi, vərəsəlik şəhadətnaməsinin verilməsi və mirasdan imtina haqqında ərizələrdə onların daxil olduğu vaxt və vərəsəlik işinin nömrəsi göstərilir.

Əgər vərəsəlik şəhadətnaməsinin verilməsi haqqında ərizə miras açıldığı gündən altı ay ərzində verilərsə, bu müraciət mirasın qəbul edilməsi haqqında ərizə kimi qəbul edilir.

Vərəsəlik şəhadətnaməsinin verilməsi haqqında vərəsənin ərizəsində ölən qohumundan qalmış mirası qəbul etməsi (qohumluq əlaqəsi göstərilməklə) və ünvanlandığı notariat ofisinin adı, vərəsə və miras qoyanın soyadı, adı və atasının adı, onların ünvanı, mirasın açıldığı vaxt göstərilməli, digər vərəsələrin miras açılanadək yaşayış yeri sadalanmalıdır.

Əgər vərəsənin miras əmlakın tərkibi barədə məlumatı vardırsa, notarius ona təklif edir ki, vərəsəlik şəhadətnaməsinin verilməsi üçün bu fəsildə nəzərdə tutulan sənədlər təqdim edilənədək, mirasın qəbulu barədə ərizə versin.

Bu ərizədə mirasın qəbul edilməsi barədə iradə ifadəsi əks olunmalı və ünvanlandığı notariat ofisinin adı, ərizəçinin soyadı, adı və atasının adı, ünvanı, mirasın açıldığı vaxt, miras qoyanın soyadı, adı, atasının adı və yaşadığı ünvan göstərilməlidir.

Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslərin adından ərizə valideynləri, yaxud qəyyumları (himayəçiləri) tərəfindən verilir. Ərizədə onun yetkinlik yaşına çatmamışın (yaxud fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxsin) adından fəaliyyət göstərməsi, eləcə də ərizə verənin və vərəsənin soyadı, adı, atasının adı, vərəsənin doğum tarixi qeyd edilir.

Vərəsə tərəfindən ərizəsinə əlavə edilmiş miras qoyanın ölümü haqqında şəhadətnamə, onun miras qoyanla qohumluq münasibətini təsdiq edən sənəd və ya ləğv edilməmiş və yaxud dəyişdirilməmiş vəsiyyətnamə, eləcə də mirasın açıldığı yer barədə müvafiq sənəd və ya məlumat əsasında ölənin adına vərəsəlik işi açılır və bu barədə məlumat "Elektron notariat" informasiya sisteminə daxil edilir.

Bütün sonrakı ərizələr (əlavə ərizələr, başqa vərəsələrdən və kreditorlardan daxil olan ərizələr) də daxilolma kitabında qeydə alınır.

Ərizələrin yuxarı sağ küncünə onların daxil olduğu vaxt və vərəsəlik işinin nömrəsi qeyd edilir.

Vərəsəlik şəhadətnaməsinin verilməsi üçün zəruri olan sənədlər və vərəsəlik şəhadətnaməsinin notariat ofisində saxlanılan nüsxəsi notariat işinə tikilir.

## VII fəsil
## Ər-arvadın ümumİ əmlakındakı paya mülkİyyət hüququ haqqında şəhadətnamələrİn verİlməsİ

111. Notarius ər-arvadın birgə yazılı ərizəsi əsasında onların birinə və ya hər ikisinə birgə nikah dövründə əldə edilmiş ümumi əmlakdakı paya görə mülkiyyət hüququ haqqında şəhadətnamə verir.

Şəhadətnamə ər-arvadın hər birinə həm nikahda olarkən, həm də nikah pozulduqdan sonra verilə bilər.

Ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah müqaviləsində və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

Ər-arvaddan hər birinin əmlakı o halda onların birgə mülkiyyəti sayıla bilər ki, nikah dövründə ərlə arvadın ümumi əmlakı və ya ərin (arvadın) şəxsi əmlakı hesabına həmin əmlakın dəyərini əhəmiyyətli dərəcədə artıran vəsait qoyulduğu (əsaslı təmir, yenidənqurma, yeni avadanlıqla təchiz etmə və i.a.) müəyyənləşdirilsin. Əgər nikah müqaviləsində və ya ərlə arvadın razılaşmasında ayrı qayda nəzərdə tutulubsa, bu qayda tətbiq edilmir.

112. Ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir.

113. Notarius şəhadətnamə verərkən nikah haqqında şəhadətnamə, nikahları pozulmuş şəxslər (keçmiş ər-arvad) müraciət etdikdə isə nikahın pozulması haqqında şəhadətnamə tələb edir. Vergi və ya rüsum tutulan əmlak barəsində şəhadətnamə verilərkən, vergi idarəsindən arayış və ya rüsumun ödənilməsi haqqında sənəd təqdim olunur.[231]

114. Əmlakın tərkibinə dövlət qeydiyyatına alınmış daşınmaz və daşınar əmlakın rəsmi reyestrində qeydiyyata alınmış əmlak daxildirsə, notarius bu əmlakın ər-arvada məxsus olmasını yoxlayır. Bu məqsədlə mülkiyyət hüquqları barədə məlumatları əmlakın reyestrini aparan orqanların mövcud informasiya sistemlərindən əldə etmək mümkün olmadıqda, həmin orqanlardan müvafiq arayış tələb edir.[232]

Kredit borcuna görə əmlakın özgəninkiləşdirilməsinə qadağan qoyulmuş olduqda mülkiyyət hüququ haqqında şəhadətnamə borcu vermiş müvafiq bank idarəsinin, yaxud təsərrüfat hesablı müəssisənin, yaxud təşkilatın icazəsi ilə verilir. Ev üzərinə həbs qoyulmuşdursa, mülkiyyət hüququ haqqında şəhadətnamə verilə bilməz. [233]

Daşınmaz əmlaka mülkiyyət hüququ haqqında şəhadətnaməni yalnız əmlakın olduğu yerin notariusu verə bilər. [234]

115. Mülkiyyət hüququ haqqında şəhadətnamə ər-arvadın yalnız əmlakdakı paya mülkiyyət hüququnu təsdiq edir. Konkret əmlaka şəhadətnamə verilmir (məsələn, ər-arvadın birinə evə, digərinə avtomobilə şəhadətnamə verilməsinə yol verilmir). Ona görə də əgər ər-arvadın hər hansı biri əmlaka (əşyaya) ayrılıqda mülkiyyət hüququ almaq istəyirsə, notarius onlara şəhadətnamə almaq əvəzinə nikah dövründə birgə əldə etdikləri əmlakın bölüşdürülməsi müqaviləsinin rəsmiləşdirilməsini təklif etməlidir. [235]

116. Ər-arvadın biri öldükdə, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnaməni sağ qalmış ərin (arvadın) ərizəsinə əsasən yalnız mirasın açıldığı yerin notariusu verməli və bu barədə miras qoyanın mirası qəbul etmiş vərəsələrinə məlumat göndərməlidir.

Məlumatda ər-arvadın ümumi əmlakının tərkibi (həmin əmlakda pay barəsində sağ qalmış ər (arvad) mülkiyyət hüququ haqqında şəhadətnamə verilməsini xahiş edir) göstərilir, habelə sağ qalmış ərin (arvadın) əmlak tələbləri barəsində vərəsə mübahisə etdikdə məhkəməyə müraciət etmək hüququ izah olunur.

Məlumat poçtla göndərilir, notariusa şəxsən müraciət edən vərəsələrə isə notarius tərəfindən şifahi məlumat verilir, bu barədə sağ qalmış ərin (arvadın) ərizəsində vərəsənin imzası ilə müvafiq qeyd yazılır. Vərəsələr arasında yetkinlik yaşına çatmayan və ya fəaliyyət qabiliyyəti olmayan şəxslər olduqda bildiriş onların yaşayış yeri üzrə qəyyumluq və himayə orqanına göndərilir.

117. Nikah müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sağ qalmış ərə (arvada) ər-arvadın ümumi əmlakında paya mülkiyyət hüququ haqqında şəhadətnamə nikah dövründə əldə edilmiş ümumi əmlakın yarısına verilir.

Ər-arvadın biri öldükdə, əmlak isə ər-arvadın birgə nikah dövründə əldə edilibsə və sağ qalan ərin (arvadın) adına rəsmiləşdirilibsə (qeydə alınıbsa), ölənin mirası qəbul etmiş vərəsələrinin ərizəsi əsasında sağ qalmış ərin (arvadın) razılığı ilə ölmüş ərin (arvadın) ümumi əmlakından pay da müəyyən edilə bilər. Bu pay əmlakın 1/2 hissəsindən ibarət olmalıdır. Həmin pay müəyyənləşdiriləndən sonra qanuni vərəsələrin vərəsəlik hüququ haqqında şəhadətnamə almağa hüququ var.

118. Sağ qalmış ərə (arvada) ər-arvadın ümumi əmlakında paya mülkiyyət hüququ haqqında şəhadətnamə verilərkən ərin (arvadın) ölümü haqqında şəhadətnamə, ərizə sahibinin ölmüş ərlə (arvadla) nikah münasibətlərini təsdiq edən sənəd, ər-arvadın əmlakına ümumi (birgə) mülkiyyət hüququnu təsdiq edən sənəd, həmçinin nikah müqaviləsinin olması yoxlanılaraq mövcud olduğu halda tələb olunur. [236]

119. Əmlakın tərkibində yaşayış evi, mənzil, bağ, bağ evi, qaraj, qeyri-yaşayış sahəsi, torpaq sahəsi, digər daşınmaz əmlak, nəqliyyat vasitəsi və digər əmlak daxildirsə, notarius bu Təlimatın 113-114-cü bəndlərində göstərilən qaydalara əməl edir. [237]

120. Vərəsələrin sağ qalmış ərin (arvadın) payının müəyyən edilməsinə dair yazılı razılığı olmadıqda, notarius mülkiyyət hüququ haqqında şəhadətnamə verilməsindən imtina edir və vərəsələrə məhkəməyə müraciət etmək hüququnu izah edir.

121. Ər-arvadın ikisi də öldükdə (bir gündə və yaxud müxtəlif vaxtda), notarius tərəfindən mülkiyyət hüququ haqqında şəhadətnamə vərəsələrin ərizələri əsasında verilmir və onlara məhkəməyə müraciət etmək hüququ izah olunur.

## VIII fəsil
## Yaşayış evİnİn açıq hərracdan alınması barədə şəhadətnamənİn verİlməsİ

122. Açıq hərracdan yaşayış evlərinin alınmasını evin yerləşdiyi yerin notariusu əldə edənə bu barədə şəhadətnamə verməklə rəsmiləşdirməlidir.

Hərrac Azərbaycan Respublikasının mülki və mülki-prosessual qanunvericiliyində nəzərdə tutulan hallarda və qaydada keçirilir.

123. Hərrac baş tutmadıqda yaşayış evinin əldə edilməsi barədə şəhadətnamə tələbkara verilir.

Şəhadətnamə evin açıq hərrac yolu ilə satılması və ya hərracın baş tutulması ilə əlaqədar olaraq evin tələbkara verilməsi barədə aktın surəti əsasında verilir.

Aktda hərracın keçirildiyi gün, yaşayış evinin yerləşdiyi ünvan, onun satış qiyməti, alıcının (hərrac baş tutmayıbsa, tələbkarın) soyadı, adı, atasının adı, yaşayış yeri (hüquqi şəxsdirsə adı, hüquqi ünvanı, səlahiyyətli nümayəndəsinin soyadı, adı, atasının adı) göstərilməlidir. Aktda hərrac keçirən vəzifəli şəxsin imzası və möhürü olmalıdır.

Akt əsasında notarius alıcıya, hərrac baş tutmayıbsa - tələbkara şəhadətnamə verir.

Şəhadətnamədə:

şəhadətnaməni verən notariusun soyadı, adı, atasının adı, vəzifəsi, şəhadətnamənin verilmə tarixi;

alıcının (tələbkarın) soyadı, adı, atasının adı, yaşayış yeri;

yaşayış evinin ünvanı;

şəhadətnamənin hansı akt əsasında verilməsi barədə məlumat göstərilməlidir.

## IX fəsil
## Sənədlərİn surətlərİnİn və sənədlərdən çıxarışların düzgünlüyünün, İmzanın həqİqİlİyİnİn və tərcümənİn düzgünlüyünün təsdİq edİlməsİ

### Sənədlərin surətlərinin və sənədlərin surətlərindən çıxarılmış surətlərin və sənədlərdən çıxarışların düzgünlüyünün təsdiq edilməsi

124. Notariuslar idarələrin, müəssisələrin və təşkilatların verdikləri sənədlərin surətlərini, həmin sənədlər qanunazidd olmadıqda, hüquqi əhəmiyyət daşıdıqda, sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünü təsdiq etmək qanunla qadağan edilmədikdə, habelə

sənədlər səlahiyyətli vəzifəli şəxsin imzası və müvafiq qurumun möhürü ilə təsdiqlənmiş olduqda təsdiq edilir. [238]

Notariuslar elektron informasiya sistemləri və ya ehtiyatları, o cümlədən internet informasiya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətlərinin düzgünlüyünü təsdiq edirlər.[239]

Notariuslar, həmçinin elektron imza ilə təsdiq edilməklə elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə kağız daşıyıcıda olan sənəddəki məlumatları elektron formata keçirir və ya elekron daşıyıcıda olan elektron sənədin düzgünlüyünü rəsmiləşdirirlər. Təqdim edilən sənədin surəti və ya sənəddəki imzanın həqiqiliyi müvafiq qaydada notariat qaydasında təsdiq edilməlidir.[240]

Sənəddə gözlə görünən pozuntu, qaralama, təsdiq edilməmiş düzəlişlər olduqda, habelə bir neçə səhifədən ibarət sənəd tikilib, qaytanlanmadıqda həmin sənədin surəti təsdiq olunması üçün qəbul edilə bilməz.

Notariat qaydasında təsdiq edilmiş əqdlərin surəti "Elektron notariat" informasiya sistemi vasitəsilə onu təsdiq etmiş notariat ofisində ləğv edilib-edilmədiyi yoxlanıldıqdan sonra təsdiq oluna bilər.

Fiziki şəxsin verdiyi ərizənin surətinin düzgünlüyü sənədin əslində həmin şəxsin imzasının həqiqiliyi notariat qaydasında təsdiq edilmiş olduqda təsdiq edilir.

125. Sənədin surətinin düzgünlüyü notariat qaydasında təsdiq olunmuşsa və ya sənədin surətini sənədin əslini vermiş idarə, müəssisə, təşkilat vermişdirsə, notarius sənədin surətindən çıxarılmış surətin düzgünlüyünü təsdiq edə bilər. Sonuncu halda sənədin surəti idarənin, müəssisənin, təşkilatın blankında tərtib edilməli, üzərinə möhür vurulmalı və qeyd olunmalıdır ki, sənədin əsli həmin idarə, müəssisə, təşkilatda saxlanılır.

126. Sənədlərdən çıxarışların düzgünlüyü o halda təsdiq edilə bilər ki, bu sənədlərin məzmunu bir-biri ilə əlaqəsi olmayan bir neçə məsələyə aid olsun. Çıxarış sənədin müəyyən məsələyə aid hissəsinin tam mətnini özündə əks etdirməlidir.

Sənədlərdən çıxarışların düzgünlüyü bu Təlimatın 124-125-ci bəndlərində müəyyən olunmuş qaydada təsdiq olunmalıdır.

127. Sənədin təsdiq edilən surəti və ya sənəddən çıxarış sənədin əsli ilə tutuşdurulur. Sənədin surəti kseroks və yaxud çap və əlyazma üsulu ilə tərtib edilə bilər.

Sənədlərdə imzanın həqiqiliyinin təsdiq edilməsi

128. Notarius qanuna zidd və əqdin şərhindən ibarət olmayan, eləcə də özündə insanın şərəf və ləyaqətini ləkələyən məlumatlar əks etdirməyən sənədlərdə imzanın həqiqiliyini təsdiq edir.

Notarius maraqlı şəxslərin ona müraciəti zamanı məhkəmə, istintaq və ya təhqiqat orqanının icraatında olan işlər üzrə sübutları təmin etmir, o cümlədən şahid ifadələrində imzanın həqiqiliyi notarius tərəfindən təsdiq edilmir.[241]

129. Notarius imzanın həqiqiliyini təsdiq edərkən sənəddə şərh olunmuş faktları deyil, yalnız müəyyən şəxsin etdiyi imzanın həqiqiliyini təsdiq edir. Sənədlər əqdin şərhindən ibarətdirsə, notarius tərəflərə müvafiq qaydada əqd bağlamağı təklif etməlidir.

130. Əqddə yalnız fiziki çatışmazlığına, xəstəliyinə və ya digər üzrlü səbəblərə görə şəxsən imza edə bilməyən şəxsin əvəzinə imza etmiş şəxsin imzasının həqiqiliyi təsdiq oluna bilər. [242]

Bu halda notarius fiziki çatışmazlığına, xəstəliyinə və ya başqa səbəblərə görə şəxsən imza edə bilməyən şəxsin əvəzinə imza etmiş şəxsin imzasının həqiqiliyini təsdiq edərkən həm imza etmiş şəxsin, həm də bu şəxs kimin əvəzindən imza etmişsə həmin şəxsin şəxsiyyətini müəyyən edir.

131. Sənəddə təsdiq edilən halları təsdiq etmək hüququ yalnız dövlət orqanına məxsus olduqda (məsələn, anadan olma, nikah, ölüm tarixi və s.), şəxsin həmin sənəddəki imzasının həqiqiliyi təsdiq edilə bilməz. Həmin sənəddəki imzanın həqiqiliyi elə hallarda təsdiq edilə bilər ki, bu sənəd xarici dövlətin məhkəməsinə və ya digər idarəsinə təqdim olunmaq üçün nəzərdə tutulsun.

132. Bank vərəqələrində vəzifəli şəxslərin imzalarının nümunələrini təsdiq edərkən notarius onların imzalarının həqiqiliyini və imza hüququna səlahiyyətini yoxlayır.

Səlahiyyətin təsdiqi üçün notarius aşağıdakı sənədləri tələb edir və özündə saxlayır: vəzifəli şəxsin təyin edilməsi haqqında əmr və ya seçilməsi haqqında protokoldan çıxarış, hüquqi şəxslərin dövlət reyestrindən çıxarış və müəyyən edilən qaydada təsdiq olunmuş nizamnamə və ya əsasnamənin surəti, yaxud idarə başçısının adına yuxarı təşkilat tərəfindən verilmiş etibarnamə. Vərəqədə bu təşkilatın möhürü ottiskinin nümunəsi göstərilməlidir. Təşkilatın möhürü yoxdursa, bu halı təsdiq edən müvafiq sənəd (hesabın sahibinə nisbətən yuxarı təşkilat tərəfindən verilmiş arayış və s.) təqdim olunmalıdır. [243]

Tərcümənin düzgünlüyünün təsdiq edilməsi

133. Notarius müvafiq dilləri bilirsə, sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü təsdiq edə bilər.

Notarius müvafiq dilləri bilmədiyi halda sənədləri tərcüməçi tərcümə etməli, onun imzasının həqiqiliyini isə notarius təsdiq etməlidir.

Notarius tanıdığı tərcüməçinin hər dəfə gəlməməsi üçün onu qeydiyyata götürür. Bu məqsədlə onun ərizəsini, imza nümunəsini, şəxsiyyətini təsdiq edən sənədin və diplomunun surətini tələb edir.[244]

Sənədi tərcüməçi tərcümə etdikdə, onun imzasının həqiqiliyinin təsdiqi, sənədlərdə imzanın həqiqiliyinin təsdiqi qaydasında aparılır. Bu halda notarius tərcüməçi tərəfindən tərcümə edilmiş sənədin mətninə görə məsuliyyət daşımır. [245]

Bir neçə dilə tərcümə olunan sənəddə hər dil üzrə tərcüməçinin imzası ayrıca təsdiq olunur.

Notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxs dövlət dilini bilmədiyi halda, notariusun izah və xəbərdarlıqları tərcüməçi tərəfindən müraciət etmiş şəxsə tərcümə olunmalı və bu barədə qeyd rəsmiləşdirilən sənəddə öz əksini tapmalıdır. Bu halda tərcüməçinin imzası notariat qaydasında təsdiq edilir.

Notarius tərcüməçi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş tərcümənin düzgünlüyünü elektron qaydada təsdiq edə bilər. Bu halda notarius tərcümənin mətninə görə məsuliyyət daşımır.[246]

Sənədlərin tərcüməsi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi və notarius vasitəsilə təşkil edildiyi halda tərcüməyə görə haqq notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində tərcümə xidməti göstərən hüquqi şəxsin bankdakı hesabına keçirilir.[247]

134. Notariat hərəkəti aparılarkən (əqdin təsdiq edilməsi, surətin düzgünlüyünün təsdiq olunması və s.) eyni zamanda başqa dilə tərcümə də edilərsə, tərcümə sənədin əsli ilə bir vərəqdə, hər iki mətn bir-birinin yanında, şaquli xətlə ayrılan bir səhifədə elə yerləşdirilir ki, mətnin əsli sol tərəfdə, tərcümə isə sağ tərəfdə olsun. Mətnin hamısı tərcümə olunmalı və imzalarla qurtarmalıdır. Tərcümənin sonunda tərcüməçinin imzası olur. Bu halda notarius əvvəl tərcüməçinin imzasının həqiqiliyini, sonra isə sənədi təsdiq edir. Təsdiq qeydləri sənədin və sənəddən tərcümənin mətnlərinin sonunda ifadə olunur. [248]

135. Tərcümə sənədin əslindən ayrı vərəqdə də verilə bilər. Bu halda tərcümə sənədin əslinə və ya notariat qaydasında təsdiqlənmiş surətinə əlavə olunur, qaytanla ona tikilir və notariusun imzası və şəxsi gerbli möhürü ilə təsdiq edilir. [249]

X fəsil
FAKTLARIN təsdİq edİlməsİ
Şəxsin sağ olması faktının təsdiq edilməsi
136. Notarius şəxsin xahişinə əsasən onun sağ olması faktını təsdiq edir.

14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların sağ olması faktı onların qanuni nümayəndələrinin (valideynlərinin, övladlığa götürənlərinin, qəyyumlarının) xahişi ilə təsdiq edilir, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların sağ olması faktı isə onların xahişi ilə qanuni nümayəndələrinin (valideynlərinin, övladlığa götürənlərinin, himayəçilərinin) razılığı ilə təsdiq edilir.

137. Şəxsin sağ olması faktı həm o, notariusa gəldikdə, həm də notarius bu faktı notariusun yerləşdiyi binadan kənarda təsdiq etdikdə müəyyən olunur.

138. Notarius maraqlı şəxslərə şəxsin sağ olması faktını təsdiq edən şəhadətnamə verməlidir.

Şəxsin müəyyən yerdə olması faktının təsdiq edilməsi
139. Notarius şəxsin xahişi ilə, onun müəyyən yerdə olması faktını təsdiq edir.

14 yaşı tamam olmayan yetkinlik yaşına çatmayanların müəyyən yerdə olması faktı onların qanuni nümayəndələrinin (valideynlərinin, övladlığa götürənlərinin, qəyyumlarının) xahişi ilə təsdiq edilir, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların müəyyən yerdə olması faktı isə onların xahişi ilə qanuni nümayəndələrinin (valideynlərinin, övladlığa götürənlərinin, himayəçilərinin) razılığı ilə təsdiq edilir.

140. Şəxsin müəyyən yerdə olması faktı həm o, notariusa gəldikdə, həm də notarius bu faktı notariusun yerləşdiyi binadan kənarda təsdiq etdikdə müəyyən olunur.

141. Notarius maraqlı şəxslərə şəxsin müəyyən yerdə olması faktını təsdiq edən şəhadətnamə verməlidir.

Şəxsin fotoşəkildəki şəxslə eyniliyinin təsdiq edilməsi
142. Notarius şəxsin xahişinə əsasən onun təqdim olunan fotoşəkildəki şəxslə eyniliyinə şübhə etmirsə, həmin halı təsdiq etməli və bu barədə həmin şəxsə şəhadətnamə verməlidir.

143. Fotoşəkil şəhadətnamənin verilən nüsxəsinin yuxarı sol küncünə yapışdırılır, notariusun imzası və şəxsi gerbli möhürü ilə təsdiq edilir. Həm də möhürün bir hissəsi fotoşəklin üzərinə, bir hissəsi isə şəhadətnaməyə düşməlidir.

144. Notarius fotoşəkildəki şəxslə şəxsin eyniliyinə şübhə edirsə, bu halı təsdiq etmədən ona məsələ üzrə məhkəməyə müraciət etmək hüququnu izah etməlidir.

Sənədin təqdim olunduğu vaxtın təsdiq edilməsi

145. Notarius ayrı-ayrı şəxslərin, idarə, müəssisə və təşkilatın ərizəsinə əsasən sənədin təqdim olunduğu vaxtı təsdiq etməlidir.

Bu notariat hərəkətinə ehtiyac o vaxt yaranır ki, ezam olunmuş şəxs ezam olunduğu təşkilata vaxtında gəlir, lakin həmin vaxt bu təşkilat ləğv edilmiş olur. Belə halda notarius ezamiyyə vərəqinin təqdim olunduğu vaxtı təsdiq edir.

Təqdim olunduğu vaxt təsdiq edilən sənədlərə müxtəlif növ ixtiraların təsviri, avtoreferatlar və s. aiddir.

146. Notarius sənədi təsdiq etmiş şəxsin şəxsiyyətini müəyyən edir.

Notariusa sənədin təqdim edildiyi vaxtın təsdiq edilməsinin təsdiq qeydi sənədin əslində və hökmən sənədi təqdim etmiş şəxs göstərilməklə qeyd edilir.

147. Əgər eyni vaxtda bir neçə sənəd təqdim edilərsə, təsdiq qeydi hər bir sənədə ayrılıqda qeyd edilir və dövlət rüsumu hər bir sənəd üçün ayrılıqda tutulur. Əgər bir sənəd bir neçə vərəqdə ifadə edilibsə, notarius bu sənədlərdə təsdiq qeydi apararkən onları qaytanlamalı, vərəqlərin sayını göstərməklə imza etməli və şəxsi gerbli möhürünü vurmalıdır.

Ayrı-ayrı şəxslərin, idarələrin, müəssisələrin və təşkilatların ərizələrinin və sənədlərinin verilməsi[250]

148. Notarius ayrı-ayrı şəxslərin, idarələrin, müəssisələrin və təşkilatların məzmunu qanuna zidd olmayan və özündə insanın şərəf və ləyaqətini ləkələyən məlumatları əks etdirməyən kağız və ya elektron daşıyıcıda olan ərizələrini və ya sənədlərini başqa şəxslərə, idarələrə, müəssisələr və təşkilatlara verir.[251]

149. Ərizələr və sənədlər kağız daşıyıcıda geri məlumat verilməsi şərtilə poçt vasitəsilə və ya imza etdirmək şərtilə şəxsən verilir. Göndərilən şəxsin elektron poçt ünvanı məlum olduqda, ərizəçinin xahişi ilə onun notariat qaydasında təsdiq edilmiş ərizəsi skan edilərək göndərilə bilər.[252]

Kağız daşıyıcıda təqdim olunan ərizələr və ya digər sənədlər notarius tərəfindən başqa şəxslərə, həmçinin texniki vasitələrdən istifadə etməklə informasiya sistemləri vasitəsilə də verilə bilər. Bu halda notarius kağız daşıyıcıda təqdim olunmuş ərizə və ya digər sənəd əsasında onun elektron nüsxəsini skan edilmiş formada və ya elektron məlumat şəklində "Elektron notariat" informasiya sistemində tərtib etməklə hazırlayır. Kağız daşıyıcıda olan ərizə və ya digər sənədlə hazırlanmış sənədin elektron nüsxəsinin eyniləşdirilməsi notariusun elektron imzası ilə təsdiq edilir.

Elektron formada təqdim olunan ərizələrin və ya digər sənədlərin məzmunu notarius tərəfindən hazırlanan kağız daşıyıcıya keçirilərək eyniləşdirilə bilər. Bu halda notarius ərizəni və ya digər sənədi göndərən şəxsin elektron imzasını "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun yoxlayır, onu kağız daşıyıcıda çap edərək imzası

və möhürü ilə təsdiq edir. Elektron ərizə və ya digər sənəd kağız daşıyıcıya keçirildikdən sonra bu hissənin birinci abzasında nəzərdə tutulmuş qaydada göndərilir.

150. Ərizələrin və ya digər sənədlərin başqasına verilməsi, habelə kağız və ya elektron daşıyıcıda olan ərizə və ya digər sənədlərin hazırlanmış elektron və kağız nüsxələri ilə eyniləşdirilməsi haqqında şəhadətnamə verilir.[253]

151. Ərizələrin verilməsi və ərizələrin verilməsinə dair şəhadətnamə verilməsi reyestrdə qeydə alınır.

## XI fəsil
## ÖHDƏLİYİN İCRA PREDMETİNİN SAXLANILMAĞA, PUL MƏBLƏĞLƏRİNİN, SƏNƏDLİ QİYMƏTLİ KAĞIZLARIN VƏ VƏSİYYƏTNAMƏLƏRİN DEPOZİTƏ QƏBUL EDİLMƏSİ[254]

152. Əgər kreditor icranın qəbulunu yubadırsa və onun olduğu yer məlum deyildirsə, borclu pulları və ya qiymətli kağızları kreditora verilməsi üçün notariusun depozit hesabına qoya bilər. Depozitə qoyma öhdəliyin kreditora icra edilməsinə bərabər tutulduğundan, borclu öz öhdəliyindən azad edilir.[255]

Pul məbləğlərini və sənədli qiymətli kağızları öhdəliyin icrası yerindəki notarius depozitə qəbul edir.

Notarius bu təlimatın 63-cü bəndində göstərilən vəsiyyətnamələri, habelə öhdəliyin icra predmetini saxlamaq üçün depozitə qəbul edir.[256]

153. Notarius pul məbləğlərini və sənədli qiymətli kağızları depozitə qəbul edərkən borcluya təklif edir ki, öz soyadını, adını, atasının adını (və ya təşkilatın adını) və ünvanını, pul məbləğləri və ya sənədli qiymətli kağızlar kimə verilmək üçün qoyulmuşsa, həmin şəxsin soyadını, adını, atasının adını və məlum olan son ünvanını, öhdəliyin hansı səbəblərə görə bilavasitə icra edilə bilmədiyini yazılı və ya şifahi bildirsin. Borclu həmçinin ödəniş barəsində əsasını və hesablaşmanı göstərə bilər. [257]

Notarius öhdəliyin predmetini (pul məbləğlərini, sənədli qiymətli kağızları) depozitə qəbul edərkən ödənişin əsaslarını, yəni kreditorun hüquqlarının və borclunun vəzifəsinin əmələ gəlməsi əsaslarını yoxlamır.

154. Notarius depozitə pul məbləğləri və ya sənədli qiymətli kağızlar qoyan şəxsə ödəniş haqqında sənəd verir. [258]

Borclunun xahişi ilə ödəniş haqqında qeyd borcu müəyyən edən təqdim olunmuş sənəddə də yazıla bilər.

155. Notarius pul məbləğlərinin və sənədli qiymətli kağızların daxil olması haqqında kreditora məlumat verir və kreditorun tələbi ilə bu pul məbləğini və ya sənədli qiymətli kağızları ona verir. [259]

Borclu kreditorun ünvanını göstərmirsə və bu ünvan notariusa məlum deyildirsə, borclu xəbərdar edilir ki, pulun və ya sənədli qiymətli kağızların ödənildiyi barədə kreditora məlumat vermək vəzifəsi borclunun öhdəsində qalır.

156. Pul məbləğləri notariusa poçtla və kredit idarəsindən daxil olmuşsa, daxil olmuş məbləğdən lazımi qədər dövlət rüsumu tutulur, qalan məbləğ isə depozitə qəbul edilir.

157. Pul məbləğlərinin və sənədli qiymətli kağızların onları depozitə (debitora) vermiş şəxsə qaytarılmasına yalnız xeyrinə haqq ödənilmiş şəxsin (kreditorun) yazılı razılığı ilə və ya məhkəmənin qərarına əsasən yol verilir. [260]

158. Depozit məbləğlərinin notariusun hesabında saxlanması aşağıdakı müddətlərdə məhdudlaşdırılır:

fiziki şəxslərə verilməli olan depozit məbləğləri üç il saxlanılır;

- mülkiyyət formasından asılı olmayaraq, təsərrüfat cəmiyyətlərinə, qeyri-kommersiya hüquqi şəxslərə və büdcə təşkilatlarına verilməli olan depozit məbləğləri bir il saxlanılır;[261]

bu müddətlər kreditorun adına depozitə pul məbləğləri və ya sənədli qiymətli kağızlar verilməsi haqqında kreditora bildiriş göndərildiyi gündən hesablanır; [262]

büdcə təşkilatlarına verilməli depozit məbləğlərinin bu məbləğləri verildiyi ilin dekabr ayının 31-dək, həll edilməmiş məhkəmə işləri üzrə depozitə verilmiş məbləğlər isə məhkəmənin qətnamə çıxardığı ilin dekabr ayının 31-dək saxlanılır. [263]

Tələb olunmayan depozit məbləğləri həmin müddət keçdikdən sonra dövlət büdcəsi mədaxilinə keçirilir.

Tələb edilməmiş depozit məbləğləri göstərilən müddətlər keçdikdən sonra bir aydan gec olmayaraq dövlət büdcəsi mədaxilinə keçirilməlidir.

159. Notarius predmeti saxlamağa qəbul etdiyi barədə kreditora məlumat verir və predmeti ondan qəbul etməyi tələb edir.

Borclu saxlanmağa verdiyi predmetin kreditor tərəfindən qəbul edilənə qədər qaytarılmasını tələb edə bilər, bu şərtlə ki, lap əvvəldən o, qaytarmadan imtina etməmiş olsun. Borclu predmetin qaytarılmasını tələb edirsə, saxlama baş tutmamış sayılır.

Kreditor predmetdən imtina edirsə və ya Azərbaycan Respublikası Mülki Məcəlləsinin 369-cu maddəsi ilə müəyyən edilmiş müddət qurtarmışsa, borclu təhvil verdiyi predmeti geri götürə bilər.

Borclu predmeti geri götürürsə, saxlama xərcləri onun üzərinə düşür.

Borclu predmeti geri götürülmə üçün zəruri olan müddət ərzində almazsa, o, dövlət əmlakı sayılır.

160. Depozit məbləğlərinin uçotu Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi qaydada aparılır.

160-1. Daşınmaz əmlak üzərində sərəncam verilməsi ilə bağlı notariat qaydasında təsdiq edilən müqavilələr üzrə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş pul məbləğindən (beş min beş yüz manatdan) artıq vəsaitin tərəflərdən birinin digərinə ödəməsi notariusun bankda açdığı depozit hesabı vasitəsi ilə həyata keçirilməlidir. Notarius belə müqavilələri pul məbləği bankda açılmış depozit hesabına ödənildikdə təsdiq edir.[264]

Daşınmaz əmlaka və daşınar əmlakın rəsmi reyestrlərində qeydə alınan əmlaka sərəncam verilməsi, habelə pul bağışlanılması, beh və borc verilməsi, eləcə də ilkin müqavilə üzrə ödənilən məbləğlə bağlı müqavilələr notariat qaydasında təsdiq edilərkən, pul vəsaitinin tərəflərdən birinin digərinə verməsi və qaytarması notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirilməlidir.[265]

Notarius belə müqavilələri pul məbləğinin bankda açılmış depozit hesabına ödənilməsi barədə qəbz təqdim edildikdən sonra təsdiq edir.[266]

Tərəflər müqavilə ilə bağlı məbləğin depozit hesabı vasitəsilə ödənilməsi barədə ərizə ilə müraciət etdikdən sonra notarius, təsdiq etdiyi əqdin məzmununun qanuna və tərəflərin həqiqi niyyətinə uyğunluğunu yoxlayır, habelə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 42-1-ci maddəsində nəzərdə tutulmuş tədbirləri görür və ərizəni daxil olan sənədlərin qeydə alınması kitabında qeydə alır.

Notariusun depozit hesabı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə bank tərəfindən müəyyən edilmiş xidmət haqqını vəsaiti qəbul edəcək şəxs və ya onun nümayəndəsi ödəyir.[267]

Razılaşdırılmış pul məbləğinin depozit hesabına mədaxil edilməsi üçün alıcıya banka ünvanlanmış məktub verir və ödəniş tapşırığına əsasən depozit hesabı üzrə aparılmış əməliyyatlar barədə gündəlik bank çıxarışı notariusa çatdırıldıqdan, habelə alıcı tərəfindən həmin vəsaitin hesabına ödənilməsi barədə bank qəbzi təqdim etdikdən sonra müqavilə təsdiq edilir.[268]

Notariusun icra qeydi əsasında ipoteka predmetinin satılmasından əldə olunan gəlir "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bölüşdürülür.[269]

Pulu ödəmiş şəxsin xahişi ilə bu barədə qəbzin surəti təsdiq edilərək ona verilir.

Müqavilə üzrə pul məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş aşağı həddən az olduğu hallarda da notarius müvafiq notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxsin xahişi ilə həmin məbləğin depozit hesabı vasitəsilə ödənilməsi barədə tədbir görə bilər.

Müqavilə rəsmiləşdirildikdə notarius depozit hesabına mədaxil edilmiş müqavilə məbləğinin götürülməsi üçün satıcıya müştərinin istəyindən asılı olaraq pul çeki və ya hesablaşma çeki (çek kitabçaları ilə notariusu müvafiq bank təmin edir) verir. Göstərilən işin düzgün və dəqiq qurulması üçün notariat ofisində depozit hesaba mədaxil və məxaric edilən məbləğin, həmçinin onun qalığının uçotu aparılır.

Hər ay başa çatdıqda növbəti ayın birinci iş günü təsdiq edilmiş müqavilələr üzrə depozit hesabı vasitəsilə ödənilmiş məbləğlər barədə bank hesabından çıxarışla üzləşmə aparılır və rübdən sonra ayın 5-dək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə məlumat verilir.

Depozit hesabının açılması Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmalıdır.[270]

Fiziki şəxslər tərəfindən torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsinə görə hesablanmış sadələşdirilmiş verginin depozit hesabından dövlət büdcəsinə mədaxil edilməsi üçün notarius təqdim edən şəxsə ödəniş tapşırığı verir. Satıcı həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi barədə bank qəbzini notariusa təqdim etdikdən sonra təsdiq olunmuş müqavilə tərəflərə verilir. Həmin qəbzin əsli notariat işində saxlanılır, surəti notarius tərəfindən satıcıya verilir. [271]

Müqavilə üzrə pul məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş aşağı həddən az olduğu hallarda, habelə bağışlama, dəyişdirmə, renta (daşınmaz əmlak bağışlandıqda) müqavilələri üzrə fiziki şəxslər tərəfindən torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı müqavilələrin rəsmiləşdirilməsi zamanı hesablanmış sadələşdirilmiş verginin depozit hesabına mədaxil edilməsi üçün notarius təqdim edən şəxsə banka ünvanlanmış məktub verir və hesablanmış sadələşdirilmiş vergi notariusun təqdim edən şəxsə verdiyi ödəniş tapşırığı əsasında depozit hesabı vasitəsilə dövlət büdcəsinə ödənilir. Müqavilənin rəsmiləşdirilməsi vaxtı bankın qeyri-iş gününə təsadüf etdikdə, notarius hesablanmış sadələşdirilmiş vergini növbəti bank günündən gec olmayaraq dövlət büdcəsinə ödənilməsi üçün nağd şəkildə tutmaqla, sadələşdirilmiş verginin tutulmasını təsdiq edən sənədi (qəbzi) təqdim edən şəxsə, müqaviləni isə hər iki tərəfə verir. [272]

Hər ay başa çatdıqda, növbəti ayın birinci iş günü təsdiq edilmiş müqavilələr üzrə dövlət büdcəsinə ödənilmiş vergi barədə bank hesabından çıxarışla üzləşmə aparılır və rübdən sonra ayın 5-dək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə məlumat verilir.[273]

160-2. Notarius bu Təlimatın 63-cü hissəsində göstərilən vəsiyyətnamələri depozitə notariat ofisində qəbul edir və həmin ofisdə olan seyflərdə saxlayır.[274]

Notarius vəsiyyətnaməni depozitə qəbul edərkən, vəsiyyətnaməni təqdim edən şəxsin şəxsiyyətini müəyyən edir və onun fəaliyyət qabiliyyətini yoxlayır.

Notarius vəsiyyətnamənin qoyulduğu zərfin vəsiyyətnaməni təqdim edən şəxs tərəfindən etibarlı bağlandığını və sonradan açılmadığını təsdiq etmək üçün zərfin bağlanan hissəsinə möhür vurur. Əgər zərf üzərində qeydlərin aparılması üçün kiçikdirsə və ya yararsızdırsa, notarius vəsiyyətnaməni təqdim edən şəxsə zərfi dəyişdirməsini təklif edir. Notarius zərfin üzərində zərfdəki vəsiyyətnaməni onu təqdim edən şəxsin öz əli ilə yazıb imzalaması və vəsiyyətnamənin hansı tarixdə və saatda depozitə qəbul olunması barədə qeyd yazır. Qeyd notariusun imzası və şəxsi gerbli möhürü ilə təsdiq edilir.

Notarius vəsiyyətnaməni depozitə qəbul etdikdən sonra bu barədə iki nüsxədə qəbz tərtib edərək onun bir nüsxəsini vəsiyyətnaməni təqdim edən şəxsə verir, digər nüsxəsini isə bunun üçün xüsusi ayrılmış qovluqda saxlayır. Qəbzdə vəsiyyətnaməni təqdim edən şəxsin, vəsiyyətnamə notariusa təqdim edilərkən iştirak edən üç şəxsin adı, soyadı, atasının adı, yaşadığı ünvan, depozitin yeri, vəsiyyətnamənin depozitə qəbul olunduğu tarix və saat qeyd edilir. Vəsiyyətnaməni depozitə qəbul edən notarius qəbzi imzalamalı və ona şəxsi gerbli möhürünü vurmalıdır. Qəbz itdikdə vəsiyyətnaməni depozitə qoyan şəxsin, həmin şəxs öldükdən sonra isə onun vərəsəsinin müraciəti əsasında qəbzin notariat qaydada təsdiq olunmuş surəti verilir.

Depozitin yeri dəyişdirildikdə, notarius bu barədə digər şəxslərə məlumatın çatmasını istisna edən üsullarla vəsiyyətnaməni təqdim edən şəxsə məlumat verir.

Notariusun fəaliyyətinə xitam verildikdə, depozitə qoyulmuş vəsiyyətnamələr həmin ərazi üzrə təyin edilmiş notarius tərəfindən saxlanılır.

Notarius depozitə qoyulmuş vəsiyyətnaməni onu təqdim edən şəxsin notariat qaydasında təsdiq edilmiş ərizəsinə əsasən geri qaytarır.

Vəsiyyətnaməni depozitə qoyan şəxs öldükdən sonra qəbzi təqdim edən şəxs ərizə ilə müraciət etdikdə, notarius işlədiyi və fəaliyyət göstərdiyi inzibati ərazi vahidi üzrə digər notariat ofisinə mirasın qəbul edilməsi və ya vərəsəlik şəhadətnaməsinin alınması barədə ərizənin verilib-verilməməsini yoxlayır. Digər notariat ofisinə mirasın qəbul edilməsi və ya vərəsəlik

şəhadətnaməsinin alınması barədə ərizə verilmişdirsə, notarius 2 (iki) iş günü ərzində vəsiyyətnaməni mirasın açıldığı yerin notariusuna təqdim edir və ya "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi (məktubu) ilə göndərir və şəxsə bununla bağlı yazılı məlumat verir. Mirasın açıldığı yerin notariusu vəsiyyətnamə saxlayan notariusla eyni şəhərdə (rayonda) fəaliyyət göstərirsə, vəsiyyətnamə onu saxlayan notarius tərəfindən mirasın açıldığı yerin notariusuna imza etdirməklə şəxsən təqdim edilməlidir.

Mirasın qəbul edilməsi və ya vərəsəlik şəhadətnaməsinin alınması barədə ərizə verilməyibsə, notarius qəbzi təqdim edən şəxsə həmin ərizənin verilməsi qaydasını izah edir. Mirasın qəbul edilməsi və ya vərəsəlik şəhadətnaməsinin alınması barədə ərizənin verilməsi haqqında məlumat notariat ofisinə daxil olduqdan sonra notarius vəsiyyətnaməni mirasın açıldığı yerin notariusuna, mirasın açıldığı yer Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda, həmin yer üzrə Azərbaycan Respublikasının konsulluğuna göndərilməsi üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə, bu Təlimatın 160-2-ci hissəsinin səkkizinci abzasında nəzərdə tutulmuş qaydada təqdim edir və ya göndərir və şəxsə bununla bağlı yazılı məlumat verir.

Mirasın açıldığı yerin notariusu gün təyin edərək, maraqlı şəxsləri vəsiyyətnamənin məzmunu ilə tanış edir. Notarius maraqlı şəxsləri vəsiyyətnamənin məzmunu ilə tanış edərkən, vəsiyyətnamənin surətlərini onlara paylayır və vəsiyyətnamənin mətnini ucadan oxuyur. Vəsiyyətnamənin məzmunu bu barədə notarius tərəfindən tərtib edilən müvafiq protokolda qeyd edilir. Vəsiyyətnamənin qoyulduğu zərf açılmazdan əvvəl zərfə vurulan möhürün salamatlığının yoxlanılması barədə məlumat da protokolda qeyd edilir. Protokol notarius və vəsiyyətnamənin məzmunu ilə tanış olan maraqlı şəxslər tərəfindən imzalanır. Vəsiyyətnamənin məzmunu ilə tanış olan maraqlı şəxs protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. Vəsiyyətnamənin məzmunu ilə tanış olan maraqlı şəxsin protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququ vardır. Onun bu izahatı və mülahizələri protokola əlavə edilir. Protokolun notariat qaydasında təsdiq edilmiş surətləri vəsiyyətnamənin məzmunu ilə tanış olan maraqlı şəxslərə verilir, vəsiyyətnamənin əsli isə notariusda saxlanılır.

Vəsiyyətnamə mirasın açıldığı yerin notariusunda depozitə qoyulubsa, bu Təlimatın 160-2-ci hissəsinin onuncu abzasında nəzərdə tutulmuş hərəkətlər həmin notarius tərəfindən həyata keçirilir.

Vəsiyyətnamənin depozitə qəbul olunması, saxlandığı depozitin yeri, vəsiyyətnaməni təqdim edən şəxs tərəfindən onun geri götürülməsi, vəsiyyətnamənin mirasın açıldığı yerin notariusuna göndərilməsi, vəsiyyətnamənin məzmunu ilə maraqlı şəxslərin tanış edilməsi barədə məlumatlar notariat reyestrində qeyd edilir.

## XII fəsil
## İcra qeydlərİnİn aparılması

161. Borclunun olduğu yer üzrə notarius borcludan pul məbləğlərini tutmaq və ya əmlakı (ipoteka predmeti istisna olmaqla) tələb edib almaq və ya bunun əvəzinə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 529.8-ci maddəsinə əsasən öhdəliyin icrası əvəzinə razılaşdırılmış peşman haqqını almaq üçün "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinin tələblərinə uyğun olaraq tələbkar tərəfindən borcluya bildiriş göndərildikdə və öhdəlik bildirişin verildiyi müddətdə icra edilmədikdə, borcu müəyyən edən sənədlərdə 1 (bir) iş günü müddətində icra qeydi aparır və icra olunması üçün "Elektron notariat" informasiya sistemi vasitəsilə "Elektron icra" informasiya sisteminə göndərir.[275]

Notarius tərəfindən borcun mübahisəsizliyi tələbkarın tələbinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı"nda nəzərdə tutulmuş sənədlərlə təsdiq olunması və borclunun həmin tələbdən irəli gələn öhdəliyi icra etməməsinin yoxlanılması ilə müəyyən edilir.

Tələbkar icra qeydinin aparılması üçün notariat ofisinə müraciət etdiyi gündən ən azı 20 gün əvvəl sifarişli poçt vasitəsilə borcluya tələbin icra edilmədiyi halda, icra qeydinin aparılacağı barədə müəyyən edilmiş formada bildiriş göndərməlidir.

İcra qeydinin aparılması üçün dövlət orqanları, habelə hüquqi və fiziki şəxslər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron imzadan istifadə etməklə, "Elektron notariat" informasiya sistemi vasitəsilə elektron formada müraciət edirlər. Fiziki şəxslər yazılı qaydada da notariat ofislərinə müraciət edə bilərlər.

Dövlət orqanları, habelə hüquqi və fiziki şəxslər "Elektron notariat" informasiya sistemində yaradılacaq fərdi kabinetləri vasitəsilə elektron müraciət əsasında icra qeydinin aparılması barədə müraciət edirlər.

Fərdi kabineti olan korporativ məlumat mübadiləsinin istifadəçiləri "Elektron notariat" informasiya sistemində yerləşdirilmiş forma üzrə tərtib etdikləri ərizə-məlumatı həmin informasiya sistemi vasitəsilə icra qeydinin aparılması üçün müvafiq qaydada göndərirlər.

Digər hüquqi, fiziki şəxslər və dövlət orqanları icra qeydinin aparılması üçün bu Təlimatla müəyyən edilən sənədləri skan edərək və ya elektron sənəd formasında ərizəyə qoşma şəklində əlavə edərək, "Elektron notariat" informasiya sistemində olan fərdi kabinetləri vasitəsilə icra qeydinin aparılması üçün müvafiq qaydada göndərirlər.

"Elektron notariat" informasiya sistemində Fərdi kabinet formalaşdırılması üçün fiziki şəxsin şəxsiyyəti təsdiq edən sənədi, hüquqi şəxsin isə hüquq qabiliyyəti - qurumun adı və hüquqi ünvanı; təşkilati-hüquqi forması; kommersiya qurumları və publik hüquqi şəxslər üçün vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, qeyri-kommersiya qurumunun qeydiyyat nömrəsi; qurumun hər bir təsisçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri, təsisçi hüquqi şəxsdirsə, onun adı, hüquqi ünvanı və qeydiyyatı haqqında; qurumun hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yerini müəyyən edən məlumatları, dövlət orqanının isə əsanaməsinə (nizamnaməsinə) uyğun tam adı tələb olunur. Fiziki və ya hüquqi şəxslər barədə qeyd olunan məlumatlar sırasında "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron imzanın alınması zamanı təqdim edilməli məlumatlar tələb edilmir. Digər məlumatlar isə "Elektron Hökumət İnformasiya Sistemi"nə inteqrasiya olunan qurumların informasiya sistemindən əldə edilməsi mümkün olmadıqda tələb edilir.

Bildirişin surəti, onun borcluya çatdırıldığını təsdiq edən sənəd, borclunun cavab məktubu (cavab məktubu olduğu halda) və borcu müəyyən edən sənədlər və ya bununla bağlı məlumatlar (korporativ məlumat mübadiləsinin istifadəçiləri üçün) icra qeydinin aparılması ilə bağlı ərizəyə və ya məlumata əlavə olunur.[276]

Tələbkar tərəfindən icra qeydinin aparılacağı barədə bildiriş borcu müəyyən edən sənədlərə və ya borclunun məlumatına (olduğu halda) əsasən tələbkara məlum olan ünvana "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sifarişli poçt göndərişi (məktubu) və

elektron üsulla göndərilir. Poçt göndərişi vasitəsilə ölkə daxilində göndərilmiş rəsmi bildiriş onun poçta təqdim edildiyi gündən 5 (beş) gün keçdikdən sonra, elektron üsulla göndərilmiş rəsmi bildiriş isə göndərildiyi gündən 3 (üç) gün keçdikdən sonra borclu şəxsə təqdim olunmuş sayılır. Borclunun yaşadığı (olduğu) ünvanda olmaması bildirişin borcluya çatdırıldığını təsdiq edən sənəddə qeyd olunmalıdır.

Fərdi kabinet istifadəçiləri tərəfindən təqdim edilən məlumat və ya sənədlərin həqiqiliyi ilə bağlı hər hansı şübhələrin yarandığı hallarda notarius onlardan həmin sənədlərin əsillərinin təqdim edilməsini tələb edir.

İcra qeydinin aparılması üçün tələbkar borclunun olduğu yer üzrə notariat ofisinə müraciət etdikdə, notarius depozit hesabları vasitəsilə həmin borcun qaytarılıb-qaytarılmamasını yoxlayır. Bu abzasın birinci cümləsi borcun depozit hesabı vasitəsilə verildiyi hallara şamil edilir.[277]

İcra qeydinin aparılması üçün "Elektron notariat" informasiya sistemi vasitəsilə elektron qaydada təqdim edilmiş sənədlərin və ya məlumatların qanunvericiliyin tələblərinə uyğunluğu və borcun mübahisəsizliyi notarius tərəfindən müəyyən edildikdən sonra informasiya sistemi vasitəsilə icra qeydi aparılaraq müvafiq sənəd "Elektron notariat" informasiya sistemi ilə "Elektron icra" informasiya sisteminə göndərilir. Tələbkar və ya borclunun müraciəti əsasında icra qeydinin informasiya sistemində saxlanılan nüsxəsi notariat qaydasında təsdiq edilməklə təqdim edilir.

İpoteka predmetinə tutmanın yönəldilməsi barədə bildirişin göndərilməsi qaydası və bu bildirişdən sonra notarius tərəfindən icra qeydinin aparılması müddəti bu Təlimatın 169-1-ci hissəsində müəyyən edilmiş qaydada həyata keçirilir.

162. İcra qeydi aşağıdakı hallarda aparılır:

1) əgər təqdim olunan sənədlər borcun mübahisəsiz olduğunu və ya borclunun tələbkar qarşısında digər məsuliyyətini təsdiq edirsə;[278]

2) tələb etmək hüququnun yarandığı gündən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 373-cü maddəsi ilə müəyyən edilmiş müvafiq iddia müddətləri keçməmişdirsə.

İcra qeydinin aparılacağı müddətlər tələbkarda borcu məcburi qaydada tutmaq hüququnun əmələ gəldiyi gündən hesablanır.

Müqavilənin hansı müddətə bağlanılmasından asılı olmayaraq, əgər müqavilədə öhdəliyin hissə-hissə icrası konkret müddətlər üzrə müəyyən edilmişdirsə, öhdəliyin icrasının gecikdirilməsi ödənilməmiş hissə üzrə icra qeydinin aparılması üçün əsasdır.

163. Notarius icra qeydi apararkən borcun tutulmasını əsaslandırmaq üçün borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin siyahısında göstərilmiş sənədlərin təqdim olunmasını tələb edir.[279]

164. İcra qeydləri aşağıdakı məlumatları özündə əks etdirməlidir:

icra qeydi aparan notariusun vəzifəsi, soyadı, adı və atasının adı;

tələbkarın adı və ünvanı;

borclunun adı və ünvanı;

ödəniləsi məbləğ və tələb olunub alınası əşyalar, çatası faiz və dəbbə pulu (olduğu təqdirdə);[280]

haqqın miqdarı, tələbkarın ödəyəcəyi və ya borcludan tutulmalı olan dövlət rüsumunun məbləği;[281]

icra qeydinin aparıldığı tarix (il, ay, gün);

icra qeydinin reyestrdə qeyd olunduğu nömrə;

icra qeydi aparan notariusun imzası və şəxsi gerbli möhürü.

165. İcra qeydi borcu müəyyən edən sənədin əslində qeyd olunur.

İcra qeydi borcu müəyyən edən sənəddən ayrılıqda aparılmır.

Öhdəliyin icrasının təmin edilməsi üsulu kimi ipoteka (girov) seçildikdə, icra qeydi ipoteka (girov) müqaviləsində aparılır.[282]

Borcu müəyyən edən sənədə əsasən borcu hissə-hissə tutmaq lazım olduqda, hər bir sənəd üzrə icra qeydi borc sənədinin surətində və ya borclunun şəxsi hesabından çıxarışda qeyd oluna bilər və həmin hallarda borcu müəyyən edən sənəddə tutulmalı olan məbləğ notariat reyestrində qeydə alınma tarixi və nömrəsi göstərilməklə, aparılmış icra qeydi haqqında qeyd yazılır. [283]

166. Bu Təlimatın 31-ci hissəsinin dördüncü və beşinci abzasları nəzərə alınmaqla borcu müəyyən edən sənədin surəti, yaxud borclunun şəxsi hesabından çıxarış və icra qeydinin surəti notariusda saxlanılır. "Elektron notariat" informasiya sistemi vasitəsilə elektron qaydada müraciət zamanı borcu müəyyən edən sənəd, yaxud borclunun şəxsi hesabından çıxarış elektron formada olan notariat reyestrində, icra qeydi isə rəsmiləşdirildikdən sonra notariat işində saxlanılır. [284]

Eyni öhdəlik üzrə sonralar hər dəfə icra qeydi aparıldıqda, borcu müəyyən edən sənədin surətinin təkrar təqdim olunması tələb edilmir. Bu hallarda şəxsi hesabdan çıxarışın iki nüsxəsini və öhdəliyin əslini təqdim etməklə kifayətlənmək lazımdır. Çıxarışın, üzərində icra qeydi olan bir nüsxəsi və öhdəliyin əsli tələbkarlara qaytarılır, ikinci nüsxə isə notariusda saxlanılır.

167. Borcu müəyyən edən vahid formalı (məsələn, bank borcu) sənədlər üzrə bir neçə icra qeydi aparıldıqda, notariusda borcu (borclulardan biri üçün) müəyyən edən sənədin (Bu Təlimatın 31-ci hissəsinin dördüncü və beşinci abzasları nəzərə alınmaqla) bir surəti və borclarının tutulması üçün icra qeydləri aparılmış borcluların siyahısı (borcluların tam adı və ünvanı, ödəmə müddətləri, icra qeydi üzrə tələbin məbləği, lazım gəldikdə isə digər məlumatlar göstərilməklə) saxlanıla bilər. [285]

168. İcra qeydi aparmaq üçün borcu müəyyən edən sənəddən əlavə, borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin siyahısında göstərilən digər sənədləri də təqdim etmək zəruridirsə, həmin sənədlər icra qeydinə dair notariat işində və ya elektron formada olan notariat reyestrində əlavə olunmur, notariusda saxlanılır. [286]

169. Çeklərdə icra qeydləri ödəyicinin və ya bank idarəsinin olduğu yer üzrə aparılır. İcra qeydləri notarius tərəfindən yalnız o zaman aparılır ki, çekin ödənişə təqdim edildiyi gün göstərilməklə və ödənilmədiyi barədə ödəyicinin və ya bank idarəsinin çek üzərində qeydi olsun. İcra qeydi aparılarkən çekin ödənişə vaxtında təqdim olunması yoxlanılır.

İcra qeydi ödəyicinin (bankın) çeki ödəməkdən imtina etdiyi gündən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsi ilə müəyyən edilmiş müddətlərdə verilir.

İcra qeydi çek sahibinin arzusu ilə həm çekverən əleyhinə, həm də çek üzrə məsuliyyət daşıyan qeyd yazanlar əleyhinə aparılır.

Notarius icra qeydi aparılması haqqında reyestrdə qeyd edir, çekin ödənilməməsi və icra qeydi verilməsi haqqında çekverənə məlumat göndərir.

İcra qeydi üzrə ödəniş Azərbaycan Respublikasının qanunvericiliyi və məhkəmə qətnamələrinin icrası üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

169-1. İpoteka predmetinə tutma yönəldilməsi barədə icra qeydi "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı hallarda aparılır:[287]

a) ipoteka saxlayanın tələbinin ipoteka predmeti hesabına yönəldilməsi barədə şərtlər ipoteka müqaviləsində nəzərdə tutulduqda;

b) ipoteka saxlayanın hüquqları ipoteka kağızı ilə təsdiq edildikdə;

c) ipoteka müqaviləsi dövlət qeydiyyatına və Qanunda nəzərdə tutulmuş hallarda əlavə dövlət qeydiyyatına alındıqda;

ç) ipoteka kağızı qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına, ipoteka kağızı üzrə hüquqlar başqa şəxsə verildikdə isə verilmə qeydi ipoteka kağızının dövlət qeydiyyatına alındığı müvafiq reyestrdə əlavə dövlət qeydiyyatına alındıqda;

d) ipoteka saxlayan tərəfindən "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 36.2-ci maddəsində nəzərdə tutulan məlumatı əks etdirən bildiriş ipoteka qoyanın və ipoteka müqaviləsində qeyd olunan digər şəxsin ünvanına, bildirişin surəti isə ona məlum olan sonrakı ipoteka saxlayanlara, o cümlədən birgə ipoteka saxlayanlara, habelə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən yüklülük sahiblərinə sifarişli poçt göndərişi (məktubu) və elektron üsulla göndərildikdə və bildiriş müvafiq reyestrdə qeydə alındıqda;[288]

e) ipoteka qoyan, ipoteka predmetinin başqa ipoteka saxlayanları və ya ipoteka predmeti üzərində hüququ olan hər hansı başqa tərəf tutmanın yönəldilməsi haqqında bildirişi aldıqdan sonra 21 təqvim günü müddətində ipotekaya tutmanın yönəldilməsi barədə məhkəməyə şikayət etmədikdə;

ə) ipoteka qoyan bildirişi aldıqdan sonra 21 təqvim günü müddətində əsas öhdəliyi icra etmədikdə.

İpoteka müqaviləsində ipoteka predmetinin hərracda satılması üsulu müəyyən edildikdə, icra qeydi bu Təlimatın 161-ci hissəsinə (üçüncü abzası istisna olmaqla) uyğun olaraq aparılır.

170. İcra qeydini təqdim etmək üçün buraxılmış müddətin bərpası Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

170-1. İcra qeydinin aparılması ilə əlaqədar notariusa müraciət edildikdə, notarius icra qeydinin aparıldığı əqd üzrə öhdəliklərin icra intizamını mənfi xarakterizə edən neqativ məlumatı

bu Təlimatın 7-ci hissəsinin on altıncı abzasının məqsədləri üçün “Elektron notariat” informasiya sisteminə daxil edir.[289]

XIII fəsil
Veksellərə protestlərİn tərtİb edİlməsİ, çeklərİn ödənİlmək üçün təqdİm olunması və çeklərİn ödənİlmədİyİnİn təsdİq edİlməsİ

171. Notariuslar Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1032-1033-cü maddələrinə müvafiq olaraq ödənilməmiş, aksept olunmamış və ya aksept tarixi qoyulmamış veksellərə protest verirlər.

172. Ödənilməmiş veksellərə protestlər ödəyicinin olduğu yer və ya ödəniş yeri (veksel) verənin yaşayış yerinə nisbətən başqa ödəniş yeri qeyd olunmuş veksellər, yəni üçüncü şəxsin yanında ödənilməli olan veksellər) üzrə, aksept olunmamış və ya aksept tarixi qoyulmamış veksellərə protestlər isə ödəyicinin olduğu yer üzrə notarius tərəfindən aparılır.

173. Ödənilməmiş veksellər protest verilməsi üçün veksel üzrə ödəniş tarixi keçdikdən sonra, ertəsi gün də notarius tərəfindən qəbul edilə bilər.

174. Protest notarius tərəfindən tərtib edilməlidir.

Protestdə aşağıdakı məlumatlar göstərilməlidir:

protest verən şəxsin adı;

protestin yönəldiyi şəxsin adı;

protestin yönəldiyi şəxsdən ödənişi həyata keçirmək və ya aksepti icra etmək barəsində xahişlər edilməsinin nəticəsiz qaldığı və ya onu yerində tapmağın mümkün olmadığı və ya protestin yönəldiyi şəxsin yaşayış yerini və ya olduğu yeri müəyyənləşdirməyin mümkün olmadığı;

nəticəsiz qalmış xahişin verildiyi və ya cəhdin edildiyi yer və gün.

175. Veksellərə protest Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1032.2-ci maddəsi ilə müəyyən edilmiş müddətlərdə verilir.

176. Notarius protesti imzalayır və köçürmə vekselinin arxa tərəfinə və ya ona qoşulmuş vərəqə şəxsi gerbli möhür vuraraq imzalayır.

177. Əgər köçürmə vekselindən irəli gələn bir neçə tələb bir neçə şəxsə və ya eyni şəxsə qarşı irəli sürülməlidirsə, çoxsaylı tələblər üçün bir protest tərtib edilir.

Notarius protestin bir surətini özündə saxlamalıdır.

Bu surətdə aşağıdakılar göstərilməlidir:

veksel məbləği;

ödəniş müddəti;

protestin tərtib etdiyi yer və tarix;

veksel verənin, ödəyicinin adı, habelə ödəniş kimə və ya kimin sərəncamı ilə həyata keçirilməlidirsə, onun adı.

178. Vekselin protest üçün qəbul edildiyi gün notarius ödəyiciyə və ya domisilianta (üçüncü şəxsin yanında ödənilməli olan vekseli ödəmiş şəxsə) ödəniş (və ya aksept) haqqında tələb verir.

Ödəyici (domisiliant) vekseli ödəyərsə, notarius protest verməyərək vekseli onu ödəyən şəxsə qaytarır və vekselin özündə ödənişin və digər çatası məbləğlərin alınması haqqında müəyyən olunmuş formada qeyd yazır.

Ödəyici köçürmə vekselində aksept haqqında qeyd etmişsə, veksel protest verilmədən veksel sahibinə qaytarılır.

179. Vekseli ödəmək və ya aksept etmək barəsində ödəyicidən (domisiliantdan) imtina cavabı alındıqda və ya o, notariat ofisinə gəlmədikdə, notarius ödənilməyə və ya aksept edilməməyə protest haqqında müəyyən olunmuş formada akt tərtib edir və reyestrdə müvafiq qeyd edir, habelə vekselin özündə ödənilməməyə və ya aksept olunmamağa protest haqqında qeyd yazır.

180. Ödəyicinin yeri məlum deyildirsə, vekselə protest vekselin ödənilməsi və ya aksept edilməsi haqqında tələb verilmədən, protest haqqında aktda və reyestrdə qeyd yazılmaqla verilir.

181. Barəsində protest verilmiş veksel sahibinə və ya onun vəkil etdiyi şəxsə verilir.

182. Ödəyicinin olduğu yerdəki notarius çekin verildiyi gündən on gün keçdikdən sonra, xarici çeklər üzrə isə çekin verildiyi gündən altı ay keçdikdən sonra, lakin bu müddətdən sonra gələn gün saat 12-dən gec olmayaraq təqdim edilmiş çekləri ödənilməyə verilmək üçün qəbul edir.

Notarius elə həmin gün çeki ödəniş üçün banka verir. Çek ödənilmədikdə, notarius çek üzərində müəyyən olunmuş formada qeyd yazmaqla çekin ödənilmədiyini təsdiq edir və bunu reyestrdə qeyd edir.

Notarius çek üzərində qeyd yazmaqla yanaşı, çek verənə onun çekinin bank tərəfindən ödənilmədiyi və çek üzərində qeyd yazıldığı barəsində xəbərdarlıq məktubu göndərir.

Çek ödənilmədikdə, notarius çek sahibinin xahişi ilə bu Təlimatın 169-cu bəndində göstərilən qaydalar üzrə icra qeydi aparır.

## XIV fəsil
## Dənİz protestlərİnİn tərtİb edİlməsİ

183. Notarius gəmi sahibinin hüquqlarını və qanuni mənafeyini qorumaq üçün sübutların təmin olunması məqsədi ilə, səfər dövründə və ya gəminin dayandığı dövrdə baş verən, gəmi sahibinə əmlak tələbləri verilməsi üçün əsas ola biləcək hadisə haqqında gəmi kapitanının ərizəsini qəbul edir.

184. Dəniz protesti haqqında ərizədə hadisənin təsviri və kapitana etibar olunmuş əmlakın qorunmasını təmin etmək üçün kapitanın gördüyü tədbirlər göstərilməlidir.

Gəmi kapitanı dəniz protesti haqqında ərizədə şərh olunmuş halların təsdiq edilməsi üçün SSRİ Dəniz Ticarət Gəmiçiliyi Məcəlləsinin 290-cı maddəsinə müvafiq surətdə ərizə ilə birlikdə, yaxud gəminin Azərbaycan Respublikası limanına daxil olduğu vaxtdan və ya hadisə limanda baş vermişsə, hadisə baş verdiyi vaxtdan ən çoxu yeddi gün müddətində gəmi jurnalını və gəmi jurnalından kapitanın təsdiq etdiyi çıxarışı nəzərdən keçirmək üçün notariusa verməlidir.

185. Dəniz protesti haqqında ərizə SSRİ Dəniz Ticarət Gəmiçiliyi Məcəlləsinin 288-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikası limanında notariusa gəminin limana gəldiyi vaxtdan iyirmi dörd saat ərzində verilməlidir. Dəniz protesti verilməsi zərurətini doğuran hadisə limanda baş vermişsə, protest hadisə vaxtından iyirmi dörd saat ərzində verilməlidir.

Protesti müəyyən edilmiş müddətdə vermək mümkün olmadıqda, bunun səbəbləri dəniz protesti haqqında ərizədə göstərilməlidir.

186. Notarius gəmi kapitanın ərizəsinə, gəmi jurnalının məlumatına, habelə kapitanın özünün və imkan daxilində gəmi heyətindən olan azı dörd şahidin, o cümlədən, komanda heyətindən olan iki şahidin dindirilməsinə əsasən müəyyən olunmuş formada dəniz protesti haqqında akt tərtib edir, onu öz imzası və şəxsi gerbli möhürü ilə təsdiq edir. Aktın bir nüsxəsi gəmi kapitanına və ya onun müvəkkil etdiyi şəxsə verilir, digər nüsxəsi isə kapitanın ərizəsini və gəmi jurnalından çıxarışı ona əlavə etməklə, notariusda qalır.

## XV fəsil
## SənədlərİN saxlanılmaq üçün qəbul edİlməsİ

187. Notariuslar sənədləri saxlanılmaq üçün siyahı üzrə qəbul edirlər.

Siyahı iki nüsxədə tərtib olunur, sənədləri saxlanılmaq üçün verən şəxs və notarius tərəfindən imzalanır.

Siyahının bir nüsxəsi notariusda, ikincisi isə sənədləri saxlanılmaq üçün təhvil vermiş şəxsdə qalır.

Sənədlər notariusun iştirakı ilə lazımi qaydada qablaşdırılmışdırsa, notarius şəxsin xahişi ilə sənədləri siyahısız qəbul edə bilər.

Qablaşdırma notariusun möhürü, onun və sənədləri saxlanılmaq üçün təhvil verən şəxsin imzaları ilə təsdiq edilməlidir.

Sənədləri saxlanılmaq üçün təhvil vermiş şəxsə müəyyən olunmuş formada şəhadətnamə verilir.

188. Qəbul olunmuş sənədlər notariat ofisinin möhürü ilə möhürlənmiş dəmir şkaflarda və ya seyflərdə ayrıca qovluqda saxlanılır.

189. Saxlanılmaq üçün qəbul edilmiş sənədlər onları saxlanılmaq üçün təhvil vermiş şəxsin və ya müvəkkil edilmiş şəxsin tələbi üzrə şəhadətnamə və siyahının nüsxəsi təqdim olunduqda, yaxud məhkəmənin qərarı əsasında qaytarılır.

## XVI fəsil
## Sübutların təmİn edİlməsİ

190. Notarius məhkəmələrdə, istintaq və təhqiqat orqanlarında iş başlanarkən zəruri olacaq sübutları, həmin sübutların təqdim edilməsinin sonralar qeyri-mümkün və ya çətin olacağını güman etməyə əsaslar olduqda, maraqlı şəxslərin xahişi ilə təmin edir.

Notariuslar maraqlı şəxslərin notariusa müraciət etdikləri zaman məhkəmənin , istintaq və təhqiqat orqanlarının icraatında olan işlər üzrə sübutları təmin etmirlər.

Zəruri sübutlar xarici dövlətin məhkəmə orqanına və ya digər idarəsinə təqdim olunmalıdırsa, sübutlar maraqlı şəxsin müraciət etdiyi anda işin artıq xarici dövlətin məhkəməsinin və ya digər idarəsinin icraatında olmasından asılı olmayaraq təmin edilir.

Sübutların təmin edilməsində maraqlı olan şəxs (gələcək iddiaçı, güman edilən cavabdeh) fəaliyyət ərazisində sübutların təmin edilməsi sahəsində prosessual əməliyyatlar aparılmalı olan notariusa ərizə verir.

191. Notarius sübutların təmin olunması qaydasında şahidləri dindirir, yazılı və maddi sübutları müayinə edir, ekspertiza təyin edir.

192. Notarius sübutların təmin edilməsi sahəsində prosessual hərəkətləri yerinə yetirərkən Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin müvafiq qaydalarını rəhbər tutur.

193. Notarius sübutların təmin edildiyi vaxt və yer haqqında digər tərəfə və maraqlı şəxslərə xəbər verir, lakin onların gəlməməsi sübutların təmin olunması sahəsindəki hərəkətləri yerinə yetirməyə mane olmur.

Digər tərəflərə və maraqlı şəxslərə xəbər vermədən sübutların təmin olunması yalnız təxirəsalınmaz hallarda və ya gələcəkdə kimlərin işdə iştirak edəcəyini müəyyənləşdirmək mümkün olmadıqda həyata keçirilir.

Çağırışlar üzrə şahid və ekspert gəlmədikdə, notarius Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş tədbirlərin görülməsi üçün bu barədə şahidin və ya ekspertin yaşayış yerindəki məhkəməyə məlumat verir.

194. Notarius bilə-bilə yalan ifadə, yalan rəy verməyə görə və yaxud ifadə verməkdən imtina etməyə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 297-298-ci maddələrinə əsasən məsuliyyət haqqında şahidi və eksperti xəbərdar edir.

195. Notarius sübutların təmin olunması qaydasında şahidin dindirilməsi haqqında protokol tərtib edir, protokolda aşağıdakılar göstərilir:

dindirmə tarixi, dindirməni aparan notariusun soyadı, adı, atasının adı, notariusun fəaliyyət göstərdiyi ərazi;

dindirmədə iştirak edən şəxslərin soyadı, adı və atasının adı;

şahidin soyadı, adı və atasının adı, anadan olduğu il, yaşadığı yer;

bilə-bilə yalan ifadə verməyə görə və ifadə verməkdən imtina etməyə görə məsuliyyət barədə xəbərdarlıq edilməsi haqqında qeyd;

şahidin ifadəsinin məzmunu (ona verilmiş suallar və onlara cavablar).

Protokol şahid, dindirmədə iştirak etmiş şəxslər və notarius tərəfindən imzalanır.

196. Notarius yazılı və maddi sübutların müayinəsi haqqında protokol tərtib edir; protokolda aşağıdakılar göstərilir:

müayinənin aparıldığı tarix və yer;

müayinə aparan notariusun soyadı, adı, atasının adı, notariusun fəaliyyət göstərdiyi ərazi;

müayinədə iştirak edən əlaqədar şəxslərin soyadı, adı və atasının adı, onların yaşayış yeri;

müayinə zamanı aşkara çıxarılan hallar.

Protokol müayinədə iştirak edən şəxslər və notarius tərəfindən imzalanır.

197. Notarius ekspertiza təyin edilməsi haqqında qərar çıxarır; qərarda aşağıdakılar göstərilir:

qərarın tərtib olunduğu tarix, qərar çıxarmış notariusun soyadı, adı, atasının adı, notariusun fəaliyyət göstərdiyi ərazi;

ekspertiza təyin olunmasını xahiş etmiş şəxsin soyadı, adı və atasının adı, onun yaşayış yeri;

barəsində ekspertin rəyi tələb olunan məsələlər;

ekspertiza aparılması tapşırılan ekspert idarəsinin (ekspertin) adı. Ekspertiza aparılması konkret şəxsə tapşırılırsa, onun soyadı, adı, atasının adı, yaşayış yeri, iş yeri və vəzifəsi göstərilir. Qərar notarius tərəfindən imzalanır.

Ekspertiza aparılması haqqında akt tərtib olunur, aktı ekspert və ekspertizada iştirak edən şəxslər imzalayırlar. Ekspertin rəyi ekspert tərəfindən imzalanır.

198. Sübutların təmin edilməsi icraatı qurtardıqdan sonra əlaqədar şəxsə sübutların təmin olunması qaydasında tərtib edilmiş hər bir sənədin bir nüsxəsi verilir, hər bir sənədin bir nüsxəsi isə notariusda saxlanılır.

199. Notarius sübutların təmin olunması icraatının aparılması üçün xahişlə müraciət etmiş şəxsdən şahidlərə və ekspertlərə haqq ödəmək üçün, habelə sübutların təmin edilməsi icraatı üzrə digər xərclərdən ötrü pul ödəməsini tələb edir.

Ekspertlərə və şahidlərə haqq və digər xərclər, məhkəməyə şahidlər və ekspertlər çağırıldıqda onlara haqq verilməsi üçün müəyyən olunmuş dərəcələr üzrə verilir.

Ekspertlərə və şahidlərə haqq və digər xərclər üçün vəsait əvvəlcədən notariusun depozit hesabına qoyulur. Notarius bu xərcləri həmin hesabdan ödəyir.

## IV BÖLMƏ

## Notarİat haqqında qanunverİcİlİyİn əcnəbİlərə və vətəndaşlığı olmayan şəxslərə tətbİq edİlməsİ. Xarİcİ dövlətlərİn qanunverİcİlİyİnİn tətbİq edİlməsİ. Beynəlxalq müqavİlələr və sazİşlər

200. “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 88-ci maddəsinə müvafiq olaraq əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası vətəndaşları ilə bərabər səviyyədə Azərbaycan Respublikasının notariuslarına müraciət etmək hüququ vardır.

Xarici müəssisələrin və təşkilatların Azərbaycan Respublikasının notariat ofislərinə müraciət etmək hüququ vardır.

201. Notariuslar Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq xarici dövlətlərin qanunvericiliyinin normalarını tətbiq edirlər.

Notariuslar xarici dövlətlərin qanunvericiliyinin tələblərinə müvafiq surətdə tərtib olunmuş sənədləri qəbul edir, habelə xarici dövlətlərin qanunvericiliyi ilə nəzərdə tutulan formada təsdiq qeydlərini bu şərtlə aparırlar ki, bunlar Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmasın.

202. Notarius tərəfindən təsdiq edilib, xaricdə əməliyyatlar aparmaq üçün nəzərdə tutulan və qüvvədə olma müddəti göstərilməyən etibarnamə, onu vermiş şəxs tərəfindən ləğv edilənədək qüvvəsini saxlayır, bu, etibarnamənin mətnində göstərilə bilər.

203. Əcnəbinin ölümündən sonra Azərbaycan Respublikasının ərazisində qalmış əmlakın və ya Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra əcnəbiyə çatası əmlakın qorunması ilə, habelə bu cür əmlak barəsində vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi ilə əlaqədar hərəkətlər “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 89-cu maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq bu Təlimatda ifadə olunmuş qaydalar üzrə aparılır.[290]

Müvəqqəti xaricdə yaşamış və orada ölmüş Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun xaricə getməzdən əvvəl Azərbaycan Respublikasında yaşadığı yer, bu yer məlum olmadıqda isə mirasın və ya onun əsas hissəsinin olduğu yer sayılır.

Xaricdə daimi yaşamış Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun yaşadığı ölkə sayılır.

204. Notariuslar Azərbaycan Respublikasının miras əmlakın qorunması haqqında normalar ehtiva edən beynəlxalq müqavilə bağladığı xarici dövlətin vətəndaşının ölümü haqqında məlumat aldıqda, müvafiq müqaviləni rəhbər tutaraq ölənin Azərbaycan Respublikasının ərazisində əmlakı olduğu hallarda miras əmlakın mühafizəsi üçün lazımi tədbirlər görür, miras əmlakın miqdarını və

dəyərini müəyyən edir, vərəsələri aşkar edir, vəsiyyətnamənin olub-olmadığını yoxlayır və bu barədə ölənin vətəndaşı olduğu ölkənin diplomatik və ya konsul nümayəndəliyinə həmin Təlimatda nəzərdə tutulmuş qaydada dərhal məlumat verirlər.[291]

Vərəsəlik işi üzrə icraatın aparılması beynəlxalq müqaviləyə görə vətəndaşı ölmüş xarici dövlətin idarələrinin səlahiyyətinə aid edilmişsə, miras daşınar əmlakın notariat ofisi həmin dövlətin diplomatik və ya konsul nümayəndəliyinin tələbi ilə ona verə bilər.

205. Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrə müvafiq olaraq, xarici dövlətin qanunlarında nəzərdə tutulmuş forma üzrə tərtib edilmiş vəsiyyətnamə vəsiyyət edənin ölümündən sonra açılıb elan olunmaq üçün notariusa təqdim edildikdə, notarius vəsiyyətnamənin məzmununu elan edir, vəsiyyətnamənin vəsiyyəti və məzmunu haqqında protokol tərtib edir. Protokolda vəsiyyətnamənin tərtib olunduğu tarix, vəsiyyətnaməni təqdim etmiş şəxsin adı, sənədin vəziyyəti: onun möhürlənmiş halda, yoxsa açıq şəkildə təqdim edilməsi, sənəddə pozulmuş yerlərin, düzəlişlərin və başqa nöqsanların olub-olmadığı göstərilir. Protokol notarius və vəsiyyətnaməni təqdim etmiş şəxs tərəfindən imzalanır. Vəsiyyətnamənin hər bir səhifəsi də bu şəxslər tərəfindən imzalanır. Vəsiyyətnamə möhürlənmiş halda notariusda saxlanılırdısa, yuxarıda göstərilən bütün hərəkətləri notarius təkbaşına aparır.

206. “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 91-ci maddəsinə əsasən Azərbaycan Respublikasının notariusları notariat hərəkətlərinin icrası haqqında xarici ədliyyə orqanlarından alınan tapşırıqları yerinə yetirir və ayrı-ayrı notariat hərəkətlərinin icra edilməsi haqqında tapşırıqlarla Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi vasitəsilə xarici ədliyyə orqanlarına müraciət edirlər.

207. Azərbaycan Respublikası notariuslarının xarici dövlətlərin ədliyyə orqanları ilə əlaqə qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən olunur.

Müvafiq konsul nümayəndəsinin konsul dairəsi notariusun xidmət fəaliyyəti rayonu ilə əlaqədar olduqda, notariuslar hüquqi yardım haqqında müqavilələrdə və başqa beynəlxalq sazişlərdə nəzərdə tutulmuş hallarda konsul nümayəndələri ilə bilavasitə əlaqə saxlayırlar. Qalan hallarda notariat orqanlarının konsul nümayəndəliyi ilə və diplomatik nümayəndəliklə əlaqələri Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə həyata keçirilir.

208. Notariuslar xarici dövlətlərin orqanlarında işlərin aparılması üçün tələb edilən sübutları bu Təlimatda ifadə olunmuş qaydalar üzrə təmin edirlər.

209. Beynəlxalq müqavilə ilə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş notariat hərəkətləri haqqındakı qaydalardan fərqli qaydalar müəyyən edilmişsə, notariat hərəkətləri aparılarkən beynəlxalq müqavilənin qaydaları tətbiq olunur.

“Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 93-cü maddəsinə müvafiq olaraq beynəlxalq müqavilə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmayan notariat hərəkətlərinin aparılmasını notariusların səlahiyyətinə aid edirsə, onlar bu notariat hərəkətlərini Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada aparırlar.

“Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 90-cı maddəsinə uyğun olaraq notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri aşağıdakı hallarda qəbul edirlər:

1. həmin sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarında leqallaşdırılmış olduqda;

2. “Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya” ilə müəyyən edilmiş hallarda xarici rəsmi sənədə kağız və ya elektron formada həmin Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə (apostil) verildikdə. Bu zaman elektron formada verilmiş şəhadətnamə (apostil) “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq yoxlanıldıqdan sonra qəbul edilir.

210. Azərbaycan Respublikasının qanunvericiliyində, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri leqallaşdırılmadan və ya onlara Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə verilmədən qəbul edirlər.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 30 sentyabr, № 9.- S. 4150-4194.**